RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 166 (9911) 10 avqust 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyev yeni tarix yazdı



## Azərbaycanı güclü dövlətə çevirdi, müharibədə qələbə çaldı, Cənubi Qafqaza sülh gətirdi

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-yə işgüzar səfəri çərçivəsində Ağ Evə gəlib. Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını qarşılayıb.

Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub.

Görüşdən sonra Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb.

Həmin gün Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb.

Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülhə dair saziş layihəsini paraflayıblar və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzalayıblar.

Azərbaycanın və ABŞ-nin prezidentləri, Ermənistanın Baş naziri Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər.

Prezident İlham Əliyev Vaşinqtona işgüzar səfəri çərçivəsində Azərbaycanın media nümayəndələrinə müsahibə verib.

2-6

## İlham Əliyev Şavkat Mirziyoyevə zəng edib



**Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Telefon danışığı əsnasında iyulun əvvəlində Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri və səfər çərçivəsində aparılmış səmərəli müzakirələr, əldə olunmuş razılaşmalar məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub. Bundan sonra atılmalı olan addımların Ermənistanla Azərbaycan arasında yekun sülh sazişinin imzalanmasına və onun ratifikasiyasına zəmin yaradacağı qeyd edilib.

Prezident İlham Əliyev bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu vurğulayıb, həmçinin regional nəqliyyat bağlantıları ilə əlaqədar razılaşmaların vacibliyini bildirib.

Şavkat Mirziyoyev öz növbəsində əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bunun bütün regionun inkişafına müsbət təsir göstərəcəyini qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı sərmayələrin, o cümlədən Özbəkistanın Qarabağda həyata keçirdiyi layihələr, SOCAR və "Uzbekneftegaz" Konsorsiumu ilə Özbəkistan Respublikasının Hökuməti arasında imzalanmış Pay Bölgüsü Sazişinin önəmi vurğulanıb.

*Prezidentin Mətbuat xidməti*

## Dünyanın diqqətində olan sülh sammiti

### Ağ Evdə Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcı qoyuldu

ABŞ Prezidenti Donald Tramp davamlı olaraq Azərbaycanın bölgə ilə bağlı sülh səylərini dəstəkləyir. Xatırladaq ki, bu ilin iyulunda Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü sülh prosesi istiqamətində atılmış mühüm addım oldu. Həmin görüşdə iki ölkə arasında sülh və normallaşma istiqamətində reallaşdırılacaq məsələlərlə bağlı müzakirələr aparıldı, razılaşmalar əldə edildi.

Əbu-Dabidə Ermənistan ilə Azərbaycan liderlərinin ikitərəfli görüşündən dərhal sonra ABŞ tərəfindən bölgədə sülh səylərinin dəstəklənməsi ilə bağlı açıqlama verildi. Birləşmiş Ştatların Prezidenti Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə uğurla və birdəfəlik həll olunacağını bildirdi.

10



## Prezident İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində ABŞ-yə işgüzar səfəri ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində Amerika Birləşmiş Ştatlarına (ABŞ) işgüzar səfəri ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri (07-09.08.2025)" sözləri yer alıb.

## Tramp sosial mediasında Azərbaycan və Ermənistanla bağlı 20-dən çox paylaşım edib




ABŞ Prezidenti Donald Tramp "Truth" sosial mediasındakı səhifəsində son sutka ərzində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Baş naziri Nikol Paşinyanın Vaşinqtona səfəri, görüşlər, imzalanmış sənədlər və çıxışlarla bağlı 20-yə yaxın paylaşım edib.

AZƏRTAC-ın məlumatına görə, bu müddətdə o, Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışını 2 dəfə səhifəsinə yerləşdirib.

Donald Trampın "Truth" sosial mediasındakı səhifəsinin 10 milyondan çox izləyicisi var. ABŞ lideri vacib açıqlama və bəyanatlarını bu hesab vasitəsi ilə elan edir.

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğana zəng edib



**Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Telefon danışığı zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlığa və strateji müttəfiqliyə əsaslanan əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz əlaqənin yaradılmasına xidmət edəcək nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında normallaşma prosesində Prezident Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin oynadığı rolu yüksək qiymətləndirib və buna görə təşəkkürünü bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan regionda sülh gündəliyinin irəli aparılmasında nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə təbriklərini çatdırıb və qeyd edib ki, Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir.

Söhbət zamanı Azərbaycan təbii qazının Türkiyə ərazisindən Suriyaya ixracının başlanması müsbət hadisə kimi qiymətləndirilərək, bunun Suriyanın enerji təhlükəsizliyinə və əhalinin sosial rifahının gücləndirilməsinə töhfə verəcəyi bildirilib.

Telefon danışığı əsnasında Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

## Azərbaycan-Sinqapur dostluq əlaqələrini inkişaf etdirmək yolunda birgə səylər davam etdiriləcək

### Sinqapur Respublikasının Prezidenti zati-aliləri cənab Tarman Şanmuqaratnama

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının müstəqilliyinin 60-cı ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Sinqapur ötən dövr ərzində böyük yol keçərək dünyada sürətlə və dinamik inkişaf edən, iqtisadiyyat, sənaye, elm, müasir texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmiş dövlətə çevrilmişdir.

İnanıram ki, Azərbaycan-Sinqapur dostluq əlaqələrini və qarşılıqlı faydalı əməkdaşlığını inkişaf etdirmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2025-ci il*

◆ Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

# İlham Əliyev yeni tarix yazdı

## Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb

**Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-yə işgüzar səfəri çərçivəsində Ağ Evə gəldi.**

AZƏRTAC xəbər verir ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını qarşıladı.

Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü oldu.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.

Daha sonra dövlət başçıları söhbət etdilər.

**Prezident İlham ƏLİYEV** dedi: 33 il davam edən sanksiyaların sonu Prezident Trampın sayəsində mümkün oldu.

**Prezident Donald TRAMP** dedi: Xalqınız böyük xalqdır. Bizim şəxsi tanışlığımızdan əvvəl belə Siz mənim haqqımda gözəl sözlər söylədiniz. Hətta bizim seçkilərdə qalib gəlməyimizdən əvvəl.

**Prezident İlham ƏLİYEV:** Bəli, Sizin qalib olmağınızdan əvvəl. Bu, mənim səmimi sözlərim idi. Siz ilk prezidentlik dövrünüzdə gördüyünüz işlərə görə Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin rəğbətinə layiqsiniz. Son bir neçə ay ərzində Siz Asiya, Afrika və nəhayət, Cənubi Qafqaza sülh gətirdiniz. İnanılmazdır.

**Prezident Donald TRAMP:** Pakistan və Hindistan arasında qarşıdurma. Bu, ciddi məsələ idi, çünki hər ikisi nüvə silahına malik ölkədir.

**Prezident İlham ƏLİYEV:** Kamboca və Tailand.

**Prezident Donald TRAMP:** Bəli, böyük işlər gördük. Siz də həmin işləri görərdiniz. Sizin münaqişə də ciddi məsələdir, nə qədər sürdü döyüşlər - 33, 35 il?

**Prezident İlham ƏLİYEV:** Bəli, münaqişə 1988-ci ildə başlayıb. Lakin hərbi qarşıdurmanın fəal fazası 1991-1992-ci illərdə başlayıb.

**Prezident Donald TRAMP:** Lakin münaqişə həll edilmirdi.

**Prezident İlham ƏLİYEV:** Xeyr. Müharibə 1994-cü ildə dayandı və sonsuz, mahiyyətdən məhrum olan danışıqlar dövrü başladı.

**Prezident Donald TRAMP:** Bu, çox ciddi bir məsələdir.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, Siz möcüzəyə imza atdınız.

**Prezident Donald TRAMP:** Ancaq mətbuat bunu heç vaxt eşitmək istəmir.

**Prezident İlham ƏLİYEV:** Azərbaycan mətbuatı bunu işıqlandıracaq.

**Prezident Donald TRAMP:** Siz böyük lidersiniz.










**Prezident İlham ƏLİYEV:** Böyük lider mənim yanımda əyləşib.

**Prezident Donald TRAMP:** Mənim Sizin üçün hədiyyəm var. İcazə verin, onu təqdim edim. Zənnimcə, bəyənəcəksiniz.

**Prezident İlham ƏLİYEV:** Mənim 9 nəvəm var, icazə versəniz, hamısını götürərdim.

**Prezident Donald TRAMP:** Sizin 9 nəvəniz var? Mənə əlavə sikkə verin. Siz gözəl danışıq aparırsınız. Bu sikkələr hamının xoşuna gəlir. Dünyanın ən gözəl sikkəsidir. Bəlkə də dünyanın ən bahalı sikkəsidir. Heyət üzvləri yaxınlaşın və şəklinizi də çəksinlər.

Sonda Ağ Evin rəmzi açarını Prezident İlham Əliyevə təqdim edən **Prezident Donald TRAMP** dedi: "Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm".

## Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb




Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar.

AZƏRTAC bəyannaməni təqdim edir.

*Bax: səh. 3*

◆ Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

# İlham Əliyev yeni tarix yazdı

## Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb

### Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair BİRGƏ BƏYANNAMƏ

Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək aşağıdakıları bəyan edirik:

1. *Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq;*
2. *Biz həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;*



3. *Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;*
4. *Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;*
5. *Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra, nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;*
6. *Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;*
7. *Biz bu vacib Zirvə görüşünə evsahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik.*

Bu Bəyannamə 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində imzalanmışdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Nikol PAŞİNYAN,***
***Ermənistan Respublikasının Baş naziri***

***Şahidlik etdi:***
***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülhə dair saziş layihəsini paraflayıblar və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzalayıblar



Avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini parafladılar və Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətini (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzaladılar.

# Azərbaycanın və ABŞ-nin prezidentləri, Ermənistanın Baş naziri Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə ABŞ Prezidenti mətbuata bəyanatla çıxış etdi.**

### Prezident Donald Trampın bəyanatı

- Bu ölkələr uzun illər ərzində - 35 il müharibə şəraitində olublar. İndi isə onlar dostdur və bundan sonra uzun müddət dost qalacaqlar. Bu gün Ağ Evdə Ermənistan ilə Azərbaycan arasında sülh sammitində hər kəsi qəbul etməkdən böyük şərəf duyuram. Mən böyük insanların bir araya toplanmasından böyük zövq alıram və burada məhz bu baş verir. İki uzaqgörən lider - Prezident Əliyev və Baş nazir Paşinyanı Vaşinqtona səfər edərək bu mühüm bəyannamənin imzalanması münasibətilə təbrik edirəm. Bu, çox vacib bir sənəddir. Mənə bildirildi ki, keçmişdə tərəflər dəfələrlə buna nail olmağı mümkün hesab ediblər, lakin bu baş verməyib. Mən həmçinin Dövlət katibi Marko Rubio, xüsusi elçi Stiven Uitkoff və Dövlət Departamentində çalışan heyətlərə təşəkkürümü bildirmək istərdim. Eyni zamanda sizin ölkələrdən də burada dövlət rəsmiləri var və onlar da bu işlərə böyük diplomatik dəstək veriblər.

Ermənistan və Azərbaycan 35 ildən artıq müharibə şəraitində olub. Bu münaqişə uzun illər ərzində insanlara əziyyət və məhrumiyyət gətirmişdir. Bir çox ölkələr, həmçinin Avropa İttifaqı, Rusiya bunun üzərində gərgin çalışıb, lakin buna nail ola bilməyib. Ayaq üstə yuxulayan Co Bayden də bu məsələ ilə məşğul olmağa çalışıb, ancaq nəticəsi necə olub bəllidir. O, yəqin ki, bu işə 12 dəqiqə vaxt sərf edib.

Bu razılaşma ilə biz sülhü təmin etməyə müvəffəq olmuşuq. Biz bir az əvvəl oval ofisdə bu sazişə aid olan çoxsaylı sənədləri və vacib elementləri imzaladıq. Ermənistan ilə Azərbaycan kommersiya və səyahət əlaqələrinin qurulmasına, diplomatik münasibətlərin yaradılmasına sadiqliyini vurğulayır, bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət bəslədiyini bəyan edir. Bu iki şəxs o qədər də tez-tez görüşmürdü, ancaq bundan sonra aralarında gözəl münasibətlər olacaq. Mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun öz əksini tapmasıdır. Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxış əldə edəcək. Yəni bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq.



Ermənistan ABŞ-lə birlikdə bu dəhlizin inkişafı ilə bağlı xüsusi tərəfdaşlıq yaradır. Bu tərəfdaşlıq 99 illik olacaq və bizə vəd verilib ki, bu müddət uzadıla bilər. Bəli, siz bizə söz verdiniz. Orada Amerika infrastruktur şirkətlərinin böyük layihələrlə məşğul olacağını gözləyirik. Onlar bu iki ölkədə çalışmağı arzulayır və bu işlərə böyük maliyyə vəsaiti ayıracaqlar. Bu, üç ölkəyə iqtisadi səmərə gətirəcək və vacib bir region üçün çox əhəmiyyətli xəbərdir.

Bununla yanaşı, ABŞ hər iki ölkə ilə enerji, ticarət, texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsinə dair ikitərəfli sazişlər imzalayır. O cümlədən süni intellekt sahəsində. Enerji sahəsinə gəldikdə, burada ölkəmizi energetika naziri Kris Rayt təmsil edir və o, bu işi hər kəsdən gözəl bilir. Onun mənə verdiyi məlumata görə, bu sahə münbitdir və görüləcək işlər var. Mən onun fəaliyyətini yüksək qiymətləndirirəm və ölkədə benzinin qiymətinin ciddi ucuzlaşmasında onun böyük əməyi var. Biz həmçinin bəlkə tarixdə heç vaxt olmadığı qədər neft və qaz quyuları qazırıq və bu, hələ başlanğıcdır.

Biz həmçinin müdafiə sahəsində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığa olan məhdudiyyəti aradan qaldırırıq. Bu, həm Sizin və həm də mənim üçün əhəmiyyətli məsələdir. Bir Prezident olaraq mənim ən böyük istəyim dünyada sülhün və sabitliyin bərqərar edilməsidir.

İndi isə sözü Azərbaycan Prezidentinə vermək istərdim.

❖ ❖ ❖

Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış etdi.



### Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm cənab Prezident. ABŞ Prezidenti tərəfindən bu tarixi tədbirə dəvət edilməyimdən şərəf duyuram. Birincisi, bu gün biz Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərimizdə yeni tarix yazırıq. Biz strateji tərəfdaşlıq yoluna qədəm qoyuruq və bir neçə ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası işlənib hazırlanacaq. Bu isə Azərbaycan üçün tarixi nailiyyətdir. Çünki dünyanın ən qüdrətli ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq həm fürsətdir, həm də məsuliyyət. Bu strateji tərəfdaşlıq formatı bir çox vacib sahələri əhatə edir - qarşılıqlı sərmayə, ticarət, enerji, bağlılıq, tranzit, süni intellekt, müdafiə sahəsində kontraktlar və terrorizmlə mübarizə. Bu günədək bu sahələrdə əməkdaşlığımız olub və ümid edirəm ki, gələcəkdə də fəal əməkdaşlığımız olacaqdır. Bu, Azərbaycan üçün inkişaf yolunda iqtisadiyyatın şaxələndirilməsi, bu gün olduğu kimi, işsizliyin aşağı səviyyədə saxlanılması və gələcəyə böyük nikbinliklə baxmaq üçün yeni imkanlar yaradır.

Həmçinin cənab Prezidentə məhdudiyyətlərin aradan qaldırılmasına görə təşəkkürümü bildirirəm. Azərbaycana qarşı həmin məhdudiyyətlər 1992-ci ildə - müstəqilliyinin bərpasından bir il sonra tətbiq edilib. Bizə qarşı tətbiq edilmiş bu məhdudiyyət 33 ildən sonra bu gün aradan qaldırıldı. Həqiqətən bu gün Azərbaycan xalqının yaddaşına həm qürur, həm də Prezident Trampa minnətdarlıq hissi ilə həkk olunacaq. Onun həm Azərbaycana olan münasibəti və təkcə bizim regionumuz deyil, - bu gün mən bunu fikir mübadiləmizdə qeyd etdim, - cəmi bir neçə ay ərzində Prezident Tramp Afrikada, Asiyada və nəhayət, Cənubi Qafqazda 30 il ərzində əldə oluna bilinməyəni təmin etdi. Biz insanların qurban verilməsi, böyük itkilər ilə nəticələnən iki çox ağır müharibə aparmalı olduq. Prezident Tramp və onun komandası, bizim yaxşı dostumuz Stiven Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan yəqin ki, hələ də sonsuz danışıqlar prosesində idilər.

Bu, həqiqətən, tarixi gündür - biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq.

Cənab Prezident, ölkələrimiz, regionumuz və bütün dünya üçün gördüyünüz işlərə görə bir daha təşəkkür edirəm.

**Prezident Donald TRAMP:** Hər iki şəxs böyük liderdir. Siz neçə ildir ölkənizdə rəhbər vəzifədə çalışırsınız?

**Prezident İlham ƏLİYEV:** 22 ildir.

**Prezident Donald TRAMP:** 22 il. Bu o deməkdir ki, Siz güclü və ağıllı insansınız, regionunuz dünyanın gözəl bölgəsidir. Bu işdə iştirak etmək mənim üçün böyük şərəfdir.

Söz verilir Ermənistanın Baş naziri Nikol Paşinyana.

❖ ❖ ❖

Ermənistanın Baş naziri bəyanatla çıxış etdi.

*Bax: səh. 4*

◆ Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

# İlham Əliyev yeni tarix yazdı

## Azərbaycanın və ABŞ-nin prezidentləri, Ermənistanın Baş naziri Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər









### Baş nazir Nikol Paşinyanın bəyanatı

- Təşəkkür edirəm, cənab Prezident.

Xanımlar və cənablar. Bu gün biz Ermənistan-Azərbaycan münasibətlərində mühüm nailiyyət əldə etdik. Biz keçmiş tariximizdən fərqli olacaq yeni hekayənin təməlini qoyuruq. Bu sıçrayış Prezident Trampın şəxsi iştirakı və regionumuzda sülhün bərqərar edilməsinə güclü sadiqliyi olmadan mümkün deyildi. Sülh sazişinin paraflanması ölkələrimiz arasında onilliklərdir davam edən münaqişəyə son qoyulmasına yol açacaq, onlar üçün bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşaraq, yeni dövrü başladacaq. Bu gün Prezident Trampın şahidliyi ilə onun da imzaladığı bəyannamə daha çox əminlik və inam yaradır ki, biz Cənubi Qafqazda sülh, rifah, təhlükəsizlik və iqtisadi əməkdaşlıq səhifəsini açırıq. Bu baxımdan, icazə verin, suverenlik, ərazi bütövlüyü və yurisdiksiya prinsipləri əsasında regionda nəqliyyat yollarının açılmasına dair razılaşmanı qeyd edim. Mən çox məmnunam ki, bütöv bir bölgənin imkanlarını təmin edəcək bağlantılar layihəsi sayılan "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun qurulması üçün Ermənistan ABŞ-lə birgə işləyəcək.

TRIPP yolu uzunmüddətli fayda gətirəcək strateji iqtisadi imkanlar açacaq. Onun sayəsində infrastruktura sərmayələr, daha geniş regional bağlantılar təşviq olunacaq, münaqişənin həllində carçı kimi tanınan ABŞ rəhbərliyi ilə əməkdaşlıq güclənəcək. Mən Ermənistan ilə Azərbaycan arasında vəziyyəti tam dəyişən nəticələrin əldə olunmasına görə Prezident Trampa və onun heyətinə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün əldə etdiyimiz razılaşma çox əhəmiyyətlidir. Bu, ölkələrimiz və regionumuz üçün uğurdur, dünya üçün uğurdur. Çünki daha dinc region, daha təhlükəsiz dünya deməkdir. Bu, qısaca desək, gücə əsaslanan sülh deməkdir. Cənab Prezident, bu gün əldə olunan böyük nailiyyət qlobal rəhbərliyinizin daha bir təzahürüdür və sizin dünya miqyasında sülh yaradan insan və dövlət xadimi kimi irsinizdir.

Sülhün bərqərar olunması uzaqgörənlik, siyasi cəsarət və qətiyyət tələb edir. Lakin ən vacibi odur ki, o, bu işlərə inamı tələb edir. "İncil"də yazıldığı kimi, "sülh yaradanlar xoşbəxtdirlər, çünki onlar Allahın oğulları adlandırılacaqlar. Tanrı onların yolunu açıq etsin".

Təşəkkür edirəm və hamımızı təbrik edirəm. Prezident Əliyev, Sizi və hamımızı, Azərbaycan, Ermənistan və ABŞ-dən olan həmkarları, regionumuzun bütün xalqlarını, ölkələrimizin bütün insanlarını təbrik edirəm.

Hamıya təbriklərimi çatdırıram, çünki dediyim kimi, bununla birmənalı olaraq daha yaxşı dünya qurulacaq. Sağ olun.

**Prezident Donald TRAMP:** Əla. Sağ olun.

❖ ❖ ❖

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Sammitinin nəticələri ilə bağlı birgə bəyannaməni imzaladılar.

❖ ❖ ❖

**Prezident Donald TRAMP:** Bu, həqiqətən, böyük nailiyyətdir və sizləri təbrik edirəm. Siz iki inanılmaz lidersiniz. Adınız tarixə düşəcək. Mən münaqişənin nə qədər uzun çəkdiyini oxudum. Siz bundan keçmisiniz. Bəzi insanlar gözləntilərinizi doğrultmayıb və sair. Bəlkə siz kiminsə qane etməmisiniz. Bilmirəm bunlar sizdə necə olub. Lakin adətən işlər bu cür gedir. Lakin həmin məsələ çox, çox xüsusidir. Beləliklə, mən, ümumiyyətlə, həmin məsələnin ortasında qalmaq istəməzdim, lakin bəzi suallar veriləcək. Həmin məsələyə aid suallar olacaq. Bu gün ərzində biz digər məsələləri də elan edəcəyik.

❖ ❖ ❖

Sonra suallar cavablandırıldı.

**Sual:** Qarabağ ermənilərinə qayıtmaq imkanı veriləcəkmi? Həmçinin Prezident Trampa Nobel Sülh Mükafatının verilməsi barədə aparılan söhbətlərə münasibətiniz necədir?

**Baş nazir Nikol PAŞİNYAN:** Düşünürəm ki, Prezident Tramp Nobel Sülh Mükafatına layiqdir. Biz onun namizədliyini dəstəkləyəcəyik və təşviq edəcəyik. Təbii haldır. Bir sözlə, düşünürəm ki, bu gün keçirilən tədbir onun bariz nümunəsidir. Ümidvarıq ki, siz bizi dəvət edəcəksiniz.

**Prezident Donald TRAMP:** Bəli. Siz ön cərgədə oturacaqsınız.

**Baş nazir Nikol PAŞİNYAN:** Bəli. Bəli.

**Prezident Donald TRAMP:** Çox sağ olun.

**Baş nazir Nikol PAŞİNYAN:** Biz lehinəyik.

**Prezident Donald TRAMP:** Çox sağ olun.



**Prezident İlham ƏLİYEV:** Olar bir təklif verim?

**Donald TRAMP:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Bəlkə Prezident Trampa Nobel Sülh Mükafatının verilməsi məqsədilə Nobel Komitəsinə birgə müraciətin göndərilməsində Baş nazir Paşinyanla razılaşaq. Çünki üç onillikdən artıq müharibədə olmuş ölkələrin rəhbərlərinin burada tarixi imza atmaları, həqiqətən, böyük əhəmiyyət kəsb edir. Bu, Prezident Trampın rəhbərlik səylərinin nəzərəçarpan nəticəsidir. Heç kəs buna nail ola bilməyib. 1990-cı illərin əvvəlindən burada çox prezidentlər olub, Minsk qrupu olub. Yeri gəlmişkən, 1992-ci ildə fəaliyyətə başlamış həmin qrupa bu gün biz erməni həmkarımla son qoyuruq. ATƏT-in vasitəçiliyi ilə aparılan danışıqlar üç onillikdən çox çəkdi və heç bir nəticə vermədi.

Bəs əgər Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik.

Ümid edirəm ki, mən həmçinin Prezidentin mükafatlandırma mərasiminə qoşulacağam. Ümidvarıq ki, o, bizi mərasimə dəvət edəcək.

**Prezident Donald TRAMP:** Sağ olun. Siz təbii ki, olacaqsınız. Çox sağ olun.

**Baş nazir Nikol PAŞİNYAN:** İndi imzalamaq üçün layihəmiz varmı?

**Prezident Donald TRAMP:** Baxarıq, necə olacaq.

**Prezident İlham ƏLİYEV:** Biz imzalamaq istərdik.

**Prezident Donald TRAMP:** Çox sağ olun. Çox yaxşı. Bilirsiniz, burada və orada hər zaman kiçik problemlər olur, elə deyilmi? Böyük problemlər həll olunub. Ən böyüklər artıq geridə qaldı.

**Prezident İlham ƏLİYEV:** İlk növbədə qeyd etmək istərdim ki, bu gün biz artıq neçə vaxtdır danışıqlar prosesində olan sülh sazişini parafladıq. Onun burada, dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində və Birləşmiş Ştatların hörmətli Prezidenti qarşısında paraflanması faktı göstərir ki, tərəflərdən heç biri geri çəkilməyəcək. Bununla bağlı heç bir şübhə yoxdur.

Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək.

**Prezident Donald TRAMP:** Həqiqətən, çox əla bəyanatdır.

**Baş nazir Nikol PAŞİNYAN:** Üzr istəyirəm, tam razıyam. Heç bir əlavəm də yoxdur.

**Prezident Donald TRAMP:** İki əla bəyanatdır, bununla belə, əla hazırlanmış bəyanatdır. Oldu. Gəlin, bir neçə sual da dinləyək. Buyurun.

**Sual:** Cənab Prezident, Cənubi Qafqazda bir çoxları Amerikanın Azərbaycanla ikitərəfli münasibətlərdə olan maneələrin və dünyanın həmin hissəsindəki sülhün olmamasının günahını Sizin sələfiniz Co Bayden və onun Dövlət katibi Entoni Blinkenin üzərinə qoyur. Ölkənizin və administrasiyanızın Azərbaycan və Ermənistanla tərəfdaşlığının gücləndirilməsi Sizin üçün nə dərəcədə əhəmiyyətlidir? Bu, Sizin irsiniz üçün nə kimi əhəmiyyət kəsb edir?

**Prezident Donald TRAMP:** Bəli, mənim üçün əhəmiyyətlidir. Bilirsiniz, keçmişdə nəyin baş verdiyini bilirəm, çünki çox oxumuşam və onlar arasında uzun müddət çox ağır münasibətlər olub. Yəni müharibə olub. Bir çox dövrlərdə müharibə olub. Amma işlər düzəlir və ona görə onlar əla insanlardır.

Mən Ermənistandan çox insanı tanıyıram. Hər iki ölkədən çox insanı tanıyıram və onlar inanılmaz şəxslərdir. Baş vermiş hadisələr gərək olmayaydı. Arzu edirdim ki, burada daha tez olum. Əgər seçkilər başqa cür keçsəydi, bu gün hər şey əla olardı. Mən ziddiyyətli danışmaq istəmirəm, lakin qeyd edirəm ki, seçkilər saxtalaşdırılmışdı.

Məsələni dörd il tez həll edə bilərdim. Lakin həqiqət göz qarşısındadır. Əgər seçkilər saxtalaşdırılmasaydı, mən burada dörd il əvvəl olardım. Biz həmin müqaviləni dörd il əvvəl imzalaya bilərdik. Lakin bu, baş vermədi. Bayden administrasiyası, həqiqətən, çox az iş gördü, əslində, heç nə etmədi. Bu iş üçün heç nə etmədilər. Mənim solumda və sağımda iki çox ağıllı insan əyləşib. Onlarla tanış oldum, onlar çox ağıllı insanlardır. Düşünmürəm ki, onlar nə vaxtsa məni məyus etsinlər. Onlar müəyyən işlərə görə mənə zəng edə bilərlər. İndi mən onları sınaqdan keçirəcəyəm və onlar mənə zəng edəcəklər, çünki bunu sevirlər. Lakin onlar hər hansı problem yaratmayacaqlar.

Bizim çox əhatəli sazişimiz var. Bu, sülh sazişidir, atəşkəs deyil. Bu, elə bir məsələ deyil ki, sonraya saxlayaq. Bu, sülh sazişidir və onlar bir-biri ilə çoxlu işgüzar əlaqələr yaradacaqlar. Onlar Birləşmiş Ştatlarla iş quracaqlar və mən isə hər zaman, ən azı burada olduğum zaman onların nə dərəcədə ağıllı, nə dərəcədə yaxşı insan olduqlarını xatırlayacağam.

Ticarət və digər məsələlərə gəldikdə, biz hər zaman 100 faiz dərəcəsində işləyirik. Biz onlara yaxşı olması üçün öz yolumuzla gedəcəyik. Onlar çox yaxşı iş gördülər və çox cəsarət göstərdilər. Onlar dünyanın çox mürəkkəb, olduqca çətin bölgəsindən gəliblər. Bu, dünyanın çox çətin, lakin mühüm hissəsidir. Onlar ağıllı, lakin məğrur insanlardır. Bilirsiniz, onların böyük enerji sərvətləri var. Mən Kris ilə söhbət etdim və o dedi ki, onların sərvəti çox böyükdür. Lakin sərvət hər zaman problemləri həll etmir. Başqa məsələlər tələb olunur. Onlar çox xoş təəssürat bağışlayan iki liderdir və onlarla işləmək şərəfdir.

Mən həyatları xilas etmək istəyirəm. İnsan həyatını xilas etməkdən məmnun oluram. Bu belədir! Bilirsiniz, insan həyatını xilas etdiyin təqdirdə, dinc, sülhsevər dünya yaranır. Adətən, bu, kifayət qədər yaxşı nəticə verir. Mən hər kəsə, xüsusən də bu gün addım atmağa cəsarətli olmuş iki böyük liderə təşəkkürümü bildirirəm. Onlar tarix kitablarına düşəcəklər. Burada iştirak etmək böyük şərəfdir.

Çox sağ olun.

◆ Prezident İlham Əliyevin
Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

# İlham Əliyev yeni tarix yazdı

## Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib

**Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib.**



**Vüsal MƏTLƏB,** AzTV-nin müxbiri: **Xoş gördük, cənab Prezident. Siz Amerika Birləşmiş Ştatları Prezidenti cənab Donald Trampın dəvəti ilə bu ölkədə səfərdəsiniz və bu gün Azərbaycanda hər kəs Vaşinqtondan xəbərlər gözləyir. Odur ki, bu müsahibəyə görə təşəkkür edirik. İcazənizlə, suallara keçək.**

**Cənab Trampla görüşünüzü və Amerika Birləşmiş Ştatları-Azərbaycan arasında Strateji Tərəfdaşlığa dair Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması ilə bağlı sənədin əhəmiyyətini və ümumilikdə bu səfərin nəticələrini necə qiymətləndirərdiniz?**

**Prezident İlham ƏLİYEV:** Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir.

Prezident Trampla görüşümüz çox səmimi şəkildə keçdi. Deyə bilərəm ki, dostluq şəraitində keçdi. Bir çox önəmli məsələlər müzakirə edildi. Eyni zamanda bildiyiniz kimi, Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradılmışdır və əlbəttə ki, bu sənədin böyük əhəmiyyəti var. Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir. Yəni, sadəcə olaraq, bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır və artıq mənim göstərişimlə Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Biz öz təkliflərimizi irəli sürəcəyik. Artıq mənim səfərim çərçivəsində Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirilmişdir. Yəni biz vaxt itirmək istəmirik. Onsuz da əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial, demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Ona görə indi biz vaxt itirə bilmərik. Xüsusilə cənab Trampın və onun administrasiyasının nümayəndələrinin - komandasının Azərbaycana olan müsbət münasibətini, yəqin ki, tamaşaçılar da bizim keçirdiyimiz görüşlərdən və mətbuat konfransındakı ab-havadan hiss ediblər.

Bu xoş münasibət, əlbəttə ki, çox önəmli bir amildir. Bu nöqteyi-nəzərdən səfərin çox böyük əhəmiyyəti var. Bu, Prezident Trampla mənim birinci görüşümdür. Yenə də demək istəyirəm ki, görüş çox səmimi şəkildə keçdi. Onun Azərbaycanla bağlı olan bilgiləri, sözün düzü, məni təəccübləndirdi. O, bir çox məsələləri dərindən bilir. Azərbaycanın önəmini, onun geosiyasi əhəmiyyətini, Azərbaycanın Amerika Birləşmiş Ştatlarına həmişə dost ölkə olmasını cənab Tramp çox yaxşı bilir. Əlbəttə ki, şəxsi təmaslar bizim münasibətlərimizdə önəmli rol oynayacaq. Təbii ki, 907-ci düzəlişin ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək.

**Oubai ŞAHBANDAR,** AnewZ televiziyasının müxbiri: **Cənab Prezident, çox möhtəşəm, tarixi bir gündür. Siz və Baş nazir Paşinyan hətta Nobel Mükafatı Komitəsinə birgə müraciət edəcəyinizə dair fikir söylədiniz. Biz eşitdik ki, Prezident Tramp Sizin baxışınızı və liderliyinizi alqışlayır. Siz də bu gün bu razılaşmaya səbəb olan Prezident Trampın uzaqgörən rəhbərliyini yüksək dəyərləndirirsiniz. Bildiyiniz kimi, Prezident Trampla şəxsi münasibətlər çox önəmlidir. Rəhbərlər arasında münasibətə, Prezident Trampla şəxsi münasibətlərinizə necə qiymət verərdiniz? Prezident Trampın onilliklər əvvəl Konqres tərəfindən qəbul edilmiş və Amerikanın Azərbaycana yardımına mane olan 907-ci düzəlişi dayandırmasını görmək Sizin üçün nə dərəcədə əhəmiyyətli idi. Bu, Azərbaycan və ABŞ üçün yeni bir məqamdırmı?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, belədir! Əminəm ki, biz münasibətlərimizdə yeni səhifə açırıq. Şəxsi təmasa gəldikdə, bu, Prezident Trampla bizim ilk görüşümüz idi. Çox mehriban, səmimi və nəticəyönümlü görüş keçdi. Təbii ki, mən Prezident Trampı əvvəlki prezidentlik müddətindən və bu altı ayda gördüyü işlərdən tanıyırdım. Prezident Tramp mənim kim olduğumu bilmirdi, amma o, mənim haqqımda komanda üzvlərindən eşidib. Təbii ki, Prezident Trampa mənim şəxsi münasibətim hər zaman çox müsbət olub və hətta keçən ilin ortalarında mənə ABŞ-dəki seçkilərlə bağlı sual verəndə, mən düşündüyümü açıq şəkildə demişdim. Demişdim ki, biz onu dəstəkləyirik. Çünki o, yəqin ki, müharibələr başlamayan yeganə Amerika Prezidentidir və bu, həqiqətdir. O, Azərbaycan xalqı kimi ailə dəyərlərinə önəm verən insandır. Təbii ki, bu gün mətbuat konfransında qeyd etdiyim kimi, o, bu altı ay ərzində qeyri-mümkün görünən işlər gördü: istər Afrikada, Asiyada və Cənubi Qafqazda. O, sülh gətirir və ortaya nəzərəçarpan nəticələr qoyur. Beləliklə, mən bu baxımdan



bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə bu şəxsi münasibətlər ölkələrimiz arasında dövlətlərarası əlaqələrə çox müsbət təsir göstərəcək.

Əlbəttə ki, "Azadlığa dəstək aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə, biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik. Sonra bildiyiniz kimi, 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Biz isə çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər. Dayandırılmaması bizim üçün böyük şok oldu, çünki Bayden administrasiyasından belə bir yanaşma gözləmirdik. Əfqanıstanda bizə ehtiyac olmadığına görə Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə buna əl atdı. Bundan sonra bizə qarşı sanksiyalar yenidən qüvvəyə mindi. Bu, yəqin ki, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi. Əslində, bu, Bayden administrasiyası ilə onların hakimiyyətinin sonuna qədər düzəlməyən əlaqələrimizin ciddi şəkildə pisləşməsinə səbəb oldu. Beləliklə, münasibətlərimiz dərin böhran içində idi.

Odur ki, Prezident Trampın bu rəmzi jestinin bizim üçün çox dərin mənası var. Təbii ki, bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi məna daşıyır. Bu, ədalətsizliyin artıq aradan qalxdığını göstərir. Beləliklə, bu, Prezidentin adından çox mühüm siyasi jest idi. Eyni zamanda bu gün onun ofisində bu sənədlə bərabər, Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması haqqında sənədi də imzaladıq. Bu iki mühüm hadisə bu gün baş verib. Buna görə də mən avqustun 8-ni dövlətlərarası münasibətlərimizdə tarixi gün hesab edirəm və bu da bütün regiona çox müsbət təsir göstərəcək. Şübhəsiz ki, bu gün Azərbaycan ilə Ermənistan arasında baş verənlər Cənubi Qafqazda sülh, sabitlik və firavanlıq istəyənlərin hamısı üçün, bütün region üçün çox əhəmiyyətli olacaqdır.

**Abbasəli YADİGAROV,** AZƏRTAC-ın müxbiri: **Cənab Prezident, bu gün çox önəmli sənədlər imzalandı. Hamıya yaxşı məlumdur ki, İkinci Qarabağ müharibəsində Zəfərdən sonra sülh müqaviləsi təşəbbüsünü məhz Azərbaycan irəli sürmüşdür. Bu baxımdan, bu gün imzalanan sənədlərin əhəmiyyətini necə şərh edərdiniz?**

**Prezident İlham ƏLİYEV:** Bəli, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Ermənistan-Azərbaycan gələcək əlaqələri və təmasları sahəsində bir boşluq, bir vakuum yaranmışdı. O vaxt hələ fəaliyyət göstərmək istəyən ATƏT-in Minsk qrupu da demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Onlar bilmirdilər ki, nə etmək lazımdır. Çünki Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdir. Qarabağ münaqişəsi, Azərbaycan-Ermənistan münaqişəsi hərbi-siyasi yollarla öz həllini tapmışdır. Azərbaycan məhz o vaxt gələcək baxışlarını ortaya qoydu. Yəni ki, bu boşluq çox davam edə bilməz. Yəni Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmalıdır və onun təşəbbüskarı qeyd etdiyiniz kimi, biz olmuşuq. Biz o təşəbbüsü irəli sürəndən sonra yenə də heç yerdən cavab gəlmədi. Onda biz məlum əsas beş prinsipi ortaya qoyduq və bunun üzərində sülh sazişinin mətnini də biz hazırlamışdıq.

Bildiyiniz kimi, ondan sonra bizim təşəbbüsümüzlə danışıqlar prosesi başlamışdı. Danışıqlar prosesi o qədər də hamar getmirdi. Onun da əsas səbəbi ondan ibarət idi ki, o vaxt Ermənistan tərəfi sülh sazişinə Qarabağla bağlı müddəanı daxil etdirmək istəyirdi. Halbuki bu, heç bir məntiqə sığmayan, heç bir hüquqi və siyasi əsası olmayan məsələdir. Biz Ermənistan tərəfinə izah etməyə çalışırdıq ki, bu, bizim daxili məsələmizdir və dövlətlərarası sazişə hər hansı bir ölkənin daxili məsələsi daxil oluna bilməz. Ancaq buna baxmayaraq, Ermənistan təkidlə öz mövqeyindən geri çəkilmək istəmirdi.

Yəqin ki, yadınızdadır, ondan sonra Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüssel görüşləri keçirilmişdir. Ancaq yenə də əsas fundamental məsələ imkan vermirdi ki, tərəflər bu məsələdə razılığa gəlsinlər. Yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra, demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Hesab edirəm ki, bu, Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Əminəm ki, bu gün Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirib.

Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər. Lakin bu gün mən bəzi suallara münasibətimi bildirəndə dedim ki, bir halda Azərbaycan və Ermənistan rəhbərləri bu paraflamanı Ağ Evdə etməyi qəbul ediblərsə, deməli, hesab etmək olar ki, artıq bölgəmizə dayanıqlı sülh gəlib. Hesab edirəm ki, bu, həm Azərbaycan, həm Ermənistan, həm bütün bölgə üçün xüsusi əhəmiyyətə malik olan məsələdir. Odur ki, bugünkü gün, o cümlədən buna görə tarixi gün sayıla bilər. Həm Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Azərbaycan-Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir. Mən bu gün mətbuat konfransında da qeyd etdim, biz dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidentinin iştirakı ilə bunu etdik. Əlbəttə, hər kəs başa düşür ki, bunun nə qədər böyük əhəmiyyəti var, həm ölkəmiz üçün, həm bölgə üçün, həm geniş coğrafiya üçün. Biz haqq-ədaləti müharibə yolu ilə bərpa etdik. İndi isə buna siyasi müstəvidə də nöqtəni qoyduq.

**Vüsal MƏTLƏB: Cənab Prezident, Vətən müharibəsindən sonra sülh müqaviləsinin imzalanması üçün Ermənistan qarşısında bəzi şərtlər qoymuşdunuz. Onlardan birincisi ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı idi. Hansı ki, bu gün Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ATƏT-in Baş katibinə bununla bağlı müraciət imzaladılar. İkinci şərt Ermənistanın əsas qanunundan - Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılması ilə bağlı idi. Bu, indiki halda nə qədər real görünür?**

**Prezident İlham ƏLİYEV:** Məncə, tam real görünür. Çünki birincisi onu deməliyəm ki, bizim bütün şərtlərimiz tam məntiqli, əsaslı və qanunauyğundur. Müxtəlif mərhələlərdə Ermənistan cəmiyyətində və hakim dairələrində belə bir fərziyyə irəli sürülürdü ki, sanki Azərbaycan Ermənistanın daxili işlərinə qarışmaq istəyir və hətta danışıqlar zamanı dəfələrlə belə bir məsələ qaldırılmışdı. Bizim isə mövqeyimiz ondan ibarət idi ki, bu, belə qəbul edilməməlidir. Bu, birbaşa bizə aidiyyəti olan məsələdir. Bizim ərazi bütövlüyümüzə olan açıq tələbdir, iddiadır. Ona görə bu düzəliş edilmədən sülh sazişi imzalana bilməz.

Bizim mövqeyimiz hər zaman ardıcıl, məntiqli, əsaslı idi və biz öz mövqeyimizdən geri addım atmamışıq. Çünki heç vaxt Ermənistan qarşısında qeyri-real və qəbul edilə bilməyəcək şərtlər də qoymamışdıq. Amma nədənsə Minsk qrupunun ləğvi ilə bağlı bizim əsaslı təklifimiz mənfi reaksiya ilə üzləşirdi. Halbuki dəfələrlə biz izah etməyə çalışırdıq ki, bir halda Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bir halda artıq Ermənistan özü deyir ki, Qarabağ Azərbaycandır, Minsk qrupunun de-yure qalması tamamilə məntiqsizdir. Onsuz da o, öz funksional mahiyyətini itirmişdir və biz heç vaxt imkan verməz ki, bu, hər hansı bir formada canlansın, yaxud da hansısa başqa formaya minsin. Ona görə bu gün sülh sazişinin paraflanması və Minsk qrupunun ləğvi ilə bağlı bizim müştərək müraciətimiz, hesab edirəm ki, birinci maneəni aradan qaldırıb. Yenə də deyirəm, bu gün bu paraflanma Ağ Evdə baş tutdu. Ona görə mən şübhə etmirəm ki, Ermənistan Konstitusiyası dəyişdiriləndə, - Ermənistan tərəfi özü bunu bildirir ki, belə dəyişikliklər edilməlidir, - Azərbaycana olan ərazi iddiası oradan çıxarılacaq. Əks təqdirdə, bu, birinci növbədə Amerika Birləşmiş Ştatlarına hörmətsizlik olacaq. Hər kəs bilir və bizim mövqeyimiz, demək olar ki, bütün aparıcı beynəlxalq aktorlar, o cümlədən Amerika Birləşmiş Ştatları tərəfindən anlayışla qarşılanır. Çünki sülh sazişi imzalananda hər bir məsələ öz həllini tapmalıdır və bizə qarşı olan əsassız ərazi iddiası oradan çıxarılmalıdır. Ona görə mənim bu məsələ ilə bağlı şübhəm yoxdur. Yenə də deyirəm, bunun nə vaxt olacağı Ermənistanın öz işidir. Biz burada hər hansı bir təklif irəli sürə bilmərik. Ancaq mən hesab edirəm ki, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki məncə, vaxt itirmək lazım deyil. Bir halda ki, artıq Azərbaycanla Ermənistan sülh sazişini paraflayıb, onun rəsmi imzalanması da çox çəkməməlidir.

*Ardı 6-cı səh.*

◆ Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

# İlham Əliyev yeni tarix yazdı

## Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib

*Əvvəli 5-ci səh.*

**Oubai ŞAHBANDAR: Cənab Prezident, Vaşinqtona səfəriniz, sülh sazişinin paraflanması, Prezident Trampla görüşünüz Sizi və Azərbaycanı milyonlarla amerikalıya ilk dəfədir ki, tanıdır. Azərbaycanı tanımayanlar, bəlkə də Azərbaycanın harada olduğunu bilməyənlər, yaxud müəyyən yanlış təsəvvürlərə malik insanlar sizinlə tanış ola bildilər. Bəzi Amerika media qurumları və beyin mərkəzləri arasında yaranan bir sıra narahatlıqlara necə cavab verərdiniz: onlar Qarabağda xristianların qorunub-qorunmayacağından narahatdırlar. Nəzərə alsaq ki, Tramp ticarət marşrutu qurulacaq, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, həm də Amerikanın ticarət maraqları üçün nə qədər vacibdir?**





**Prezident İlham ƏLİYEV:** Bəli, bilirsiniz ki, Prezident Trampın əsaslı olaraq saxta xəbərlər adlandırdığı bəzi Birləşmiş Ştatlar mediasında Azərbaycan iblis donunda təqdim olunurdu. "Washington Post", "New York Times", "Newsweek" və bir çox başqa media qurumları mütəmadi olaraq Azərbaycan haqqında şayiələr yayır, bizə hücum edir, təhqiramiz yazılar dərc edir və əslində, Amerika ictimai rəyini çaşdırırdılar. Bunu əsasən bu gün erməni maraqlarına uyğun fəaliyyət göstərən erməni lobbi qruplarının nümayəndələri ediblər. Bu gün baş verənlərə sevinmək əvəzinə, onlar çox məyus olurlar, çünki onların maraqları tamamilə fərqlidir. Onlar işğala görə məsuliyyət daşıyanlardır, çünki onların ideyaları, məsləhətləri, pulları və Ermənistanın müxtəlif hökumətlərinə təsirləri Ermənistanın özü üçün dağıdıcı rol oynayıb. Əgər onlar, belə qruplar olmasaydı, Ermənistan daha çox inkişaf etmiş, möhkəm, müstəqil sistemə malik ölkə olardı. Amma onlar, sadəcə, vaxt itirdilər, torpaqlarımızı işğal edərək vaxt itirdilər və sonda bu işğalı əbədi saxlaya bilmədilər, əslində isə, özlərini inkişafdan 30 il geri atdılar.

Azərbaycanla bağlı bütün bu şayiələr və yalan məlumatlar ölkəmizi tanıyanlar üçün tamamilə qərəzli səslənir. Çünki Azərbaycan etnik və dini müxtəlifliyi ilə məşhur olan nadir ölkələrdən biridir. Bütün dini obyektlər dövlət tərəfindən qorunur. Azərbaycanda heç vaxt qarşıdurma, hətta etnik, dini fərqlər zəminində anlaşılmazlıq olmayıb. Əksinə, bu gün Azərbaycan multikulturalizmin mərkəzlərindən biridir. Burada müxtəlif dini və etnik qrupların nümayəndələri bir ailə kimi yaşayırlar. Məncə, bu gün baş verənlər hələ də ya reallığı bilməyən, ya da bilərəkdən yanlış təsəvvürlər yaratmağa çalışanlara tutarlı cavab olacaq.

O ki qaldı Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsinə, bilirsiniz ki, bu mövzu ətrafında biz son beş ildə nə qədər şayiələr, nə qədər təxribatlar ilə üzləşmişik. Müxtəlif ölkələrin rəhbərləri Azərbaycanın guya ermənilərə hücum etməyi planlaşdırdığı barədə şayiələr yayırdılar, ölkəmizin bu ərazini guya güc yolu ilə ələ keçirməyi planlaşdırdığını deyirdilər. Bunun yalan məlumat olduğu barədə bütün cavablarımız nəticə vermirdi, çünki bu yanlış təsəvvür Vaşinqton da daxil olmaqla, artıq yaranmışdı. Bu azərbaycanofobiyanın hərəkətverici qüvvəsi Bayden administrasiyası idi və biz bunu dəqiq bilirik. Çünki bir çox hallarda avropalı tərəfdaşlarımızla söhbətlərdə onlar bizə bu məlumatın Baydenin komandasından gəldiyini deyirdilər. Onlar Azərbaycanın guya aqressiv niyyətləri barədə qəsdən şayiələr yayırdılar. Hətta Prezident Trampın administrasiyasının ilk aylarında bəzi dövlət qurumlarında köhnə komandanın hələ də çalışan nümayəndələrindən gələn belə yalanlar olub. Onların fəaliyyətinə əsas təsiri Azərbaycana nifrət edən "Human Rights Watch", "Freedom House" kimi QHT-lər və ya USAID, "Azadlıq" radiosu göstərib. Bilirsiniz ki, Prezident Tramp dünyanı USAID adlanan bu fəlakətdən məharətlə xilas etdi. Beləliklə, bu, bizim üçün bu məlumatların yanlış olduğunu izah etmək bir növ çağırış idi. Ona görə də izah etməli idik ki, bizim belə bir niyyətimiz yoxdur.

Bu gün baş verənlərin nəticəsində isə Prezident Trampın şahidliyi ilə Ermənistanın Baş nazirinin şəxsən imzaladığı birgə bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəa var. Sənəddə bu, Ermənistanın suverenliynə hörmət prinsipi ilə qeyd olunub. Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı. Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq.

Eyni zamanda biz Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpasına başlayırıq. Deməli, bizə bu 40 kilometrlik dəmir yolu lazımdır ki, Azərbaycanın iki hissəsini birləşdirə bilək. Bu, təkcə dəmir yolu ilə bitmir. Biz elektrik ötürücü xətləri, fiber-optik xətlər, potensial olaraq Azərbaycanın və Xəzərin digər tayından qonşularımızın enerji resurslarını daşıya biləcək enerji infrastrukturları haqqında düşünürük. Beləliklə, bu, hər şeydən əvvəl, Bayden administrasiyasının yetişdirdiyi bütün anti-Azərbaycan rəvayətlər və sərəncamında olan siyasi infrastruktura - media, QHT-lər, USAID və bəzi korrupsioner siyasətçilərə cavab idi. Bugünkü hadisə korrupsiyaya görə dəmir barmaqlıqlar arxasında olan Menendez kimiləri tamamilə sıradan çıxarır. Yaxud Adam Şiff. Mən gələndə öyrəndim ki, Merilend prokuroru Adam Şiffə qarşı ipoteka saxtakarlığına görə cinayət işi açıb. Bilirsiniz, bu adamlar mütəmadi olaraq Azərbaycana hücum edirdilər - Menendez, Şiff, Peloni, Pelosi, Şermann, Marki, Kristofer Smit və başqaları. Bütün bu insanlar Azərbaycana nifrət edirlər - bilmirəm niyə, yəqin ki, Ermənistan lobbisi buna görə onlara pul ödəyirdi. Onlar Azərbaycanın əleyhinə mütəmadi olaraq fəaliyyət göstərən bir qrup ciddi siyasətçi idi. Bu gün Azərbaycan ilə Ermənistan arasında imzalananlar bizim niyyətlərimizi açıq şəkildə nümayiş etdirir - göstərir ki, biz sülh istəyirik, amma biz əlaqələrin qurulmasını da istəyirik. Biz ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçidlə inteqrasiyanı istəyirik ki, bu da daha geniş region, Ermənistanın özü üçün də çoxlu imkanlar vəd edəcək.

Mən Ermənistanın Baş naziri ilə görüşlərin birində demişdim ki, Ermənistanın tranzit ölkə olmaq şansı yaranacaq. Dedim ki, siz tranzit ölkə olmağın mənasını bilmirsiniz. Siz tranzit ölkə deyilsiniz və yalnız Azərbaycan sayəsində tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil və siz tranzit ölkə olmağın üstünlüyünü görəcəksiniz. Biz daha güclü tranzit ölkə olmağa çalışırıq. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Söhbət Ermənistanın uzun illər özünü məhrum etdiyi imkanlardan gedir. Beləliklə, bu nəqliyyat marşrutu - qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq. Amma yenə də, daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq.

**Oubai ŞAHBANDAR: Bölgəyə daha çox Amerika sərmayələrinin gəlişini gözləyirsinizmi? Biz tarixi imzalanma mərasimində Kris Raytın iştirak etdiyini gördük. Söz, təbii ki, SOCAR və "ExxonMobil" arasında imzalanmış memorandumdan gedir.**

**Prezident İlham ƏLİYEV:** Şübhəsiz ki, belədir. Əminəm ki, dünən "ExxonMobil" və SOCAR arasında əməkdaşlığa dair imzalanan memorandum böyük layihə ilə nəticələnəcək. Əvvəlcədən nə isə demək istəmirəm, amma Azərbaycanda böyük neft yatağının kəşfi ehtimalı yüksəkdir. Bildiyiniz kimi, "Exxon" dünyanın aparıcı enerji şirkətidir və müasir texnologiyalar sahəsində böyük təcrübəyə malikdir. "Exxon"un həmçinin Azərbaycanda böyük təcrübəsi var. "Exxon" bizim "Azəri-Çıraq-Günəşli" layihəmizə ilk olaraq 1994-cü ildə qoşulmuşdu və dünən burada xüsusi elçi cənab Uitkoffun, ABŞ-nin enerji nazirinin müavininin və mənim iştirakımla imzalanma mərasiminin keçirilməsi faktiki olaraq nümayiş etdirir ki, biz bu layihənin gələcəyinə inanırıq. İnanın, inanmasaydıq, memorandumun imzalanmasında iştirak etməzdik. Mən çox nadir hallarda memorandum imzalanmasında iştirak edirəm. Mən bəzən müqavilələrin imzalanmasında iştirak edirəm, lakin bu, memorandumdur. Əlimizdə bir sıra amillər, texniki amillər var ki, onlar yeni karbohidrogen ehtiyatlarının kəşfinə işarə edir. Bəlkə də son on il və ya daha uzun müddətdə ədalətsiz şəkildə ayrı-seçkiliyə məruz qalan mədən yanacağı Prezident Trampın baxışı və siyasəti sayəsində yenə də dəbdədir. Səfər çərçivəsində heyətimizin üzvləri beynəlxalq maliyyə təşkilatları, ABŞ-nin "Ex-Im" Bankı ilə mədən yanacağı sahəsində layihələr, karbohidrogenlərin nəqli infrastrukturunda potensial maliyyəyə dair danışıqlar aparıb. Buna görə də enerji mövzusu əməkdaşlığımızın mühüm hissələrindən biri olaraq qalmağa davam edəcək.

Prezident Trampla imzaladığımız memorandumda enerji əməkdaşlığı xüsusi yer tutur. Beləliklə, biz enerji deyəndə neft, qaz, potensial olaraq bərpaolunan enerji mənbələrini nəzərdə tuturuq. Bu gün NATO-nun 10 üzvünü, ABŞ-nin 10 müttəfiqini təbii qazla təchiz edirik. Biz boru kəməri ilə qaz tədarükü üzrə 14 ölkəni əhatə edirik. Deməli, bu baxımdan, - qaz kəmərini nəzərdə tuturam, - Azərbaycan dünyanın qabaqcıl ölkələrindən biridir. Belə ki, 10 NATO, 10 Aİ üzvü bizdən qaz alır. Biz bu yaxınlarda Suriyaya təbii qaz tədarük etməyə başlamışıq. Beləliklə, biz artıq Yaxın Şərq regionuna daxil olmuşuq və coğrafiyamızı Avropada, eləcə də Yaxın Şərqdə genişləndirəcəyik. Bu, əslində, enerji sahəsində gələcək gündəliyimizin yalnız bir hissəsidir.

Amerika Birləşmiş Ştatları ilə süni zəka, rəqəmsal transformasiya üzrə yaxından işləmək planlarımız var. Mənim buraya səfərim zamanı artıq komandamızın üzvləri ilə Amerika şirkətləri arasında ilkin müzakirələr baş tutub. Yeni görüşlər də olacaq. Beləliklə, həqiqətən də bu gün biz bütün istiqamətlər üzrə - təhlükəsizlik, sabitlik, Cənubi Qafqazda sülh, iqtisadi imkanlar, investisiyalar, enerji təhlükəsizliyi və bir çox digər sahələr baxımından tarixi bir günün şahidi oluruq.

**Oubai ŞAHBANDAR: Çox sağ olun, cənab Prezident.**

# Sülh prosesində tarixi mərhələ

## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, türkiyəli nazir Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton görüşü zamanı əldə edilmiş tarixi nailiyyətlər münasibətilə ölkəmizi səmimi-qəlbdən təbrik edib.

Nazirlər əldə edilmiş razılaşmaların, Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamənin bölgədə sülh və sabitliyin təmin olunması üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Sülh sazişinin paraflanmasının, habelə ATƏT-in Minsk Prosesi və aidiyyəti strukturların ləğvinə birgə çağırışın sülhə mühüm töhfə olduğu qeyd edilib. Nazirlər bu strukturların ləğvi barədə ATƏT qərarının tezliklə qəbul ediləcəyini gözlədiklərini bildiriblər.

Telefon danışığı zamanı həmçinin Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq müzakirə olunub.

## XİN Prezident İlham Əliyevin ABŞ səfərinin nəticələrinə dair məlumat yayıb



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) Prezident İlham Əliyevin avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına səfərinin nəticələrinə dair məlumat yayıb.**

AZƏRTAC məlumatı təqdim edir:

"Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb.

Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Səfər həmçinin iki ölkənin prezidentləri arasında keçirilən görüş çərçivəsində ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Sərəncamın imzalanması ilə əlamətdar olub. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır.

Azərbaycan Respublikası Prezidentinin ABŞ-yə səfəri, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi kontekstində mühüm nəticələrlə əlamətdar olub. Səfər zamanı Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin Sammiti keçirilib və bu görüşün nəticəsində Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannamə imzalanıb. Bununla yanaşı, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb və ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb.

Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstdə, Azərbaycan tərəfi sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir.

Birgə Bəyannamədə xüsusi əhəmiyyət kəsb edən daha bir müddəa iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair bənddir. Burada, regionda kommunikasiyaların açılması çərçivəsində Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsinin zəruri olduğu vurğulanıb.

Sənəddə həmçinin Ermənistan ərazisində xüsusi bağlantı layihəsi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur.

ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətin ünvanlanması 2020-ci ildən bəri Azərbaycan tərəfinin davamlı olaraq gündəlikdə tutduğu, sülh və normallaşma prosesi üçün ən ciddi əngəllərdən birinin aradan qaldırılması istiqamətində digər vacib addımdır.

Bununla yanaşı, səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidentinin və ABŞ Prezidentinin xüsusi elçisinin iştirakı ilə SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb. Sənəd şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirmək və Azərbaycan Respublikasında həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir.

Beləliklə, Azərbaycan Prezidentinin ABŞ-yə səfəri çərçivəsində Azərbaycan-ABŞ arasında əldə edilmiş razılaşmalar və Azərbaycan-Ermənistan normallaşma prosesi çərçivəsində nəticələr tarixi əhəmiyyətə malikdir".

## *Qazaxıstan Prezidenti:* "Azərbaycan ilə Ermənistan arasında Vaşinqtonda əldə olunan razılaşma mühüm tarixi nailiyyətdir"



**"Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev hesab edir ki, Azərbaycan ilə Ermənistan arasında Vaşinqtonda əldə olunan razılaşma mühüm tarixi nailiyyətdir".**

AZƏRTAC xəbər verir ki, bu fikri Qazaxıstan Prezidentinin mətbuat katibi Ruslan Jeldibay jurnalistlərə müsahibəsində deyib.

Qazaxıstanın dövlət başçısı qeyd edib ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən mühüm görüş iki dövlət arasında uzunmüddətli hərbi münaqişəyə son qoyub, diplomatik münasibətlərin qurulmasına və davamlı sülhə əsaslanan əməkdaşlığın inkişafına yol açıb.

Kasım-Jomart Tokayevin sözlərinə görə, Azərbaycan ilə Ermənistan arasında unikal sazişin imzalanması iki ölkənin liderlərini tam siyasi iradə və strateji uzaqgörənlik nümayiş etdirməyə inandıra bilən ABŞ Prezidenti Donald Trampın enerjili və səmərəli vasitəçilik missiyası sayəsində mümkün olub.

Prezident Kasım-Jomart Tokayev qeyd edib ki, Qazaxıstan da sülh müqaviləsinin əsas parametrləri üzrə xarici işlər nazirləri səviyyəsində danışıqların keçiriləcəyi məkan kimi Almatı şəhərini təklif etməklə Azərbaycan ilə Ermənistan arasında belə mühüm razılaşmaların əldə olunmasına öz töhfəsini verib.

## *Şahbaz ŞƏRİF:* "Pakistan Azərbaycan və Ermənistan arasında tarixi sülh razılaşmasını alqışlayır"



**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında imzalanmış tarixi sülh razılaşmasını alqışlayıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Baş nazir "X" sosial şəbəkəsindəki paylaşımında bildirib. "Bu mühüm hadisə onilliklər ərzində münaqişə və insan iztirabları yaşamış Cənubi Qafqaz regionunda sülh, sabitlik və əməkdaşlıq dövrünün başlanğıcını qoyur. Azərbaycan Prezidenti İlham Əliyevi və Azərbaycan xalqını müdriklik, uzaqgörənlik və ağıllı qərarlar əsasında bölgənin dinc gələcəyini formalaşdıran bu tarixi razılaşma münasibətilə təbrik edirik", - deyə Baş nazir vurğulayıb.

O qeyd edib ki, Pakistan hər zaman qardaş Azərbaycan xalqının yanında olub və bu qürurverici tarixi anda da onların yanındadır.

Baş nazir həmçinin ABŞ Prezident Donald Trampın rəhbərliyi ilə iki tərəfi bir araya gətirərək ticarət, əlaqəlilik və regional inteqrasiya üçün yeni imkanlar açan razılaşmanın əldə olunmasında göstərdiyi vasitəçilik rolunu yüksək qiymətləndirib.

"Ümid edirik ki, bu dialoq ruhu uzunmüddətli münaqişələrlə üzləşən digər regionlar üçün də nümunə olacaq", - deyə Şahbaz Şərif əlavə edib.

## *Marko RUBİO:* "Azərbaycanı və Ermənistanı yeni sülh dövrü münasibətilə təbrik edirik"



**ABŞ Azərbaycan və Ermənistan arasında bugünkü tarixi sülh sazişini qeyd edir.**

AZƏRTAC-ın məlumatına görə, bu barədə ABŞ Dövlət katibi Marko Rubio deyib. Bəyanatı Dövlət Departamenti yayıb.

"Prezident Tramp tərəfləri bir araya gətirdi və onilliklərdir davam edən qarşıdurmaya son qoyan razılaşmaya vasitəçilik etdi. Bu, hər iki ölkə üçün irəliləyiş və diqqəti Cənubi Qafqaz regionunun iqtisadi potensialının açılmasına yönəltmək üçün bir fürsətdir. Bu da Amerika xalqına, həm də Azərbaycan və Ermənistan üçün ticarət sövdələşmələri və rifah gətirəcək. Biz hər iki ölkəni yeni sülh dövrü münasibətilə təbrik edirik", - deyə Rubio bildirib.

## *İrakli KOBAXİDZE:* "Gürcüstan Azərbaycan, Ermənistan, region və dünya üçün bu tarixi anı alqışlayır"

**"Mən ABŞ və Azərbaycan prezidentlərini və Ermənistanın Baş nazirini tarixi sülh sazişinin əldə edilməsi və regionda sabitliyin, iqtisadi inkişafın yeni dövrünün başlaması münasibətilə təbrik edirəm. Gürcüstan həmişə regionda sülhün və əməkdaşlığın tərəfdarı olub və gələcəkdə də onlara güclü dəstək verəcək".**



AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze "X" sosial şəbəkə hesabında yazıb.

Onun sözlərinə görə, Gürcüstan Ermənistan, Azərbaycan, region və dünya üçün bu tarixi anı alqışlayır.

## *Yohan VADEFUL:* "Almaniya Ermənistanı və Azərbaycanı dayanıqlı sülh yolunda dəstəkləməkdə davam edəcək"

**"Ermənistan və Azərbaycan bu gün tarixlərində yeni bir səhifə açır. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Vaşinqtonda hər iki dövlətin sülh sazişini paraflaması, uzun illər münaqişə, əzablarla üzləşmiş bir çox insan üçün ümid mənbəyidir. Ermənistanın Baş naziri Nikol Paşinyanı və Azərbaycan Prezidenti İlham Əliyevi seçdikləri sülh yolu və dinc gələcək istiqamətində verdikləri qərara görə təbrik edirəm".**



AZƏRTAC xəbər verir ki, bunu Almaniyanın xarici işlər naziri Yohan Vadeful Vaşinqton görüşü ilə bağlı bəyanatında qeyd edib.

Vurğulanıb ki, hər iki ölkə mürəkkəb məsələləri danışıqlar yolu ilə həll etməyə və çətin kompromislərə getməyə hazır olduğunu göstərdi. Bu baxımdan Azərbaycanın ərazisinin əsas hissəsindən Naxçıvana Ermənistandan tranzitlə bağlı əldə edilən irəliləyişlərin, ABŞ-nin məsuliyyəti üzərinə götürməsinin, eləcə də ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı razılığın əldə olunmasının önəmi xüsusi vurğulanıb.

Qeyd olunub ki, onilliklər davam edən münaqişədən sonra Ermənistan və Azərbaycanda insanlar dayanıqlı sülhə can atırlar. Almaniya bu yolu tərəfdaşları ilə birgə uzun müddətdir yaxından izləyir, yüksəksəviyyəli müntəzəm təmaslar və ötən il Berlində keçirilmiş sülh danışıqları ilə bu prosesi dəstəkləyib.

Bəyanatda qeyd olunub ki, son illər hər iki ölkə arasında etimad quruculuğu tədbirləri təşviq edilib: "İndi əsas məsələ ondan ibarətdir ki, sülh sazişi hər iki hökumət tərəfindən mümkün qədər tez imzalanıb ratifikasiya edilsin. Almaniya Ermənistan və Azərbaycanı dayanıqlı sülh yolunda dəstəkləməyə davam edəcək".

## *Britaniyanın xarici işlər naziri:* "Sülh istiqamətində atılan cəsarətli addımlara görə Azərbaycan və Ermənistanı təbrik edirəm"

**Britaniyanın xarici işlər naziri Devid Lemmi Ermənistan və Azərbaycan arasında Vaşinqtonda atılan mühüm sülh addımlarını alqışlayıb.**



AZƏRTAC xəbər verir ki, o, "X" sosial şəbəkə hesabında bu barədə yazıb: "Vaşinqtonda sülh istiqamətində atılan cəsarətli addımlara görə Ermənistan və Azərbaycanı təbrik edirəm. Bu irəliləyişin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın həlledici rolunu yüksək qiymətləndirirəm".

Devid Lemmi əlavə edib ki, Böyük Britaniya Cənubi Qafqazda sülh prosesini dəstəkləməyə hazırdır: "Hər iki tərəf öhdəliklərinə sadiq qaldıqca, Böyük Britaniya sülhü dəstəkləməyə hazırdır",- deyə nazir bildirib.

## *Türkiyənin vitse-prezidenti:* "Azərbaycan ilə Ermənistan arasında ədalətli sülh bütün tərəflərin maraqlarına uyğundur"



**"Azərbaycan və Ermənistan arasında ədalətli sülh bütün tərəflərin maraqlarına cavab verir. Mehriban qonşuluq və sərhədlərə hörmət hər bir dövlətin xeyrinə olacaq. Türkiyə Cənubi Qafqazda sülh, sabitlik və rifahı dəstəkləmək üçün addımlar atmağa davam edəcək".**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın Azərbaycan, Ermənistan və ABŞ liderlərinin Ağ Evdə keçirilən üçtərəfli görüşü ilə bağlı şənbə günü, avqustun 9-da "NEXT Sosyal" sosial şəbəkəsində dərc olunmuş bəyanatında deyilir.

Cevdet Yılmaz Azərbaycan ilə Ermənistan arasında sülhə dair Birgə Bəyannamənin imzalanmasından məmnunluğunu ifadə edərək bildirib ki, bu sənəd regionda davamlı sülhün təmin edilməsi baxımından əhəmiyyətlidir.

O qeyd edib ki, Bakı ilə İrəvan arasında sülh bütün Qafqaz regionunda sabitlik və firavanlığın rəhnidir.

"Uzunmüddətli sülh Türkiyənin Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrinə də töhfə verəcək. Ticarət, investisiya mühiti, turizm, enerji, logistika və bir çox başqa sahələrdə yeni imkanlar açılacaq. Həm Şərqi Anadoluya, həm də bütün Türkiyə iqtisadiyyatına müsbət inkişaf stimulu verəcək", -deyə vitse-prezident vurğulayıb.

Türkiyənin vitse-prezidenti erməni müxalifətinin müəyyən hissəsinin mövqeyinə baxmayaraq, sülh tərəfdarı olan Ermənistanın Baş naziri Nikol Paşinyan haqqında da müsbət fikirlər səsləndirib.

C.Yılmaz bəyanatında qeyd edib: "Səyləri ilə prosesi bugünkü mərhələyə çatdıran Prezident İlham Əliyevə səmimi təşəkkürümü bildirirəm. Qardaş ölkə üçün kritik bir zamanda Azərbaycana strateji dəstək verən Prezident Rəcəb Tayyib Ərdoğana da minnətdarlığımı ifadə edirəm".

## "Azərbaycanla Ermənistan arasında Sülh sazişi davamlı regional sabitliyin və rifahın təmin edilməsinə mühüm töhfədir"

**"Monteneqro Azərbaycan ilə Ermənistan arasında Sülh sazişinin paraflanmasını alqışlayır".**



AZƏRTAC xəbər verir ki, bu barədə Monteneqro Baş nazirinin xarici və Avropa məsələləri üzrə müavini Filip İvanoviç "X" sosial şəbəkəsindəki paylaşımında bildirib.

"Monteneqro ABŞ-nin vasitəçiliyi ilə Vaşinqtonda Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanmasını alqışlayır. Bu, sülhün, eləcə də davamlı regional sabitliyin və rifahın təmin edilməsinə mühüm töhfədir. Azərbaycan, ABŞ və Ermənistan liderlərini təbrik edirik", - deyə Baş nazirin müavini vurğulayıb.

# Sülh prosesində tarixi mərhələ

## Beynəlxalq təşkilatlar Vaşinqton görüşünü və əldə olunan nəticələri alqışlayırlar

**Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən sammit bütün dünyanın diqqət mərkəzinə düşdü.**

Sammitdə əldə olunan nəticələr, imzalanan sənədlərə beynəlxalq təşkilatların reaksiyası da özünü çox gözlətmədi.





### Avropa institutları Vaşinqton görüşünü yüksək qiymətləndirir

Avropa İttifaqı Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın evsahibliyi etdiyi görüşü "hərarətlə qarşılayıb", "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanmasını alqışlayıb. Təşkilatın saytında yerləşdirilən açıqlamada (https://www.consilium.europa.eu/en/press/press-releases/2025/08/08/joint-statement-by-president-costa-of-the-european-council-and-president-von-der-leyen-of-the-european-commission-on-the-initialling-of-the-armenia-azerbaijan-peace-treaty-and-on-the-declaration-between-president-aliyev-and-pm-pashinyan-in-/) qeyd olunub ki, Prezident Trampın Ağ Evdə iştirakı ilə Birgə Bəyannamənin imzalanması həm Ermənistan, həm də Azərbaycan üçün böyük inkişafdır, hər iki ölkə üçün və bütün regionda davamlı sülhə yol açır. Qeyd olunur ki, indi Ermənistan və Azərbaycan arasında münasibətlərin tamhüquqlu normallaşması istiqamətində davamlı və fasiləsiz irəliləyişi təmin etmək üçün razılaşdırılmış addımların vaxtında həyata keçirilməsini təmin etmək vacib olacaq. Avropa İttifaqı Ermənistan-Azərbaycan normallaşma prosesini qətiyyətlə dəstəkləyir və regional əlaqəyə və tam açıqlığa, ilk növbədə münaqişə irsi ilə bölünmüş əhaliyə fayda vermək və regionu davamlı sülhə, sabitliyə və rifaha yaxınlaşdırmağa sərmayə qoymağa hazırdır.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta (https://x.com/eucopresident/status/1953924300781891968?t=3dAa8VdoQ055CFQgxqptBg&s=19) və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen (https://x.com/vonderleyen/status/1953926417483227429?s=48&t=Oo5qP3iD5D2O7nhA5B490w) müştərək bəyanatla Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanmasını alqışlayıb. Antonio Koşta və Ursula fon der Lyayen hadisənin uzunmüddətli sülhə yol açacağını vurğulayıb. Bundan başqa, Avropa İttifaqının regionda sülh və inkişaf naminə normallaşma prosesini dəstəkləməyə davam edəcəyi vurğulanıb.

Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaja Kallasın bəyanatında (https://x.com/kajakallas/status/1953931106807382166?t=fd601yFc0uL6CPHLfu5K4g&s=19) bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında Prezident Trampın iştirakı ilə əldə olunan razılaşmalar onilliklər boyu davam edən münaqişəni sonlandırmaq baxımından mühüm hadisədir: "Biz hər iki tərəfi və ABŞ Administrasiyasını fürsətdən istifadə edib irəliləyiş əldə etdiklərinə görə alqışlayırıq. İndi razılaşmalarda qeyd olunan məsələlərin vaxtında icra olunmasını təmin etmək vacib məsələdir. Bunlar sülh müqaviləsinin imzalanması və ratifikasiyasıdır. Biz tərəfdaşlarımızla hərtərəfli normallaşmanın əldə olunması üçün işləməyə hazırıq. Biz bu məsələdə əlavə dəstək göstərməyə hazırıq".

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono bölgəni davamlı sülhə və firavanlığa daha da yaxınlaşdıran tarixi addım münasibətilə tərəfləri təbrik edib (https://x.com/-eusr_sccig/status/1953946144502899184?s=48&t=Oo5qP3iD5D2O7nhA5B490w), bunu cəsarətli liderlik və uzunmüddətli baxış kimi qiymətləndirib.

Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanı sülh sazişinin paraflanması münasibətilə təbrik edib, bunu davamlı sülh və sabitlik yolunda həlledici addım sayıb (https://x.com/-MartaKosEU/status/1953913925072015720?t=045Tj9ApGLMPbfIj-VUHY0g&s=19). Marta Kos Azərbaycan və Ermənistana qarşıdakı səfərini səbirsizliklə gözlədiyini vurğulayıb, normallaşma prosesini və regional əlaqəni dəstəkləməyə hazır olduğunu bildirib.

Avropa Şurasının Baş katibi Alain Berset Vaşinqtonda Azərbaycan və Ermənistan arasında davamlı sülh üçün razılaşdırılmış mərhələni alqışlayıb (https://-x.com/alain_berset/status/1953934024314888413?s=48&t=Oo5qP3iD5D2O7nhA5B490w) və dəstək verməyə hazır olduğunu nəzərə çatdırıb.

Avropa Şurası Parlament Assambleyasının prezidenti Theodoros Rousopoulos da ABŞ-nin himayəsi altında Ermənistan və Azərbaycan arasında Vaşinqtonda imzalanmış sülh sazişini səmimiyyətlə alqışladığını vurğulayıb (https://x.com/pace_president/status/1954098239663112283?s=48). Qeyd edilib ki, AŞPA bu münaqişədə həmişə parlament diplomatiyasını dəstəkləyib, bu sazişin möhkəmləndirilməsi mərhələlərini müşayiət etməyə və qarşılıqlı etimadı gücləndirməyə hazırdır.

### NATO-dan dəstək

NATO da Azərbaycan və Ermənistanın sülh istiqamətində əldə etdiyi irəliləyişi alqışlayıb (https://apa.az/xarici-siyaset/nato-azerbaycan-ve-ermenistanin-sulh-yolunda-atdigi-addimi-musbet-qarsilayir-912104). NATO mətbuat katibi Allison Hartın sosial şəbəkə hesabındakı bəyanatda qeyd olunub ki, Ermənistan və Azərbaycan arasında sülhə doğru irəliləyişdən məmnundurlar. Bəyanatda Prezident Trampa sülh üçün çalışdığına görə təşəkkür edilir, bunun regional təhlükəsizlik və normallaşma prosesi üçün mühüm bir addım olduğu vurğulanır. Vurğulanır ki, NATO tərəfdaşları olan Azərbaycan və Ermənistanla işləməyə davam edəcəklər.

NATO-nun Avstriya, Ukrayna, Kosovo, Bosniya, Aİ üçün genişlənməsi üzrə Avstriya Komitəsinin (beynəlxalq QHT) rəhbəri Gunther Fehlinger-Jahn isə hətta Ermənistanı və Azərbaycanı indi NATO-ya üzv olmağa çağırıb, regionda sülhü Rusiya və İran müqavimətinə qarşı yalnız NATO-nun təmin edə biləcəyini vurğulayıb (https://x.com-/gunterfehlinger/status/1953948185480605816?s=46&t=wpY-qgvJFkMavCWfqry0AQ).

### TDT Vaşinqton görüşündən məmnundur

Türk Dövlətləri Təşkilatının Baş katibi Kuban Omuralievin bəyanatında da (https://x.com/turkic_states/status/1954074800126578989?s=46&t=wpY-qgvJFkMavCWfqry0AQ) Birgə Bəyannamənin imzalanması yüksək qiymətləndirilir. Kuban Omuraliev bəyan edib ki, təşkilat "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" Sazişin razılaşdırılmış mətninin paraflanmasını və hər iki ölkənin xarici işlər nazirləri tərəfindən ATƏT-in Minsk prosesinin və əlaqədar strukturlarının bağlanması ilə bağlı Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına birgə müraciətin imzalanmasının qətiyyətlə tərəfdarıdır. Qeyd olunur ki, bu tarixi inkişaf Cənubi Qafqaz regionunda və onun hüdudlarından kənarda davamlı sülh, sabitlik və rifahın bərqərar olması istiqamətində mühüm mərhələdir.

### ATƏT Minsk qrupu ilə bağlı razılaşmaya dəstək verməyə hazırdır

ATƏT də Azərbaycan-Ermənistan razılaşmasından məmnunluğunu ifadə edib. Təşkilatdan APA-ya bildirilib ki, avqustun 8-də Vaşinqtonda imzalanan razılaşmaları müsbət qarşılayır və ABŞ-nin bu məsələdəki rolunu təqdirəlayiq hesab edir (https://apa.az/xarici-siyaset/atet-avqustun-8-de-elde-olunan-razilasmalarin-icrasini-desteklemeye-haziriq-912105). ATƏT Azərbaycan və Ermənistanı münasibətləri normallaşdırmaq və sülhə nail olmaq üçün mümkün olan hər şeyi etməyə çağırır, eləcə də hər iki ölkəyə stabillik və davamlı sülh gətirən bütün səyləri dəstəkləməyə davam edir. Təşkilat avqustun 8-də əldə olunan razılaşmaların icrasına dəstək verməyə hazır olduğunu bəyan edib.

ATƏT PA da Vaşinqtonda Birgə Bəyannamənin imzalanmasını alqışlayıb və bunu Cənubi Qafqazda davamlı sülhə doğru tarixi irəliləyiş adlandırıb. (https://x.com/oscepa/status/1954106909499240486?s=48&t=Oo5qP3iD5D2O7nhA5B490w)

ATƏT PA prezidenti Pere Joan Pons Sampietro Ermənistan və Azərbaycan arasında imzalanan Birgə Bəyannaməni daha yaxşı (və ümumi) gələcək üçün tarixi məqam adlandırıb. (https://x.com/-perejoanpons/status/1954109111307526157?s=46&t=wpY-qgvJFkMavCW-fqry0AQ).

### Azərbaycan ekspertləri beynəlxalq reaksiyalar haqqında

Sabiq xarici işlər naziri Elmar Məmmədyarov APA-ya bildirib ki, ATƏT-in razılaşmaların icrasına dəstək verməyə hazır olduğunu bəyan etməsi göstərir ki, Minsk qrupunun taleyi həll olunub: "Fransa da dəstəyini ifadə edib. Onu da qeyd edim ki, ATƏT-də qərarlar konsensusla həll olunur. İlk mərhələdə ABŞ ATƏT-ə üzv ölkələrə müraciət edəcək, məsələ ATƏT-də səfirlər səviyyəsində müzakirəyə çıxarılacaq, dekabrda isə Minsk qrupu ilə bağlı qərar nazirlər səviyyəsində təsdiq olunmalıdır".

Elmar Məmmədyarov Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək dəhlizlə bağlı razılaşmanın da Azərbaycan üçün əhəmiyyətini xüsusi qeyd edib. Onun sözlərinə görə, dəhlizlə bağlı ABŞ tərəfindən özəl şirkət müəyyənləşdiriləcək: "Yeni dəmir yolu tikiləcək, yoxsa sovet dövründən qalan dəmir yolundan istifadə ediləcək - bu, növbəti mərhələdə müzakirə mövzusu olacaq".

Sabiq xarici işlər naziri Vaşinqton görüşündə əldə olunan razılaşmaların sülh yolunda Azərbaycan və Ermənistan üçün çox önəmli olduğunu vurğulayıb: Bu, həmçinin Prezident Donald Tramp üçün də çox önəmlidir. ABŞ-nin rolu baxımından da Vaşinqton bu razılaşmalara xüsusi əhəmiyyət verir".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu APA-ya açıqlamasında deyib ki, Vaşinqtonda qəbul edilən Birgə Bəyannamə, sülh sazişinin paraflanması tək Azərbaycan, Ermənistan və ABŞ-nin maraqlarına xidmət etmir: "Bu, bütövlükdə Avrasiya və digər ölkələr üçün də faydalıdır. Hər kəs bundan qazana bilər, çünki bölgədə sülh, 35 ildən sonra həm Azərbaycan və Ermənistan arasında sülh imkanı yaranır. İndi bölgə əməkdaşlığa başlayır və bundan hamı faydalana bilər, çünki nəqliyyat marşrutları bu bölgədən keçir və keçəcək. Ona görə də beynəlxalq təşkilatlar və əksər ölkə Vaşinqton razılaşmasını dəstəkləyir. Hətta bir çox anti-Azərbaycan qüvvələr də bunun əleyhinə çıxa bilmir, çünki söhbət sülh və əməkdaşlıqdan gedir. NATO-nun, eləcə də Fransa və İran Xarici İşlər nazirliklərinin açıqlamalarında da müsbət elementlərin var. Rusiya da bunun əleyhinə çıxa bilməz. Çünki Rusiya Prezidenti Vladimir Putin özü ABŞ Prezidenti Donald Trampla açıq dialoqdadır, bu yaxınlarda da görüşləri olacaq. Yəni bu razılaşma hamı üçün faydalıdır və ona görə də beynəlxalq təşkilatlar, aparıcı ölkələr dəstəklərini ifadə edirlər".

## Rusiya, Gürcüstan, Səudiyyə və İordaniya Xarici İşlər nazirlikləri Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton danışıqlarını müsbət qiymətləndirib

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib ki, Rusiya Federasiyası Cənubi Qafqazda sabitlik və tərəqqi zonasının yaradılmasında maraqlıdır, eyni zamanda ən mühüm şərtlərdən biri Azərbaycan ilə Ermənistan arasında münasibətlərin hər iki ölkə xalqlarının maraqlarına uyğun hərtərəfli normallaşmasıdır.

AZƏRTAC xəbər verir ki, onun sözlərinə görə, Rusiya regional təhlükəsizlik naminə bu əsas məqsədə nail olmaq üçün bütün səyləri ardıcıl olaraq dəstəkləyir. Bu baxımdan Amerika tərəfinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda keçirilən görüşü müsbət qiymətə layiqdir.

RF Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi qeyd edib ki, Rusiya tərəfi Vaşinqtonun regional kommunikasiyaların açılması ilə bağlı bəyanatlarını əlavə olaraq təhlil edəcək. O, Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin imzalanması və qüvvəyə minməsinin iki Cənubi Qafqaz respublikasında sülhün bərqərar olunmasında mühüm əhəmiyyət kəsb edəcəyini vurğulayıb.

* * *

Gürcüstan Xarici İşlər Nazirliyi (XİN) Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan dövlətinin başçısı İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar olması haqqında" tarixi razılaşmanı alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan XİN-nin yaydığı bəyanatda deyilir. Bildirilir ki, bu tarixi saziş Cənubi Qafqaz regionunda davamlı sülhün bərqərar olması istiqamətində mühüm addımdır və regionun uzunmüddətli və sabit inkişafı üçün yeni imkanlara yol açır.

Gürcüstan Cənubi Qafqazda sülhün möhkəmləndirilməsinə, regionunun sabitliyinə və rifahına yönələcək əməkdaşlığın gücləndirilməsini qətiyyətlə dəstəkləyir.

"Biz Cənubi Qafqazda onilliklərlə davam edən münaqişəyə son qoymaqda Amerika Birləşmiş Ştatlarının və Prezident Donald Trampın müstəsna töhfəsini və səylərini alqışlayırıq. Ümid edirik ki, bu tarixi hadisə Qara dəniz regionunda və bütövlükdə dünyada münaqişələrin sülh yolu ilə həlli baxımından zəncirvari reaksiya verəcək", - deyə bəyanatda bildirilir.

* * *

Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi (XİN) ABŞ-nin iştirakı ilə Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında əldə edilmiş sülh razılaşmasını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu, Səudiyyə Ərəbistanı XİN-nin yaydığı bəyanatda yer alır.

Bəyanatda iki dövlətin xalqlarının və Qafqaz regionunun mənafeyinə xidmət edəcək bu razılaşmanın Ermənistan və Azərbaycan arasında anlaşmanın, əməkdaşlığın, təhlükəsizlik və sabitliyin yeni mərhələsinin başlanğıcını təşkil edəcəyinə inam ifadə edilib.

* * *

İordaniya Haşimilər Krallığının Xarici İşlər və Diaspor Nazirliyi ABŞ-nin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında əldə edilmiş sülh razılaşmasını alqışlayır.

AZƏRTAC İordaniyanın PETRA informasiya agentliyinə istinadla xəbər verir ki, bunu nazirliyin rəsmi sözçüsü, səfir Sufyan əl-Qudat bildirib.

Qeyd olunub ki, bu tarixi razılaşma Cənubi Qafqaz regionunda sülh və sabitliyin möhkəmləndirilməsinə töhfə verəcək, münaqişələrin sülh yolu ilə həllini təşviq edəcək.

XİN-nin sözçüsü bu razılaşmanın əldə edilməsində ABŞ Administrasiyasını cəhdlərini yüksək qiymətləndirib.

## Fransa XİN ATƏT-in Minsk qrupunun strukturlarının buraxılması ilə bağlı birgə çağırışı dəstəklədiyini bəyan edib

**Fransa Xarici İşlər Nazirliyi (XİN) avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında iki ölkənin münasibətlərinin normallaşdırılmasına dair razılaşma əldə olunmasına dair bəyanat yayıb. Kommunikedə Fransa bu addımı yüksək qiymətləndirib.**



AZƏRTAC xəbər verir ki, bəyanatda ABŞ-yə bu prosesdə oynadığı rola və əldə olunan nəticələrə görə təşəkkür edilib. Bəyanatda qeyd olunur ki, sülh müqaviləsinin tezliklə imzalanması və ratifikasiyası bölgədə sabitliyin təmin olunmasında həlledici rol oynayacaq.

Fransa tərəfi, həmçinin ATƏT-in Minsk qrupunun strukturlarının buraxılması ilə bağlı tərəflərin birgə çağırışını dəstəklədiyini bildirib.

Bəyanatda vurğulanır ki, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə, habelə 1991-ci il Alma-Ata Bəyannaməsi ilə müəyyən edilmiş prinsiplərə riayət etməklə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, regional əlaqələrin inkişafı və sərhədlərin yenidən açılması Cənubi Qafqazın region əhalisinin mənafeyi naminə sülh və firavanlıq bölgəsinə çevrilməsinə imkan verəcək.

Fransa Avropa tərəfdaşları ilə birlikdə bu istiqamətdə səylərini davam etdirəcəyini və Avropa Siyasi Birliyi çərçivəsində fəal iştirak edəcəyini bildirib.

## *Amerikalı tədqiqatçı:* "907-ci düzəliş Azərbaycana qarşı açıq ayrı-seçkilik nümayiş etdirib"

**Beynəlxalq Avrasiya Mətbuat Fondunda (BAMF) təcrübə proqramına qoşulan ABŞ-li tədqiqatçı Lilan Spriqz (Lelin Spriggs) Azərbaycanla bağlı bir sıra mühüm mövzularda, o cümlədən ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi "Azadlığa Dəstək Aktı"nın 907-ci düzəlişi ilə bağlı ətraflı tədqiqat aparıb.**

BAMF-dan AZƏRTAC-a bildirilib ki, o, bu haqda yazdığı məqalədə düzəlişin Azərbaycanın maraqlarına və regiondakı sülh prosesinə mənfi təsirlərini diqqət mərkəzinə çəkib.

Tədqiqatda vurğulanır ki, 1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul olunan 907-ci düzəliş Azərbaycana qarşı açıq ayrı-seçkilik nümayiş etdirib və onu "Azadlığa Dəstək Aktı" çərçivəsində yardımlardan məhrum edən yeganə postsovet dövləti edib. L.Spriqz qeyd edir ki, bu qərar Birləşmiş Ştatların münaqişə tərəflərinə neytral münasibət göstərmək öhdəliyinə ziddir və ABŞ-nin vasitəçilik rolunu ciddi şəkildə şübhə altına alır.

Məqalədə xüsusilə Qarabağ münaqişəsinin tarixi, Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası və Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti diqqət mərkəzinə çəkilib. Müəllif qeyd edir ki, 907-ci bənd təkcə Azərbaycanın hüquqlarını pozmayıb, həm də Ermənistanın maraqlarına birtərəfli üstünlük verərək, sülh imkanlarını daraldıb.

Lilan Spriqz eyni zamanda ABŞ-də fəaliyyət göstərən erməni lobbi qruplarının bu qərarın qəbuluna təsirini vurğulayaraq bildirir ki, Azərbaycan icmasının həmin dövrdə zəif təmsil olunması ölkənin mövqeyini beynəlxalq arenada daha da çətinləşdirib.

Araşdırmada ABŞ-nin 907-ci düzəlişə yenidən baxmasının vacibliyi qeyd olunur. Müəllif hesab edir ki, bu addım iki ölkə arasında münasibətlərin inkişafına və regionda davamlı sülhə töhfə verə bilər.

Qeyd edək ki, Lilan Spriqz araşdırmaçı, beynəlxalq hüquq və münasibətlər üzrə mütəxəssisdir. O, hazırda Vaşinqtonda yerləşən bir neçə analitik mərkəz və akademik qurumlarla əməkdaşlıq edir. 2025-ci ilin iyul ayından etibarən tədqiqatçı BAMF-dakı təcrübə proqramı çərçivəsində, həmçinin "BMT-nin Qarabağla bağlı 4 qətnaməsi", "Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyəti" və "Azərbaycanın mina problemi: onun miqyası və təhdidlər" kimi mövzularda araşdırmalar apararaq bir sıra analitik materiallar hazırlayıb. Onun tədqiqatlarında regionun geosiyasi reallıqları, tarixi kontekst və beynəlxalq hüququn rolu xüsusi yer tutur.

## Fransa senatoru Azərbaycan ilə Ermənistan arasında imzalanan Birgə Bəyannaməni yüksək qiymətləndirib

**Fransa Senatının və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Natali Qule ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında imzalanan tarixi Birgə Bəyannaməni yüksək qiymətləndirib.**



AZƏRTAC xəbər verir ki, senator sosial şəbəkə hesabında üçtərəfli görüşlə bağlı paylaşım edib. Paylaşımda qeyd olunub ki, Azərbaycan və Ermənistan liderlərinin imzası ilə yazılan bu tarixi səhifə regionda yeni dövrün başlanğıcıdır. "Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın iştirakı ilə yazdığı tarixi səhifədən olduqca məmnunam. Əgər Fransa siyasətçilərinin 99,99 faizi kor-korana şəkildə erməni lobbisini izləməsəydi, Fransa sülh prosesində instrumental rol oynaya bilərdi. Təəssüf ki, Fransa kəskin balanssız mövqe sergilədi və indi prosesin kənarında qaldı. Ümid edirəm ki, Fransa tezliklə Azərbaycanla yaxşı münasibətləri bərpa edəcək. Tarixin doğru tərəfində olduğum üçün qürur duyuram", - deyə Natali Qule vurğulayıb.

# Azərbaycan-ABŞ əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir

**Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə 2025-ci il 8 avqust Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda uzunmüddətli münaqişənin həllinə doğru atılan ən əhəmiyyətli addımlardan biri kimi tarixə düşdü. Cənubi Qafqaz regionunda "yeni dünya düzəni" üçün rəmzi bir dönüş nöqtəsi, diplomatiya tariximizdə xüsusi bir hadisədir. Görüşün əsas nəticəsi sülh sazişinin paraflanması, regionda yeni nəqliyyat-logistika reallıqlarının formalaşdırılması və yeni əməkdaşlıq perspektivlərinin açılması oldu. Bu hadisə həm də Azərbaycanın diplomatik zəfəri kimi qiymətləndirilir. Başqa tərzdə desək, Azərbaycan Zəfərinin 5 illiyinə Diplomatik Zəfəri ilə addımlayır. Maraqlıdır ki, hər iki təqvim 8 rəqəmi ilə tarixə düşdü. Bu, cənab Prezident İlham Əliyevin apardığı diplomatik fəaliyyətin uğurlu nəticəsidir, bir də ilahi ədalətin bərpasıdır.**



## 8 avqust: Yeni mərhələ - Azərbaycan üçün diplomatik və strateji dönüş



### Sülh müqaviləsinin paraflanması və növbəti mərhələlər

Vaşinqton mərasimində tərəflər sülh müqaviləsinin ilkin mətnini parafladılar və bu sənədin ratifikasiyası üçün daxili prosedurların başa çatdırılması üzrə konkret cədvəl müəyyən edildi. Mətn sərhədlərin delimitasiyası, diplomatik əlaqələrin qurulması və qarşılıqlı tanınma prinsiplərini özündə ehtiva edir. Vaşinqton razılaşması çərçivəsində Azərbaycan və Ermənistan liderləri Minsk Qrupunun ləğvi üçün ATƏT-in Baş katibinə birgə müraciət məktubu ünvanlayıblar. Ermənistan tərəfinə konstitusiyasında dəyişiklik edilməsi baxımından "ev tapşırığı" öhdəliyinin qoyulması da sülhün realllaşması üçün şərtlərdən biridir.

### Zəngəzur dəhlizi və onun yeni adı

Görüşün diqqətçəkən elementlərindən biri də nəqliyyat dəhlizinə - Zəngəzur koridoruna regional və beynəlxalq kontekstdə yeni münasibət oldu. ABŞ-nin təşəbbüsü ilə dəhliz beynəlxalq ticarət və tranzit imkanlarının genişləndirilməsi və təhlükəsizliyi üçün "Trump Route for International Peace and Prosperity" (qısaca TRIPP) adlandırıldı. Bununla bağlı kommersiya və təhlükəsizlik mexanizmləri üzərində ilkin razılaşma əldə edildi. Bu addım regionun logistika xəritəsini dəyişdirə və enerji-ticarət axınlarını yönləndirə bilər.

### 907 saylı düzəlişin ləğvi

Görüş zamanı ABŞ administrasiyası tərəfindən uzun müddətdir müzakirə olunan 907-ci düzəlişin dayandırılması ilə bağlı sənədin verilməsi də rəsmən elan edildi. Azərbaycan Prezidenti bu qərarı "33 il sonra ədalətin bərpası" kimi qiymətləndirdi, bu addım iki ölkə arasında iqtisadi-maliyyə əməkdaşlığını sürətləndirə və investisiya axınlarını gücləndirə bilər.

### Yeni əməkdaşlıq sahələri

Enerji, nəqliyyat, ticarət, süni intellekt barədə Ağ Ev bəyanatları və iki ölkənin yerli mənbələri göstərir ki, enerji (xüsusən tranzit və boru layihələri), nəqliyyat infrastrukturu, sərmayə axını və rəqəmsal transformasiya, o cümlədən süni intellekt sahəsində əməkdaşlıq üçün işçi qrupları yaradılacaq. Tərəflər arasında işçi qrupun yaradılması üçün Anlaşma Memorandumu imzalandı Bu, sülhün yalnız siyasi yox, həm də iqtisadi əsaslarla təmin olunmasına yönəlmiş addımdır.

### Regionda geopolitik dəyişikliklər

Vaşinqton sammiti geosiyasi mənzərədə də ciddi dalğalanmalar doğurur. Analitiklər qeyd edirlər ki, ABŞ-nin vasitəçiliyi ilə əldə olunmuş bu razılaşma Rusiya üçün regiondakı ənənəvi təsir imkanlarını məhdudlaşdıra bilər; paralel olaraq, İranın da bu yeni düzəndə maraqları və reaksiyaları olacaq. Bu, Cənubi Qafqazda balansın dəyişməsinə, yeni çoxsahəli əməkdaşlıq xətlərinin formalaşmasına uyğun zəmin yaradır.

Vaşinqton mərasimi beynəlxalq medianın diqqət mərkəzində oldu və ciddi ictimai rezonans doğurdu. AP, Reuters, CBS, FT və digər aparıcı nəşrlər tədbiri geniş işıqlandırdılar. Bununla yanaşı, bəzi Qərb və regional şərhçilər bu razılaşmanın uzunmüddətli reallaşması üçün hələ də bir sıra praktiki maneələrin (konstitusiyaya daxil ediləcək dəyişikliklər, sərhəd delimitasiyası, insan hüquqları məsələləri və s.) qaldığını vurğulayırlar. Əlbəttə, bu tarixi hadisə hamının maraq dairəsində ola bilməz. Təbii olaraq proseslərə müxtəlif don geyindirənlər də olacaq və qəbul etməyənlər də. Ancaq unutmayaq ki, regiona gələn yeni düzən artıq yola düşüb və geriyə yox, irəliyə addımlayır.

Həm Azərbaycan, həm də Ermənistan rəhbərliyi sülh və təhlükəsizlik baxımından ABŞ-nin rolunu xüsusi qeyd edir, Donald Trampın sülhyaratma səylərinə görə Nobel mükafatı namizədliyi məsələsini də irəli sürdülər.

Azərbaycan üçün strateji qazanc və perspektivlər 8 avqust tarixi Azərbaycanın həm diplomatik, həm də iqtisadi səviyyədə strateji qazancı kimi qiymətləndirilə bilər. Bu mərhələ beynəlxalq diplomatiyada da yeni etibar və mövqe qazandırır.

İqtisadi əməkdaşlıq üçün yeni kanallar açır: investisiyalar, nəqliyyat marşrutları, enerji və rəqəmsal texnologiyalarda birgə layihələr.

Geosiyasətdə ABŞ-nin regiondakı təsirinin artması ilə birlikdə, mövcud güc balanslarında dəyişikliklərə gətirib çıxara biləcək proseslər də gözlənilir.

***Mehriban VƏLİYEVA,***
***Milli Məclisin deputatı***

## Prezident İlham Əliyevin milli maraqlarımıza xidmət edən növbəti diplomatik uğuru

**Azərbaycan xalqı Prezident İlham Əliyevin liderliyi ilə son dərəcə vacib tarixi hadisəyə şahidlik etdi. ABŞ Prezidenti Donald Trampın dəvəti əsasında Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona işgüzar səfərinin baş tutması, istər Azərbaycan-Ermənistan normallaşdırma prosesinin irəlilədilməsi, istərsə də Azərbaycan-ABŞ əlaqələrinin gələcək inkişaf gündəliyinin yenidən nəzərdən keçirilməsi və bu istiqamətdə mühüm qərarların qəbul edilməsi baxımdan böyük əhəmiyyət kəsb edir.**
**Xüsusilə Azərbaycanın regionun əsas açar ölkələrindən biri olmasını və qlobal əhəmiyyətli Orta dəhliz üzərində əlverişli coğrafi mövqedə yerləşməsini və ən əsası Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş komandanlığı ilə torpaqlarımızın işğaldan azad olunması nəticəsində yeni geosiyasi reallığın yaranmasını və münaqişənin bitməsindən dərhal sonra Prezident İlham Əliyevin sülh gündəliyi ilə çıxış etməsini nəzərə alaraq, Vaşinqton səfərinin regionun gələcək inkişafında yeni bir mərhələnin başlanmasına mühüm töhfə verəcəyini əminliklə söyləmək olar.**

Eyni zamanda ABŞ Prezidentinin sülhməramlı missiyası çərçivəsində regionumuza diqqət ayırması, xüsusilə dünyada münaqişə ocaqlarının hələ də alovlanmaqda olduğu bir zamanda Cənubi Qafqazda sülh və tərəqqinin təmin edilməsi istiqamətində fəaliyyəti təqdirəlayiqdir.



### Azərbaycan-Ermənistan normallaşma prosesi

Ermənistanla Azərbaycan arasında normallaşma prosesində, sülh gündəliyinin formalaşmasında ölkəmizin, şəxsən Prezident İlham Əliyevin rolu əvəzsizdir. Azərbaycan dövləti Prezident İlham ƏIiyevin liderliyi ilə bütün hədəflərinə nail olur. 2020-ci il Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarını işğaldan azad etdi və Ermənistanın kapitulyasiya aktını imzalamasına nail oldu. Növbəti illərdə qələbəmiz addım-addım möhkəmləndirilərək, "Qisas əməliyyatı" da daxil olmaqla bir neçə lokal xarakterli tədbirlər nəticəsində Ermənistan ordusunun qalıqlarına, qeyri-qanuni erməni silahlı dəstələrinə sarsıdıcı zərbələr vuruldu və Laçında sərhəd keçid məntəqəsi quruldu. Nəhayət, 2023-cü ildə ölkəmiz 24 saatdan az bir müddətdə gerşəkləşdirilən antiterror tədbiri ilə özünün tam suverenliyini bərpa edərək, son 80 ildə mütləq qələbə qazanan yeganə ölkə oldu. Münaqişəni qalibiyyətlə bitirdikdən sonra Azərbaycan sülh gündəliyi ilə çıxış etdi və bu sülh təşəbbüsünün banisi də məhz Prezident İlham Əliyevdir. 2022-ci ilin əvvəlində Azərbaycan sülh müqaviləsinin baza prinsipləri olaraq, bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının tanınması, qarşılıqlı olaraq ərazi iddiası ilə çıxış etməmək, güc tətbiqi ilə hədələməmək, sərhədlərin demarkasiyası və delimitasiyası, diplomatik münasibətlərin qurulması, kommunikasiyaların açılması kimi müddəaları ehtiva edən 5 əsas prinsipi Ermənistana təqdim etdi. Bu ilin mart ayında son olaraq razılaşdırılan 17 maddədən ibarət sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanıb. Lakin danışıqlar prosesinin gedişi Ermənistanın səmimi olmamasını bir daha nümayiş etdirdi. 2023-cü il antiterror tədbirlərinə qədər Ermənistan Qarabağda yaşayan erməni sakinlərin məsələsinə dair bəndin salınmasını layihəyə təkid etməsinə baxmayaraq, Azərbaycan prinsipial olaraq bu məsələnin ölkənin daxili məsələsi olduğunu və dövlətlərarası sənədə daxil edilməsinin qəbuledilməz olduğunu qarşı tərəfin diqqətinə çatdırmışdır.

Təəssüflə qeyd edilməlidir ki, Bayden-Blinken administrasiyası, Fransa Prezidenti Makron Azərbaycan-Ermənistan normallaşma prosesinə hər vəchlə mane olaraq, öz gündəliklərini sırımağa çalışırdılar və bu məqsədlə, ölkəmizə qarşı çirkin iftiralara, təzyiqlərə, siyasi-diplomatik təxribatlara əl atırdılar, lakin məqsədlərinə nail ola bilmirdilər. Nəhayət, 2023-cü il antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyi və ərazi bütövlüyünü tam təmin etdikdən sonra həqiqi danışıqlar başladı və 2025-ci ilin mart ayında sülh müqaviləsi üzrə danışıqlar yekunlaşdı.

Lakin Ermənistan öhdəliklərinə əməl etməyərək, iki ölkə arasında sülh gündəliyinin irəli aparılması, razılaşdırılmış sülh sazişi layihəsinin imzalanması yolunda əsas maneələrin - Ermənistan Konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılması və lazımsız Minsk Qrupu və əlaqəli qurumların ləğv olunması ilə bağlı müvafiq addımlar atmaması sülh prosesinin ləngiməsinin əsas səbəblərindən biri olaraq qalırdı. Həmçinin Ermənistan müxtəlif bəhanələrlə Zəngəzur dəhlizinin açılmasına və bununla da, dolayısı ilə regionda nəqliyyat infrastrukturunun tam gücü ilə işləməsinə maneə törədirdi.

Vaşinqton görüşü çərçivəsində imzalanmış Birgə Bəyannamə Azərbaycanın, Prezident İlham Əliyevin növbəti qələbəsidir və məhz dövlət başçısının qətiyyətli mövqeyi sayəsində milli maraqlarımıza xidmət edən müddəalar bəyannamədə öz əksini tapdı. Ermənistan Azərbaycanın bütün şərtlərini - Minsk qrupunun ləğvi üçün birgə məktub imzalanmasını və öz konstitusiyasından ərazi iddiasını ehtiva edən müddəanın çıxarılmasını qəbul etdi. Unutmayaq ki, buna qədər Ermənistan rəsmiləri konstitusiya məsələsinin ölkənin daxili işi olduğunu və sülh müqaviləsi ilə əlaqəsi olmadığını vurğulayırdılar. Həmçinin Zəngəzur dəhlizinin açılması artıq reallığa çevrilir. Prezident İlham Əliyev daim vurğulayırdı ki, Zəngəzur dəhlizi açılmalıdır və açılacaq. Azərbaycan Vaşinqtonda bu məqsədinə də nail oldu.

Vaşinqtonda imzalanmış Birgə Bəyannamə ilə regionda Azərbaycanın yaratdığı status-kvo bir daha təsbit olunur, beynəlxalq ictimaiyyət, o cümlədən ABŞ yeni reallığı qəbul edir. Prezident İlham Əliyevin Vaşinqton səfəri, imzalanan birgə sənədlər Azərbaycanofobiya xəstəliyinə tutulmuş Fransa Prezidenti Makronun, keçmiş qondarma qurumu tanıyan fransız deputatların, Avropa Parlamentinin, Qərb mediasının, Amnesty International, Human Rights Watch, erməni lobbisinin, ANCA-nın, Azərbaycanı sanksiya, təcridlə hədələyənlərin, borellərin, frenk pallonelərin, adam şifflərin iflasıdır. Müharibədə qalib gəlmiş Prezident İlham Əliyev sülhü də qazandı.

### Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ

Vaşinqton səfərinin Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişafına təsir imkanlarına gəldikdə bir sıra məsələlər xüsusilə diqqətə alınmalıdır. Son 33 il ərzində inkişaf tarixinə nəzər yetirdikdə əsasən enerji, həmçinin təhlükəsizlik sahəsində əməkdaşlığın iki ölkə arasında əlaqələrdə ön planda olduğunu deyə bilərik. Belə ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən enerji siyasətinin nəticəsi olaraq, 1994-cü ildə qlobal əhəmiyyətli "Əsrin müqaviləsi"nin imzalanmasından sonra iki ölkə arasında enerji sahəsində əməkdaşlıq intensiv xarakter almışdır. Təhlükəsizlik və terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlığa gəldikdə isə məlum olduğu kimi, 1992-ci ilin avqust ayında post-sovet ölkələrinə yardım məqsədilə ABŞ konqresinin qəbul etdiyi "Azadlığa yardım aktın"a bu ölkənin erməni lobbisinin və ermənipərəst qüvvələrinin təsiri və təzyiqi ilə ədalətsiz 907-ci düzəlişin əlavə edilməsindən sonra ikitərəfli münasibətlərdə soyuqlaşma müşahidə edilmişdir. Ermənistanın işğalçılıq siyasəti ilə üzləşmiş və bu terrorçu siyasətin nəticəsində Xocalı soyqırımı və digər faciələrə düçar olmuş Azərbaycana qarşı belə bir sanksiyanın qəbul edilməsi ikili standartların və ədalətsizliyin göstəricisi idi. 2001-ci ilin sentyabr ayından sonra beynəlxalq terrorizmə qarşı mübarizədə ölkəmizin oynaya biləcəyi əhəmiyyətli rolu anlayan ABŞ tərəfi ölkə prezidentinə 907-ci düzəlişin tətbiqinin 1 il müddətində dayandırılması səlahiyyəti vermiş və ABŞ prezidentləri hər il bu qərarı yeniləməklə, iki ölkə arasında qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsinə imkan vermişlər. Təəssüf ki, Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən Bayden administrasiyası bu düzəlişin yenidən qüvvəyə minməsinə qərar verməklə, iki ölkə arasında münasibətlərin inkişafına xələl gətirmişdir.

Bu baxımdan Vaşinqton səfərinin nəticəsi olaraq Azərbaycan-ABŞ münasibətləri yenidən inkişaf mərhələsinə qədəm qoymaqla, enerji, nəqliyyat, ticarət, investisiya, süni intellekt, texnoloji infrastruktur və təhlükəsizlik sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına geniş imkanlar açılacaq. Səfər çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlığın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun təsis edilməsinə dair müvafiq sənədin imzalanması, 907-ci düzəlişin tətbiqinin dayandırılması ilə bağlı qərar qəbul edilməsi Prezident İlham Əliyevin son dərəcə uğurlu xarici siyasət kursunun təntənəsi olaraq qiymətləndirilməlidir.

Vaşinqton səfərini Azərbaycan-ABŞ münasibətlərinin bir sıra vacib istiqamətlər üzrə inkişaf etdirilməsi üçün ən uğurlu səfərlərdən hesab etmək olar. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaşa çevrilməsini, müstəqil, balanslı və prinsipial xarici siyasət kursu yürütməsini nəzərə alsaq, ABŞ-nin Cənubi Qafqaz və Mərkəzi Asiyaya yönəlik siyasətində və planlarında ölkəmizin rolunun əhəmiyyətli dərəcədə artacağı ehtimalı yüksəkdir. Bu səfər Azərbaycanın ABŞ üçün enerji və nəqliyyat qovşağı kimi əhəmiyyətini möhkəmləndirməklə yanaşı, beynəlxalq güc mərkəzlərinin rəsmi Bakıya yönəlik artan diqqətini nümayiş etdirəcək. Vaşinqtonun Bakı ilə əlaqələri gücləndirməsi, Cənubi Qafqazda sülh təşəbbüsünün dəstəklənməsi və post-münaqişə mərhələsində iqtisadi inteqrasiyanın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu səfər, həmçinin regionda geosiyasi güc balansına təsir edəcək mühüm diplomatik addım kimi dəyərləndirilməlidir.

Məlumdur ki, ölkəmiz milli maraqları əsas götürməklə, müstəqil, prinsipial, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsip və normalarına uyğun xarici siyasət kursu həyata keçirir. Azərbaycan yeni geosiyasi reallıqlar yaratması, beynəlxalq təşkilatlarda üzvlüyü və sədrliyi zamanı beynəlxalq hüquqa və ədalətə söykənən fəaliyyəti nəticəsində dünya miqyasında nüfuzlu bir dövlətə çevrilmişdir. Bu isə, sözsüz ki, güc mərkəzlərinin və əsas beynəlxalq oyunçuların diqqətindən kənarda qalmır. Xüsusilə də, Azərbaycan və ABŞ liderlərinin praqmatik və prinsipial mövqe sərgiləməsi, oxşar dəyərləri üstün tutması münasibətlərin gələcək inkişafında mühüm rol oynaya bilər. Məhz bu kimi amillər Azərbaycan-ABŞ münasibətlərinin qarşıdan gələn illərdə yüksələn xətlə inkişaf edəcəyini deməyə əsas verir.

Azərbaycan və ABŞ liderləri arasında aparılan səmərəli müzakirələr qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı və iştirakçısı olan Azərbaycana siyasi və iqtisadi dividendlər gətirməklə yanaşı, ölkəmizin regional liderliyini və beynəlxalq nüfuzunu, regional təhlükəsizlik arxitekturasında rolunu, diplomatik manevr imkanlarını daha da artıracaq, Qərb diplomatiyası istiqamətində mövqeyini daha da gücləndirəcək.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

## "Vaşinqton görüşü Prezident Əliyevin rəhbərlik etdiyi diplomatiyamızın tarixi nailiyyətidir"



**"Bu, atəşkəs deyil, bu, sülhdür. Böyük ehtimalla, məhz Amerika Birləşmiş Ştatları (ABŞ) Prezidenti Donald Trampın bu ifadəsi dünən Vaşinqtonda keçirilən sammitin əsas məqamlarından biri oldu. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu hesablayıb ki, sülh sazişlərinin yalnız təxminən üçdə biri davamlı sülhlə nəticələnir. Bunu bizdən yaxşı kim bilər ki, Azərbaycan öz sülhünü 30 ildən çox gözlədi. Amma indiki vəziyyətdə, fikrimcə, tammiqyaslı sülh şansı kifayət qədər yüksəkdir. Vaşinqtonda qısa, amma məzmunlu bir sənəd imzalandı. Görüşdə Azərbaycan Naxçıvana dəhliz əldə edir, Ermənistan isə suverenliyinə hörmət olunacağına dair zəmanət alır".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Nigar Arpadarai söyləyib.

O bildirib ki, D.Tramp özünün ikinci prezidentlik müddəti dövründə ilk strateji xarici siyasət uğurunu qazanır. "Tamamilə aydındır ki, bu uğuru ona, əslində, bu razılaşmaya gedən yolda işin 90 faizini görmüş Azərbaycan Prezidenti bəxş edib. Ermənistanın bu gün manevr imkanları çox məhduddur və bu, məhz keçmiş səhvlərin nəticəsidir. Görüşdə D.Tramp vəziyyətdən duyduğu məmnuniyyəti gizlətmədi. O, faktiki olaraq, indiyə qədər Rusiya, İran və Fransanın meydan suladığı Ermənistana giriş imkanı əldə edir. Bununla belə, Azərbaycan suverenliyindən heç bir güzəştə getmir və strateji konsepsiyasına uyğun olaraq, öz ərazisini xarici qüvvələrə təqdim etmir".

Deputat vurğulayıb ki, Vaşinqtonda daha bir mühüm amil Amerika Erməni Milli Komitəsinin (ANCA) və digər erməni diaspor təşkilatlarının diqqətdən kənarda qalması oldu. "ABŞ siyasətində erməni lobbisinin ənənəvi böyük çəkisini nəzərə alsaq, bu məsələni xüsusilə qeyd etmək olar. Səbəb - bütün iştirakçılar, o cümlədən Paşinyan, yaxşı bilirlər ki, ANCA və bənzərləri sülhü sabotaj etmək üçün hər şeyi edərdilər. Üstəlik, Azərbaycan heç vaxt münaqişənin başlıca təhrikçisinin arxasında gizləndiyi bir razılaşmaya getməzdi. Xoşdur ki, Prezident Tramp ANCA-nın fikrinin onu maraqlandırmadığını göstərdi. Ermənilərin lobbi qrupunun seçkilərdə Harrisi dəstəkləyib, ona qarşı çıxması bu məsələdə rol oynayıbmı? Ola bilər. Bu, şübhəsiz ki, dövrümüzün ən təcrübəli və uğurlu dünya siyasətçilərindən biri Prezident Əliyevin rəhbərlik etdiyi diplomatiyamızın tarixi nailiyyətidir - zərif və vaxtında atılmış addım", - deyə deputat əlavə edib.

# Sülh prosesində tarixi mərhələ

# Dünyanın diqqətində olan sülh sammiti



## Ağ Evdə Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcı qoyuldu

**Prezident İlham Əliyevin avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcını qoydu. Regionun lider ölkəsi olan Azərbaycan rəhbərinin dünyanın ən güclü dövləti ABŞ-nin Prezidentinin dəvəti ilə gerçəkləşən və beynəlxalq ictimaiyyətin, medianın nəticələrini diqqətlə izlədiyi, yerli və əcnəbi siyasi ekspertlərin sülhlə bağlı böyük gözləntilərinin olduğu bu vacib səfəri əldə edilən tarixi nailiyyətlər baxımından olduqca zəngin keçdi.**

Ölkəsinin ərazi bütövlüyünü, suverenliyini təmin edən qalib lider eyni zamanda sülh təşəbbüskarının müəllifi kimi Vaşinqtona səfər edən Prezident İlham Əliyev tarixi sammitdə Azərbaycana həm də qürurlu diplomatiya qələbəsi bəxş etdi. Yürütdüyü qətiyyətli və uzaqgörən siyasət sayəsində ölkəmizi bütövləşdirən Prezident İlham Əliyevin həyata keçirdiyi çevik, zamanın çağırışlarına cavab verən diplomatik siyasətinin nəticəsidir ki, avqustun 8-də Vaşinqton sülh sammitində imzalanan Birgə Bəyannamə məhz Azərbaycanın milli maraqlarının təmini əsasında formalaşdırıldı.

Bir sözlə, Müzəffər Ali Baş Komandan kimi müharibədə qələbə çalaraq tarixi ədaləti təmin edən Prezident İlham Əliyev dünyada əmin-amanlığın və barışın tərəfdarı olaraq sülhü də qazandı.

### Dostluğa dayanan münasibətlər

ABŞ-Azərbaycan əlaqələrinin 33 ildən artıq tərəfdaşlıq tarixi var. Ancaq iki ölkənin münasibətlərinin Prezident Donald Trampın Ağ evə rəhbərlik etdiyi hər iki dövrdə xüsusilə müsbət istiqamətdə dinamik inkişaf etməyə başlaması da reallıqdır. İki ölkə lideri İlham Əliyev və Donald Tramp arasındakı səmimi münasibətlərdən bəhrələnərək inkişaf edən bu əlaqələr gündən-günə daha da möhkəmlənir. Ölkəmizin başçısının Vaşinqtona səfəri zamanı ABŞ rəhbəri Donald Trampın Ağ Evin rəmzi açarını Prezident İlham Əliyevə təqdim etməsinin özü böyük simvolik məna daşıyır. Bununla Ağ Ev rəhbəri ölkələrimiz arasındakı əlaqələrin yüksək etimada, dostluğa söykəndiyinə işarə vurmaqla yanaşı, həm də İlham Əliyev şəxsiyyətinə olan dərin ehtiramını göstərmiş oldu.

Yeri gəlmişkən, bildirək ki, iyulun 19-da III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Donald Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqətçəkən cənab İlham Əliyev vurğulamışdı ki, o, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır: "Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun".

ABŞ Prezidenti Donald Tramp özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşmışdı.

Diqqətçəkən məqamdır ki, Azərbaycan liderinin ABŞ-yə səfəri zamanı - avqustun 8-də Donald Tramp "Truth" sosial platformasındakı səhifəsində Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda çıxışı ilə bağlı növbəti dəfə paylaşım etdi.

Gətirdiyimiz bu nümunələr Donald Trampın və İlham Əliyevin bir-birlərinə olan səmimi dostluq münasibətini ortaya qoyan faktlar olmaqla yanaşı, həm də hər iki ölkə rəhbərinin ədalətli, beynəlxalq hüquqa dayanan və sülhü dəstəkləyən mövqe tutmalarını bir daha nümayiş etdirir.

### Strateji tərəfdaşlığa doğru

Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri ABŞ-Azərbaycan əlaqələrində yeni və uğurlu gələcəyə hesablanmış səhifələr açır və bu əməkdaşlıq strateji tərəfdaşlığa doğru irəliləyir. Səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" bunun bariz göstəricisidir. Azərbaycan-ABŞ strateji tərəfdaşlığı aşağıdakı 3 istiqaməti əhatə edəcək:

* *Enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar;*
* *Süni intelekt və rəqəmsal infrasturukturun da daxil olduğu iqtisadi sərmayə;*
* *Müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq;*
* *Yaradılacaq Strateji İşçi Qrupu regional bağlantılar infrasturukturunun və enerji sahəsində sərmayələrinin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilədilməsi, həmçinin süni intelektin inkişafı kimi vacib məsələlərlə məşğul olacaq;*
* *ABŞ-Azərbaycan strateji tərəfdaşlığı ABŞ texnologiyasının və sərmayəsinin ölkəmizə gəlməsi, ABŞ-nin iqtisadi fəallığı anlamına gəlir.*

1992-ci ildə "Azadlığı Müdafiə Aktı" adlı qanunun 907-ci bölməsinə düzəlişə əsasən ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olunmuşdu. Qərəzli Bayden administrasiyası dövründə 907-ci düzəlişin yenidən canlandırılmasına və bundan ölkəmizə qarşı təzyiq mexanizmi kimi istifadə edilməyə çalışılmışdı.

Ölkəmizin rəhbərinin ABŞ-yə işgüzar səfəri zamanı Prezident Donald Tramp tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalandı. Bununla Azərbaycan xalqına qarşı həyata keçirilən 33 illik haqsızlığa son verildi.

### Dayanıqlı sülh

ABŞ Prezidenti Donald Tramp davamlı olaraq Azərbaycanın bölgə ilə bağlı sülh səylərini dəstəkləyir.

Xatırladaq ki, bu ilin iyulunda Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü sülh prosesi istiqamətində atılmış mühüm addım oldu. Həmin görüşdə iki ölkə arasında sülh və normallaşma istiqamətində reallaşdırılacaq məsələlərlə bağlı müzakirələr aparıldı, razılaşmalar əldə edildi.

Əbu-Dabidə Ermənistan ilə Azərbaycan liderlərinin ikitərəfli görüşündən dərhal sonra ABŞ tərəfindən bölgədə sülh səylərinin dəstəklənməsi ilə bağlı açıqlama verildi. Birləşmiş Ştatların Prezidenti Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə uğurla və birdəfəlik həll olunacağını bildirdi.

Prezident İlham Əliyevin Birləşmiş Ştatların Prezidenti Donald Trampın rəsmi dəvəti ilə ABŞ-yə tarixi səfəri regional sabitlik baxımından da xüsusi əhəmiyyətə malik oldu. Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Vaşinqton görüşünün nəticəsi olaraq Birgə Bəyannamə imzalandı. Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması üçün İrəvanın Bakının beynəlxalq hüquqa dayanan tələblərini yerinə yetirməsi lazımdır. Bəlli olduğu kimi, Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ölkəmizə qarşı ərazi iddiaları yer alır.

ATƏT-in Minsk qrupunun fəaliyyəti de-fakto dayanıb. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamədə Minsk qrupunun ləğv edilməsi üçün iki ölkənin ATƏT-in Baş katibinə birgə müraciət edəcəyi də təsdiqləndi.

Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi tanınır. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri - Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur.

Bölgədə kommunikasiyaların açılması məsələsi də öz həllini tapır. 44 günlük müharibədən sonra Prezident İlham Əliyevin bəyanatlarında Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidinin təmin edilməli olduğu vurğulanırdı. Dövlət başçımızın bu qəti tələbi də Ermənistan tərəfindən qəbul edildi. Belə ki, imzalanan Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişin təmini təsdiq olunur. Yəni Zəngəzur dəhlizinin açılması reallaşır.

Sənəddə həmçinin Ermənistan ərazisində xüsusi bağlantı layihəsi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa, Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur.

Vaşinqton sülh sammitində Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni paraflanıb. İki ölkə xarici işlər nazirləri tərəfindən sülh müqaviləsinin paraflanması saziş mətninin tərəflər arasında razılaşdırıldığını təsdiq edir.

Onu da qeyd edək ki, sülh müqaviləsinin paraflanması həyata keçirilsə də bu, sülh müqaviləsinin imzalanması demək deyil. 2026-cı ildə Ermənistanda konstitusiya dəyişiklikləri ilə əlaqədar referendum keçirildikdən sonra sülh sazişinin yekun imzalanması təmin olunacaq.

### Azərbaycanın səyləri ilə

Prezident Donald Trampın iştirakı ilə Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton sülh sammiti əldə olunan tarixi nailiyyətləri ilə yadda qaldı. Vaşinqton sammiti zamanı razılaşmalar əldə edilməsi, Azərbaycan və Ermənistan liderləri tərəfindən Birgə Bəyannamə imzalanması ümumilikdə Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin təmin olunması istqamətində atılmış vacib addım oldu.

Bununla bölgədə ayırıcı xətlər çəkmək istəyən maraqlı xarici qüvvələrin, Ermənistandakı revanşistlərin, erməni lobbisinin, ümumiyyətlə Azərbaycanın düşmənlərinin də layiqli payı verilərək, yerlərinə otuzduruldular.

Birgə Bəyannamə həm də torpaqlarının işğalı dövründə belə münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarı olan, eyni zamanda Vətən müharibəsindən dərhal sonra Ermənistan-Azərbaycan arasında normallaşmaya, barışa nail olunması üçün mühüm təşəbbüslərlə çıxış edən, bu istiqamətdə əməli addımlar atan Azərbaycanın sülh səylərinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir.

"Azərbaycanla Ermənistan arasında imzalanmış saziş bizim niyyətimizi - sülh istədiyimizi açıq şəkildə nümayiş etdirir", - deyən Prezident İlham Əliyevin Vaşinqtonda jurnalistlərə müsahibəsində bildirdiyi kimi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ədalətin təntənəsi

**Son illər dövlətimiz üçün mühüm hadisələrə şahidlik edirik. Bütün bunlar uğurlu səhifələrə çevrilərək tariximizə yazılır. Beş il ərzində nələr baş vermədi?! 2020-ci ilin bu günlərində Azərbaycanın 1990-cı illərdə Ermənistan tərəfindən işğal olunmuş iyirmi faiz ərazisinə hələ də həsrətlə, nisgillə boylanırdıq. Otuz ilə yaxın vaxt keçirdi. Azərbaycanın öz torpaqlarını azad etməyini istəməyənlərə elə gəlirdi ki, zaman dövlətimizin, xalqımızın əleyhinə işləyir. Yəni onlar sülh danışıqları adı ilə, əslində, Qarabağın, Şərqi Zəngəzurun işğalı müddətini uzatmaq niyyətindəydilər.**

Sanırdılar ki, Azərbaycan dövlətini, xalqını oyuna çəkəcəklər. Azərbaycandan əzəli və beynəlxalq səviyyədə tanınmış əraziləri olan Qarabağı və Şərqi Zəngəzuru bu yolla qoparacaqlar. Həmin illərdə dövlətimizin başçısı İlham Əliyev yüksək kürsülərdən bütün dünyaya bəyan edirdi ki, Azərbaycan bu məsələdə heç bir güzəştə getməyəcək.

Ermənistanın və ona havadarlıq edən bir sıra dövlətlərin və beynəlxalq təşkilatların düyünə saldıqları Qarabağ problemini Azərbaycan dövləti beynəlxalq hüquq və ədalət çərçivəsində həll etdi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı səbəbindən başlayan İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi haqqın, ədalətin qələbəsi oldu. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.

Azərbaycan bütün dünyada sülhsevər dövlət kimi tanınır. Ermənistanla sülh sazişinin imzalanmasının təşəbbüskarı da dövlətimizin başçısı oldu. Azərbaycan hökuməti bu istiqamətdə ardıcıl siyasət həyata keçirir. Öz mövqeyinə hər zaman sadiq qalan Azərbaycan bütün ikitərəfli və çoxtərəfli beynəlxalq görüşlərdə sülhün əldə olunmasının, həmçinin regionumuzda yeni quruculuq dövrünün başlanmasının zamanı olduğunu qətiyyətlə bildirirdi.

Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı avqustun 8-də Vaşinqtonda olduqca əhəmiyyətli və tarixi görüş keçirildi. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona səfər edən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan mühüm sənədlər imzaladılar.

ABŞ, Azərbaycan, Ermənistan liderlərinin üçtərəfli görüşü tarixi hadisəyə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistanın Baş naziri Nikol Paşinyanı belə mühüm sənədi imzalamaq üçün Vaşinqtona gəlmələri münasibətilə təbrik edən ABŞ Prezidenti qeyd edib ki, bir çox vasitəçi Ermənistan-Azərbaycan münaqişəsinə son qoymağa çalışdı və hamısı uğursuz oldu: "Nəhayət, bu gün bu, bitəcək".

Dövlətimizin başçısı İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycan və Ermənistan sülh şəraitində yaşaya biləcəklər. "Prezident Tramp Cənubi Qafqaza sülh gətirdi və buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan və Azərbaycan barışmaq üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlar da barışacaqlar. Biz qarşıdurma, konfrantasiya və qan tökülməsi olan səhifəni çevirib uşaqlarımıza parlaq və təhlükəsiz gələcəyi təmin edəcəyik. Ona görə də bu gün çox xoşbəxtəm, çünki biz böyük bir tarix yazırıq".

Prezident İlham Əliyev Azərbaycan xalqının bir çox regionlara, o cümlədən Cənubi Qafqaza sülh gətirən ABŞ Prezidenti Donald Trampın sülhməramlı siyasətini daim xatırlayacağını qeyd edib: "Prezident Tramp və onun komandası, yaxın dostumuz cənab Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan yəqin ki, hələ də tükənməyən danışıqlar prosesində ilişib qalacaqdılar. Bu gün biz Qafqazda təkcə regionumuz üçün deyil, həm də Prezident Trampın haqlı olaraq qeyd etdiyi kimi, beynəlxalq sülhə və rifaha aparan "Tramp marşrutu" üçün böyük imkanlar açacaq, divarları yıxacaq, bir çox ölkələri birləşdirməyə imkanlar yaradacaq, investisiya, rifah və sabitliyi təmin edəcək sülhü bərqərar edirik".

Ermənistanın Baş naziri Nikol Paşinyan da tarixi anlar yaşandığını vurğulayıb: "Həqiqətən də tarixi bir gündür və bu, bizim ölkələrimiz və regionumuz üçün uğurdur. Dünya da bundan qazanacaq, çünki bu, sülh içində yaşayan bir region və daha ədalətli bir dünya deməkdir". Nikol Paşinyan qeyd etdi ki, Ermənistan və Azərbaycan ikitərəfli münasibətlər baxımından fundamental bir mərhələyə qədəm qoyur. Ermənistanın Baş naziri bəyannamələrin imzalanmasının Cənubi Qafqazda sülh, təhlükəsizlik, firavanlıq və iqtisadi əməkdaşlıq səhifəsi açıldığına inam və təminat verdiyini deyib.

Bu tarixi görüş ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Sərəncamın imzalanması ilə də əlamətdar olub. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) İlham Əliyevin avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına tarixi səfərinin nəticələrinə dair yaydığı məlumatda qeyd olunub ki, Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır.

Məlumatda vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin ABŞ-a səfəri həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi kontekstində mühüm nəticələrlə əlamətdar olub: "Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində, Sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstə, Azərbaycan tərəfi sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir".

Azərbaycanın 2020-ci ildən bəri davamlı olaraq gündəlikdə saxladığı, sülh və normallaşma prosesi üçün ən ciddi maneələrdən birinin aradan qaldırılması istiqamətində də vacib addım atılıb. Belə ki, Birgə Bəyannamədə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət ünvanlanıb.

Sənəddə xüsusi əhəmiyyət kəsb edən daha bir müddəa iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair bənddir. Həmin müddəada regionda kommunikasiyaların açılması çərçivəsində Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsinin zəruri olduğu bildirilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Sülh prosesində tarixi mərhələ

## Prezident İlham ƏLİYEV: "Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır"

### Bu, əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsidir



**Prezidenti İlham Əliyevin Vaşinqtona işgüzar səfəri şərçivəsində Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradılmışdır Əlbəttə, bu sənədin böyük əhəmiyyəti var. Təsadüfi deyil ki, dövlətimizin başçısı Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə verdiyi müsahibədə bunu xüsusi vurğulamışdır.**

"Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir. Yəni sadəcə olaraq bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır və artıq mənim göstərişimlə Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Biz öz təkliflərimizi irəli sürəcəyik".

Prezidentimizin sözügedən səfəri çərçivəsində artıq Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirildiyi bildirilmişdir. Yəni biz vaxt itirmək istəmirik.

"Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir", - deyə Prezident İlham Əliyev vurğulamışdır.

Müsahibə zamanı verilən suallardan biri Konqresin onillər əvvəl ABŞ-nin Azərbaycana yardımını qadağan edən 907-ci düzəlişin ləğv olunması barədə idi. Dövlətimizin başçısı bu ədalətsiz düzəlişin ləğv edilməsini və Trampın bunu məhz öz ofisində onun iştirakı ilə etməsini rəmzi xarakter daşıyıdığını qeyd etmişdir: "Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi".

ABŞ Prezidenti Trampın bu jestinin bizim üçün böyük bir mənası olduğunu vurğulayan dövlətimizin başçısı onu da demişdir ki, əlbəttə, Azərbaycanın hazırda belə bir xarici dəstəyə, xarici yardıma ehtiyacı yoxdur. Bizim iqtisadiyyatımız sabitdir. Dövlətimizin xarici borcu ümumdaxili məhsulun 7 faizindən də aşağıdır. Biz özümüzü donor ölkəyə çevirmişik.

Prezident İlham Əliyev ABŞ-nin dövlət başçısının şahidlik etdiyi Birgə Bəyannamədə məhz bizim mövqeyimizi göstərən müddəanın olduğunu diqqətə çatdırmışdır. Bu, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz çıxışa aid müddəadır: "Bizim istədiyimiz sadəcə Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz keçid idi. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı öhdəlik idi. Beş il ərzində heç bir irəliləyiş olmadı, yer üzərində fiziki iş görülmədi. Bu illər ərzində isə biz dəmir yolunu demək olar ki, Ermənistan sərhədinə qədər gətirdik".

Azərbaycana bu dəmir yolunu Ermənistan sərhədinə qədər tam çatdırmaq üçün bəlkə də bir ildən az vaxt lazımdır. Çalışsaq, bəlkə də altı ay kifayət edər. Ölkəmiz eyni zamanda Naxçıvan Muxtar Respublikasında da dəmir yolunun bərpasına başlayır. Azərbaycanın iki hissəsini birləşdirmək üçün təxminən 40 kilometrdən bir qədər artıq dəmir yoluna ehtiyac var. Təkcə dəmir yolu deyil, elektrik ötürücü xətləri, fiber-optik rabitə xətləri və gələcəkdə Xəzərin o tayındakı qonşularımızla birlikdə Azərbaycan enerji resurslarını nəql edə biləcək digər enerji infrastrukturu da nəzərdə tutulur.

"Ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçid yaratmaq istəyirik ki, bu da daha geniş region, hətta Ermənistan üçün çoxlu imkanlar açacaq" deyərək Prezidentimiz həmçinin bunu da xatırlatdı: "Ermənistanın Baş naziri ilə görüşlərdən birində ona dedim ki, Ermənistan tranzit ölkəyə çevrilə bilər. Bildirdim ki, siz tranzit ölkə olmağın nə demək olduğunu bilmirsiniz, çünki heç vaxt olmamısınız. Yalnız Azərbaycan vasitəsilə tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil. Siz isə tranzit ölkə olmağın faydalarını görəcəksiniz. Biz özümüz də daha güclü tranzit ölkə olmağa çalışırıq. Ərazimizdən keçən nəqliyyat dəhlizlərinin yükdaşımada daha çox iştirak etməsini istəyirik. Bu isə həm pul, həm iş yerləri, həm də siyasi təsir deməkdir. Ermənistan isə illərlə özünü bu imkanlardan məhrum edib".

Xəbər verildiyi kimi, avqustun 7-də dövlətimizin başçısının və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb.

Prezident İlham Əliyev müsahibəsində "ExxonMobil" və SOCAR arasında əməkdaşlıq haqqında imzalanmış bu Anlaşma Memorandumu əhəmiyyətli bir layihə ilə nəticələnəcəyinə əmin olduğunu bildirmişdir. "ExxonMobil " dünyanın ən aparıcı enerji şirkətlərinin sırasında dayanır və müasir texnologiyalar sahəsində böyük təcrübəyə malikdir. 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" layihəmizə qoşulub. Eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin səhmdarlarıdan biridir.

"ExxonMobil"lə imzalanan yeni sənədin əhəmiyyətini qeyd edərək Prezidentimiz demişdir: "Burada xüsusi nümayəndə cənab Vitkovun, ABŞ enerji nazirinin müavininin və mənim iştirakımla keçirilən imzalanma mərasimi əslində göstərir ki, biz bu layihənin gələcəyinə inanırıq. İnanmasaydıq, Anlaşma Memorandumunun imzalanmasında iştirak etməzdik. Mən nadir hallarda Anlaşma Memorandumunun imzalanmasında iştirak edirəm. Bəzən müqavilələrin imzalanmasında iştirak edirəm, amma bu, sadəcə, bir Anlaşma Memorandumudur. Lakin bizim ixtiyarımızda çoxlu texniki amillər var ki, bunlar böyük bir karbohidrogen yatağının kəşfinə işarə edir".

Bu hadisə də göstərir ki, Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığında enerji əməkdaşlığı mühüm istiqamətlərindən biri olaraq qalacaq. Enerji dedikdə neftdir, qaz, potensial kimi bərpaolunan mənbələr nəzərdə tutulur.

"Bu gün Azərbaycan təbii qazını NATO-nun 10 üzvünə, ABŞ-nin 10 müttəfiqinə ixrac edir. Boru kəməri vasitəsilə qaz çatdırılmasında isə biz 14 ölkəni əhatə edirik. Bu baxımdan, Azərbaycan dünyada aparıcı ölkələrdən biridir. Yaxınlarda Suriyaya təbii qaz ixracına başlamışıq. Beləliklə, biz artıq Yaxın Şərq regionuna da daxil olduq və Avropada, eləcə də Yaxın Şərqdə coğrafiyamızı genişləndirəcəyik". Dövlətimizin başçısı bunların gələcək gündəliyimizin yalnız bir hissəsi olduğunu da qeyd etmişdir. Eləcə də ABŞ ilə süni intellekt, rəqəmsal transformasiya sahlərində də sıx əməkdaşlıq etmək üçün böyük ümidlər olduğunu nəzərə çatdırmışdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Savaşın qalibi, sülhün memarı

### "907-ci düzəliş"in icrasının dayandırılması Azərbaycanın daha bir diplomatik uğurudur

**Avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə sülh sazişinin paraflanması, sadəcə, iki ölkə arasında 30 illik münaqişədən sonra diplomatik bir sənədin imzalanması yox, Cənubi Qafqazın siyasi, iqtisadi, hərbi palitrasını dəyişən möhtəşəm tarixi hadisə idi. Bu, uzun illər aparılan ardıcıl siyasətin, gərgin əməyin, Prezident İlham Əliyevin hərbi və siyasi qətiyyətinin məntiqi nəticəsidir.**

Bir anlığa siyasi ardıcıllığa diqqət edək: İlham Əliyev hakimiyyətinin ilk günlərindən siyasətini güclü dövlət prinsipi üzərində qurdu. Əvvəlcə dövlətin iqtisadiyyatını, sonra hərbi gücünü formalaşdırdı. Şübhəsiz, bu, bir aksiomdur. Güc olmadan ədaləti təmin etmək mümkün deyil. Biz güclənib torpaqlarımızı işğaldan azad etdik!

2020-ci ildə ərazi bütövlüyümüzün bərpası ilə başa çatan Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin əsas hədəfi hərbi qələbəni sülh sazişi ilə tamamlamaq idi. Bu, yalnız qalib gəlmək deyil, həm də regionda yeni nizamın təməlini qoymaq uğrunda aparılan bir siyasi mücadilədi. Əsas hədəf davamlı və əbədi sülhü qazanmaq idi! Bunun üçün isə həm də İlham Əliyevin ideyası olan Zəngəzur dəhlizi açılmalı idi. Prezident dəfələrlə çıxışlarında qeyd etmişdir ki, Zəngəzur dəhlizinin açılışı iqtisadi cəhətdən dalana dirənmiş Ermənistanın da xilası deməkdir. Dəhliz açılarsa, regionda davamlı sülh olar. Zəngəzur dəhlizi məsələsi Prezident İlham Əliyevin dahi gedişlərindən biridir. Dəhliz yalnız Naxçıvana quru yolun açılması deyildi, həmçinin tarixi parçalanmanın sonu, qovuşmanın başlanğıcıdır.

Təxminən 5 ilə yaxın idi ki, Ermənistan məsələni yubatmağa, "sülh kəsişməsi" adlı utopik layihə irəli sürərək oyunbazlıqla məşğul olurdu. Buna baxmayaraq, artıq cəsarətlə Azərbaycan ən böyük məqsədlərindən birinə - Zəngəzur dəhlizinin açılmasına nail oldu deyə bilərik. Bu gün dəhlizin "Tramp yolu" adlanmasına baxmayaraq, hamı başa düşür ki, söhbət məhz Zəngəzur dəhlizindən gedir.

ABŞ-nin bu marşrutda yeganə eksklüziv tərəfdaş statusu isə Azərbaycanın diplomatik meydanda nə qədər incə və uzaqgörən hərəkət etdiyini göstərir. Dəhlizin iqtisadi əhəmiyyətindən danışarkən bunu yalnız "Əsrin müqaviləsi" ilə müqayisə etmək olar. Şübhəsiz ki, bu marşrut Cənubi Qafqazın və Mərkazi Asiyanın siyasi yönümünə də təsirsiz ötüşməyəcək. Üstəlik, ABŞ-nin dəhlizə nəzarət etməsi Rusiyanın Cənubi Qafqaza nəzarətinin tamamilə zəifləməsi, bəlkə də onu itirməsi deməkdir.

Vaşinqton sazişi həm də Azərbaycanın beynəlxalq aləmdə yeni mövqeyinin göstəricisidir. Rusiya və İranın təsirinin zəiflədiyi bir vaxtda ABŞ kimi qlobal gücün regiona strateji tərəfdaş qismində daxil olması İlham Əliyevin dünya siyasətində çoxvektorlu, amma milli maraqlara söykənən kursunun nəticəsidir.

Zəngəzur dəhlizinin idarə edilməsinin ABŞ-də olması ölkəmizin milli təhlükəsizliyinə birbaşa müsbət təsir göstərən strateji məsələdir. Şübhəsiz ki, indi dəhliz məsələsini "qırmızı xətlər" elan edənlər anlayırlar ki, çaşsalar başlarına gələcək bəlaları birbaşa dünyanın şəriksiz güc sahibi ABŞ ilə müzakirə etməli olacaqlar.

Prezident İlham Əliyevlə Prezident Tramp arasındakı uğurlu əməkdaşlığın ilkin nəticəsi olaraq ABŞ lideri tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasını dayandıran sənəd də imzalandı. Xatırladaq ki, torpaqlarımızın Ermənistan tərəfindən işğal olunduğu bir dövrdə ABŞ Konqresi 1992-ci ildə öz qanununa Azərbaycanın guya Ermənistana "blokada" tətbiq etməsini bəhanə gətirərək Azərbaycana ABŞ-dən dövlət yardımının göstərilməsini qadağan edən "düzəliş aktı" qəbul etmişdi. ABŞ-nin sonrakı bəzi administrasiyaları bir müddət "907-ci düzəliş"in icrasını dayandırsalar da, Əfqanıstan əməliyyatları başa çatan kimi həmin düzəlişi yenidən "canlandıraraq" Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə edirdilər.

Bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin yerli mediaya müsahibəsinə müraciət edək: "Prezident Trampla bu, mənim birinci görüşümdür. Onun Azərbaycanla bağlı bilgiləri, sözün düzü, məni təəccübləndirdi. O bir çox məsələləri dərindən bilir, Azərbaycanın önəmini, onun geosiyasi əhəmiyyətini, ABŞ-yə həmişə dost ölkə olmasını cənab Tramp yaxşı bilir. Əlbəttə, şəxsi təmaslar bizim münasibətlərimizdə önəmli rol oynayacaq. 907-ci düzəlişin ləğvi tarixi hadisədir. Strateji əməkdaşlıq formatına artıq başlamağımız da tarixi hadisədir. Səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu nəticələr yaxın gələcəkdə özünü biruzə verəcək".

Əlahəzrət zaman bir daha təsdiq etdi ki, İlham Əliyev təkcə döyüş meydanında qalib gələn Ali Baş Komandan deyil, qələbəni gələcək nəsillərin rifahına çevirməyi bacaran dövlət xadimidir. Bəli, İlham Əliyev hərbi zəfəri beynəlxalq hüququn və siyasi legitimliyin qalasına çevirməyi bacardı. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Haciyevin qeyd etidiyi kimi, "Prezident İlham Əliyev müharibədə qalib gəldi, indi isə sülhü qazandı!".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Genişlənən Azərbaycan-ABŞ əməkdaşlığı regionda sülhün bərqərar olmasına etibarlı zəmin yaradır

**Keçmiş Sovet imperiyası süquta uğradıqdan sonra gərgin keçən mübarizələrdən sonra Azərbaycan müstəqilliyini bərpa etdi. Zaman keçdikcə gücünü, qüdrətini artıran Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi dünya dövlətləri ilə siyasi, iqtisadi və mədəni əlaqələr qurmağa başladı.**

Azərbaycan müstəqilliyinin ilk illərindən dünyanın nəhəng, qüdrətli dövlətlərindən biri olan Amerika Birləşmiş Ştatları ilə də qarşılıqlı maraqlar çərçivəsində əlaqələr qurmağa başladı. Xatırladaq ki, Azərbaycan Respublikası və ABŞ arasında diplomatik əlaqələr 28 fevral 1992-ci ildə qurulmuşdur. Azərbaycanın ABŞ-də səfirliyi 1992-ci ilin martında, ABŞ-nin Azərbaycanda səfirliyi isə 1992-ci ilin noyabrında açılmışdır.

Azərbaycan-ABŞ münasibətlərinin 33 illik tarixi son dərəcə mühüm, yaddaqalan hadisələrlə zəngindir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın dünya dövlətləri ilə əlaqələri daha da gücləndi. İlk olaraq Azərbaycanla ABŞ arasında energetika sahəsində işbirliyinin təməli qoyuldu. Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının ABŞ və digər xarici ölkələrin aparıcı şirkətlərinin iştirakı ilə istismarı sahəsində aparılan danışıqlar uğurla başa çatdı, "Əsrin müqaviləsi" imzalandı.

Yeni əsrin başlanğıcından - 2003-cü ildən Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq istiqamətində daha sürətlə inkişaf etməyə başladı. İlham Əliyev xalqın yüksək etimadını qazanaraq, dövlət başçısı seçiləndən sonra iki ölkə arasındakı əlaqələr daha da genişləndi. Bu, daha çox beynəlxalq terrorizmə qarşı birgə mübarizədə özünü göstərdi. Dünyamızı rahatsız edən bu sahədə iki ölkə arasında əməkdaşlıq 11 sentyabr 2001-ci il terror aktlarından sonra ABŞ-nin liderliyi ilə Əfqanıstanda keçirilən antiterror əməliyyatında özünü daha qabarıq nümayiş etdirdi. Ölkəmiz həm hərbçilərinin iştirakı ilə, həm də tranzit ölkə kimi bu vacib əməliyyatı fəal şəkildə dəstəklədi. Vaşinqton Bakının terrorizmə qarşı mübarizədə göstərdiyi dəstəyi layiqincə qiymətləndirdi.

D.Tramp administrasiyası dövründə Azərbaycanla ABŞ arasında qarşılıqlı əməkdaşlıq, siyasi, iqtisadi və mədəni əlaqələr sıx şəkildə davam edir. Son zamanlar aydın şəkildə müşahidə olunur ki, Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər ənənəvi sahələr üzrə inkişaf etməklə yanaşı, həm də keyfiyyətcə yeni - strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməkdədir. Bunu daha çox Donald Trampın ikinci prezidentliyi dövründə Vaşinqtonun Cənubi Qafqaz siyasətində Azərbaycanın roluna böyük önəm verdiyini müşahidə etmək mümkündür. Enerji təhlükəsizliyi, regional sabitlik və antiterror əməkdaşlığı kimi sahələrə qarşılıqlı maraqların artması iki ölkə arasında münasibətlərin daha dərin və qarşılıqlı etimada əsaslanan bir platformaya keçməsinə güclü təkan verir.

Xatırladaq ki, Donald Tramp birinci prezidentliyi dövründə Azərbaycanla dostluq və əməkdaşlığın möhkəmlənməsinə böyük önəm vermişdi. Artıq tarixə qovuşmuş həmin illərdə formalaşan qarşılıqlı etimad bu gün ikitərəfli əlaqələrin yeni mərhələyə keçməsi üçün əsaslı zəmin yaradır. İkitərəfli əlaqələrin daha da inkişafı üçün birgə səylər, xüsusilə enerji və təhlükəsizlik sahələrindəki təşəbbüslər tərəfdaşlığın praktik nəticələrə yönəldiyini və qarşılıqlı fayda prinsipinə əsaslandığını göstərir. Bütün bu amillər isə həm liderlərin iradəsi, həm də xalqlar arasında dostluq ənənələri Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələdə daha da dərinləşəcəyinə gedən yollarda yaşıl işıq yandırır.

Ölkəmiz həmişə ABŞ ilə münasibətlərə böyük önəm verib, əlaqələrin daha da genişlənməsinə böyük maraq göstərib. Prezident İlham Əliyev 2024-cü ilin yayında Şuşada təşkil olunan Qlobal Media Forumunda ABŞ-də keçiriləcək prezident seçkilərinə dair suala cavab verərkən Donald Tramp haqqında səsləndirdiyi müsbət fikirlərlə strateji baxışını və Vaşinqtonda baş verən siyasi proseslərə obyektiv yanaşmasını nümayiş etdirmişdir.

Donald Trampın yenidən prezident seçilməsindən sonra dövlət başçıları arasında aparılan telefon danışığı və məktub mübadiləsi münasibətlərin yalnız rəsmi deyil, həm də şəxsi etimada əsaslandığını göstərdi. Prezident İlham Əliyevin ABŞ-yə avqustun 8-də etdiyi tarixi səfəri bu dialoqun yeni müstəviyə keçdiyini və artıq konkret nəticələr verdiyini bütün dünyaya göstərdi. Diqqəti daha çox cəlb edən o oldu ki, liderlərin yüksəksəviyyəli dialoqu ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır, qarşılıqlı anlaşmanın və əməkdaşlığın daha da dərinləşməsinə əlverişli zəmin yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfər etməsi iki ölkə arasındakı münasibətlərin bundan sonra daha da inkişaf edəcəyinə, ən əsası Cənubi Qafqazda uzun zamandan bəri gözlənilən və ehtiyac duyulan sülhün bərqərar olacağına böyük zəmin yaratdı. Bu baxımdan Prezident İlham Əliyevin Vaşinqton səfəri regional sabitlik və qlobal təhlükəsizlik baxımından xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdə yeddi bənddən ibarət Birgə Bəyannamənin imzalanması Azərbaycanla Ermənistan arasında imzalanacaq Sülh Sazişinin mətninin tamamlanması ilə yanaşı, regionda bizim Zəngəzur dəhlizi adlandırdığımız "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) açılması, eləcə də 30 ildir nəticəsiz fəaliyyət göstərən ATƏT-in Minsk qrupunun ləğv edilməsi qərarının qəbul edilməsi baxımından böyük tarixi əhəmiyyətə malikdir.

Səfər çərçivəsində həmçinin Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı. Qarşılıqlı əlaqələrin inkişaf səviyyəsinin daha da yüksəldiyi Azərbaycan-ABŞ münasibətləri regionda sülhün, təhlükəsizliyin, əmin-amanlığın bərqərar olması üçün etibarlı zəmin yaradacaq. İmzalanan tarixi sənədlər Cənubi Qafqaza sülh və əmin-amanlıq gətirəcək, quruculuq işlərinə təkan verəcək. Azərbaycanla Ermənistan arasında ərazi bütövlüyünə, suverenliyə, sərhəd toxunulmazlığına qarşılıqlı hörmət əsasında dayanıqlı sülhün bərqərar olunmasına və etimad mühitinin yaradılmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək.

Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində avqustun 8-də Ağ Evdə keçirdiyi görüşlər Azərbaycanın diplomatiya tarixində dönüş nöqtəsi kimi yadda qalacaq. Bu səfər Azərbaycan-ABŞ münasibətlərini strateji tərəfdaşlıq mərhələsinə yüksəldib və Ermənistan-Azərbaycan sülh gündəliyinin konkret nəticələrə doğru irəliləməsinə ciddi təkan verib. 1997-ci ildə Ümummilli Lider Heydər Əliyevin ABŞ-yə rəsmi səfəri ilə əsası qoyulmuş etibarlı tərəfdaşlıq çərçivəsində ötən onilliklər ərzində xeyli uğurlar əldə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-yə bu tarixi səfəri əvvəlki illərdə qazanılmış uğurların davamıdır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Dünya KİV-i Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin görüşündən yazıb

# Qlobal media Donald Tramp, İlham Əliyev və Nikol Paşinyan arasında görüşü diqqət mərkəzində saxlayır

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı Vaşinqtonda keçirilən görüş, liderlərin imzaladığı Birgə Bəyannamə və onların bəyanatları dünyanın nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, "Reuters" agentliyinin dərc etdiyi geniş məqalədə qeyd olunur ki, Azərbaycan və Ermənistan cümə günü ABŞ Prezidenti Donald Trampla görüş zamanı ABŞ-nin vasitəçiliyi ilə onilliklər davam edən münaqişədən sonra ikitərəfli iqtisadi əlaqələri gücləndirəcək və münasibətlərin tam normallaşmasına doğru hərəkət edəcək sülh sazişinin layihəsini imzalayıblar.

Cənubi Qafqazdakı rəqiblər arasında razılaşmanın Tramp administrasiyası üçün mühüm nailiyyət olduğunu qeyd edən agentlik yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanı Ağ Evdə keçirilən imzalanma mərasimində salamlayan Tramp deyib: "Uzun müddətdir, 35 ildir ki, onlar döyüşüblər, indi də dostdurlar və onlar uzun müddət dost olacaqlar".

"Reuters" qeyd edir ki, razılaşmaya ABŞ-nin Cənubi Qafqazdan keçən strateji tranzit dəhlizinə eksklüziv inkişaf hüquqları daxildir ki, bu da Ağ Evin qənaətinə görə, enerji və digər resursların ixracını asanlaşdıracaq. Tramp bildirib ki, ABŞ enerji, ticarət və texnologiya, o cümlədən süni intellekt sahələrində əməkdaşlığı genişləndirmək üçün hər bir ölkə ilə ayrı-ayrı müqavilələr imzalayıb. O, Azərbaycan ilə ABŞ arasında müdafiə sahəsində əməkdaşlığa qoyulan məhdudiyyətlərin də aradan qaldırıldığını deyib. Hər iki lider Trampı münaqişənin sona çatmasına kömək etdiyinə görə tərifləyib və onu Nobel Sülh Mükafatına namizəd göstərəcəklərini bildirib.

"New York Post" qəzetinin dərc etdiyi "Ermənistan və Azərbaycan çoxdan gözlənilən sülhə imza atdı və Trampın Nobel Sülh mükafatına namizədliyini irəli sürdülər" sərlövhəli məqaləsində qeyd olunur ki, Prezident Tramp regionda yeni dəmir yolu ətrafında tikilən sülh sazişini imzalamaq üçün cümə günü Ağ Evdə çoxdandır ki, münaqişə vəziyyətində olan Ermənistan və Azərbaycanın liderlərini qəbul etdi, Görüş zamanı liderlər ABŞ Prezidentini Nobel Sülh Mükafatına birgə tövsiyə etməyə söz verdilər.

Qəzet qeyd edib: "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlandırılan ABŞ-nin inkişaf etdirdiyi tranzit təşəbbüsü Ermənistanın seyrək məskunlaşmış cənubunu keçməklə yanaşı, Azərbaycanın paytaxtı Bakını Naxçıvan anklavı ilə Türkiyəyə birləşdirəcək. "Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev sənədləri imzaladıqları zaman rahat görünüblər, Tramp keçmiş sovet respublikaları arasında gələcək məsələlərdə vasitəçilik etmək üçün könüllü olduğunu bildirib və hər iki lideri tərifləyib", - deyə məqalədə vurğulanıb.

"Euronews" telekanalının saytında dərc olunan "İnanılmaz sülh: Ermənistan və Azərbaycan onilliklər ərzində davam edən münaqişədən sonra sülhə gəlir" sərlövhəli məqalədə qeyd olunur ki, təxminən dörd onillik davam edən və son vaxtlara qədər sonu görünməyən qanlı münaqişədən sonra bu iki ölkə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişi imzaladılar. İndi Cənubi Qafqazda mərkəzi rol oynamayan Rusiya bu tarixi məqamda nəzərə çarpmır.

Məqalədə deyilir: "Ermənistan və Azərbaycan liderləri Nikol Paşinyan və İlham Əliyev 40 ildir davam edən qanlı Qarabağ münaqişəsindən sonra cümə günü ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqtonda sülh sazişi imzalayıblar. "Biz bu gün Cənubi Qafqazda sülh bərqərar edirik", - deyən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, "bu gün biz böyük bir yeni tarix yazırıq". Ermənistanın Baş naziri Paşinyan əlavə edib ki, bu razılaşma "sülh fəslinin açılmasını" təmsil edir. Tramp isə bildirib: "Ermənistan və Azərbaycan bütün döyüşləri əbədi olaraq bitirmək öhdəliyi götürür".

Yazıda diqqətə çatdırılıb ki, Ermənistan və Azərbaycan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlanan böyük tranzit dəhlizinin yaradılması barədə razılığa gəliblər. O, materik Azərbaycanı və onun müttəfiqi Türkiyə ilə həmsərhəd olan Naxçıvan bölgəsini Ermənistan ərazisi ilə birləşdirəcək. Ağ Evin sözçüsü bildirib ki, yeni tranzit dəhlizi "Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə və xalqına hörmət etməklə iki ölkə arasında maneəsiz əlaqə yaratmağa imkan verəcək". Bakı üçün bu dəhliz Naxçıvanla birbaşa quru əlaqəni təmin edir, Türkiyə ilə əlaqələri gücləndirir və infrastruktur diplomatiyası vasitəsilə müharibədən sonrakı qazancları möhkəmləndirir. Bu, həmçinin Azərbaycanın qlobal miqyasda mühüm nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirir. İrəvan üçün nəqliyyat marşrutu daha geniş ticarət şəbəkələrinə daha da inteqrasiya etmək, onun çökmüş iqtisadiyyatını şaxələndirmək və xarici investisiyaları cəlb etmək imkanı verir. Bu, geosiyasi baxımdan da Ermənistana qonşuları ilə münasibətləri normallaşdırmağa kömək edərdi.

"USA Today" qəzetinin "Tramp Ermənistan və Azərbaycan liderləri ilə sülh yolunda mühüm addım atdı" sərlövhəli məqaləsində bildirilir ki, Prezident Donald Tramp Ermənistan və Azərbaycan liderləri ilə Ağ Evdə iki keçmiş sovet respublikası arasında onilliklərlə davam edən müharibəyə son qoyan və regionda kritik nəqliyyat vasitələrini yenidən açan Birgə Bəyannamə imzalayıb. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan iki dəfə Respublikaçı prezident olan Prezidenti tərifləyiblər və bir məqamda Trampın səylərinə görə Nobel Sülh Mükafatına layiq olduğunu bildiriblər. Onların Birgə Bəyannaməsi iki ölkəni birləşdirən Cənubi Qafqazdan keçən 20 millik multimodal tranzit dəhlizi olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu müəyyən edir. Birləşmiş Ştatlar bununla bağlı müstəsna inkişaf hüquqlarına sahib olacaq.

Avropa Şurasının rəsmi xəbər saytında isə "Ermənistan-Azərbaycan: Möhkəm sülhə zəmin yaradan təməl daşı" sərlövhəli material dərc olunub. Diqqətə çatdırılıb ki, Avropa Şurasının Baş katibi Alen Berse aşağıdakı bəyanatla çıxış edib: "Mən 2001-ci ildən Şuranın hər iki üzvü olan ölkələr arasında uzun müddətdir davam edən münaqişənin yekun həllinə yol açan Ermənistan-Azərbaycan sülh sazişinin Vaşinqtonda bu gün paraflanmasını səmimiyyətlə alqışlayıram. Bu inkişaf Cənubi Qafqazda - bütün xalqların rifahı və təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən regionda davamlı sülh yolunda tarixi bir mərhələdir. Avropa Şurası Ermənistan və Azərbaycan öz ortaq tarixlərinin bu səhifəsini açarkən, onları dəstəkləməyə hazırdır. Mart ayında iki ölkə Sülh və Dövlətlərarası Münasibətlərin qurulması haqqında Saziş layihəsi üzrə danışıqların yekunlaşdığını elan edəndə, bu, məni xüsusilə ruhlandırdı. Sülh səyləri hər iki lider üçün daimi müzakirə mövzusu olaraq qalırdı. Mən bu məsələni ilk dəfə keçən il ÇOP münasibətilə Bakıda Prezident Əliyevə ünvanlamışdım və aprel ayında Antalyada keçirilən ikitərəfli görüşdə də davam etdirdim. Hər iki xalqın liderlərini və vətəndaşlarını ədalətli və davamlı sülh yolunda göstərdikləri siyasi iradə, əzm və cəsarətə görə alqışlayıram. Onilliklər boyu davam edən etimadsızlıq, ərazi mübahisələri və humanitar problemlərin aradan qaldırılması hər tərəfdən çətin, lakin zəruri kompromislər tələb edir. Biz hər iki ölkəni təkcə sülhə deyil, həm də etimadın bərpası istiqamətində əllərindən gələni etməyə çağırırıq".

"Global News" nəşrində dərc olunan "Azərbaycan-Ermənistan sülh sazişi ABŞ-yə nəqliyyat dəhlizi hüququ verir" sərlövhəli məqalədə qeyd olunur ki, Cənubi Qafqazın iki ölkəsinin liderləri Ağ evdə keçirilən sülh sammitində onilliklərlə davam edən münaqişəyə son qoymağa yönəlmiş saziş imzalamazdan əvvəl əl sıxıblar. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanı bir araya gətirən ABŞ Prezidenti Donald Tramp, öz növbəsində, onların əllərini sıxıb.

Məqalədə diqqətə çatdırılır ki, Cənubi Qafqazın iki ölkəsi bir-biri ilə və ABŞ ilə əsas nəqliyyat marşrutlarını açacaq sənədlər imzalayıb. Razılaşmaya "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlandırılacaq böyük tranzit dəhlizi yaradacaq saziş də daxildir. Tramp cümə günü Ağ Evdə deyib ki, marşruta onun adının verilməsi onun üçün böyük şərəfdir, lakin bunu onun özü istəməyib. Administrasiyanın yüksəkrütbəli rəsmisi tədbirdən əvvəl jurnalistlərə zəng edərək deyib ki, bu adı ermənilər təklif ediblər.

"ABC News" telekanalının saytında dərc olunan məqalədə qeyd edilir ki, Ağ Evdə Trampın iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin sülh barədə razılığa gəlməsi tarixi və böyük əhəmiyyət daşıyan hadisədir. ABŞ Prezidenti bildirib ki, liderlər Oval Ofisdə döyüşləri dayandırmaq, ticarəti açmaq və bir-birlərinin suverenliyinə hörmət etmək öhdəliyi götürən sənədlər imzalayıblar. O əlavə edib ki, ABŞ hər iki ölkə ilə enerji, ticarət və texnologiya, o cümlədən süni intellekt sahələrində əməkdaşlığı genişləndirmək üçün ikitərəfli saziş imzalayır.

Məqalədə Trampın sözləri sitat gətirilir: "Bu bəyannamədə mənim adıma tranzit marşrutunun verilməsi şəxsim üçün böyük şərəfdir, Mən bunu istəməmişəm - xüsusi tranzit zonası olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" Ermənistanın suverenliyinə tam hörmətlə yanaşaraq Azərbaycana özünün Naxçıvan ərazisinə tam giriş əldə etməyə imkan verəcək. Beləliklə, onlar həqiqətən birlikdə yaşaya və işləyə biləcəklər".

Yazıda vurğulanıb ki, hər iki lider Prezident Trampın Nobel Sülh Mükafatına layiq olduğuna inandıqlarını bildiriblər.

"The Washington Post" qəzetinin dərc etdiyi məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan rəsmilərinin Ağ Evdə ABŞ-yə strateji tranzit dəhlizinə müstəsna inkişaf hüququ verən sülh sazişi imzalaması mühüm qlobal hadisədir. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlanan pakt Azərbaycanı Ermənistan vasitəsilə Azərbaycanın eksklavı olan Naxçıvanla birləşdirəcək və ABŞ-yə inkişaf hüququ verən sənəd olacaq. Eyni zamanda, Asiyadan Avropaya quru marşrutunu qısaldan dəhlizdə ABŞ həmin torpaqları infrastruktur və idarəetmə üçün konsorsiuma subicarəyə verəcək. Ümid edilir ki, bu tranzit dəhlizi gələcəkdə döyüşləri dayandıracaq və regionda kommunikasiyaları açacaq.

Avstriyanın aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında ABŞ Prezidenti Donald Trampın iştirakı ilə avqustun 8-də Vaşinqtonda keçirilən görüş və əldə edilən razılaşmalara geniş diqqət ayırıb.

AZƏRTAC xəbər verir ki, Avstriya Teleradiosu (ORF), eləcə də "Die Presse", "Heute" "Der Standard" kimi gündəlik qəzetlər Cənubi Qafqazda davamlı sülh üçün mühüm addım atıldığını və ABŞ vasitəçiliyi ilə tərəflərin sülh sazişi istiqamətində sənəd imzaladıqlarından bəhs ediblər. Qeyd olunur ki, Azərbaycanı Naxçıvanla birləşdirəcək və Ermənistan ərazisindən keçəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRİPP) reallaşması da razılaşmaların tərkib hissəsidir.

Məqalələrdə D.Trampın Birgə Bəyannamənin imzalanmasından sonra tərəflərin hərbi əməliyyatlara həmişəlik son qoymalarına dair öhdəlik götürmələri, ticarət, nəqliyyat və diplomatik münasibətləri bərpa etmək, suverenlik və ərazi bütövlüyünü tanıyacaqlarına dair bəyanatına da yer verilib.

"Die Presse" qəzeti isə Donald Trampın növbəti sülh razılaşmasında vasitəçilik edərək, Nobel Sülh Mükafatına doğru daha bir addım atdığını yazıb.

Eyni zamanda məqalələrdə qeyd edilib ki, hər iki dövlət başçısı ABŞ liderinin bu mükafat üçün namizədliyini irəli sürəcəklərini də elan ediblər.

Məqalələrdə həmçinin qeyd edilir ki, Sülh Sammiti çərçivəsində ABŞ ilə hər iki ölkə arasında ayrı-ayrılıqda enerji, ticarət və texnologiyalar üzrə memorandumlar imzalanıb. ABŞ və Azərbaycan arasında hərbi əməkdaşlıqla bağlı məhdudiyyətlər isə ləğv edilib.

Böyük Britaniyanın aparıcı media qurumları Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqtonda keçirilən görüşünü diqqət mərkəzində saxlayıblar.

AZƏRTAC xəbər verir ki, "Sky News", "BBC News" və beynəlxalq xəbər agentlikləri, o cümlədən "Reuters", Ağ Evdə baş tutan danışıqlarda tərəflərin Birgə Bəyannamə imzaladığını, sənədin regionda uzunmüddətli sülhün bərqərar olması üçün əhəmiyyətini vurğulayıblar.

BBC-nin məlumatında bildirilir ki, Prezident İlham Əliyev bu günü tarixi gün adlandırıb, Ermənistanın Baş naziri Nikol Paşinyan isə sazişin yeni bir dövrün başlanğıcı olduğunu bildirib

Xəbərlərdə ABŞ Prezidenti Donald Trampın imzalanma mərasimində hər iki ölkənin hərbi əməliyyatları həmişəlik dayandırmağa, qarşılıqlı suverenliyə və ərazi bütövlüyünə hörmətlə yanaşmağa razılıq verdiyini açıqladığı qeyd olunub.

Almaniyanın bir sıra nüfuzlu media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtonda keçirilən görüşü və əldə olunan mühüm razılaşmaya geniş diqqət yetirib.

AZƏRTAC xəbər verir ki, bu ölkənin "Spiegel", "Zeit", "Handelsblatt", "Berliner Zeitung", "Tagesspiegel" nəşrlərinin, "Deutusche Welle", "Welt", "Tagesschau" televiziyalarının və digər media qurumlarının yayımladığı xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin, ABŞ Prezidenti Donald Trampın və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqtonda keçirilmiş görüşə dair Birgə Bəyannamə imzalamaları xüsusilə diqqət mərkəzində saxlanılıb.

Xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Birgə Bəyannaməni imzalamalarının çoxillik münaqişəyə son qoyulması və regionda əməkdaşlıq üçün yeni imkanlar açdığı qeyd edilib. Bu baxımdan "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) layihəsi ilə Azərbaycanın əsas ərazisindən Naxçıvan Muxtar Respublikasına maneəsiz giriş imkanının yaradılmasının razılaşdırıldığı vurğulanıb. Bununla yanaşı, hər iki ölkənin ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət etdikləri, bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqini təsdiq etdikləri bildirilib.

Həmçinin ABŞ-nin Azərbaycan və Ermənistan ilə ikitərəfli razılaşmalar bağladığı, o cümlədən Azərbaycan ilə Birləşmiş Ştatlar, habelə "Exxon" və SOCAR arasında mühüm sənədlərim imzalandığı qeyd olunub.

Almaniyanın xarici işlər naziri İohan Vadefulun məsələ ilə bağlı bəyanatında Ermənistan və Azərbaycan bu gün tarixlərində yeni bir səhifə açaraq mühüm razılaşmaya nail olmalarını alqışladığı diqqətə çatdırılıb.

Türkiyənin aparıcı xəbər agentlikləri, telekanalları, çap mediası və xəbər saytları Ağ Evdə Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilən görüşün yekunlarını geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin telekanalları və internet resursları gün ərzində dəfələrlə Vaşinqtondan canlı bağlantılar yayımlayaraq, Prezident İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın görüşünü tarixi adlandırıb.

Türkiyə ictimaiyyəti Prezident İlham Əliyevin mövqeyi ilə tanış edilib, ölkəmizin Cənubi Qafqazda davamlı sülh və sabitliyə çağırışları vurğulanıb.

Xəbər materiallarında xüsusi diqqət Azərbaycan ilə Ermənistan arasında münaqişənin həlli ilə bağlı bəyannamənin əhəmiyyətinə verilib. Uzun illər davam edən münaqişənin son qoyulması kontekstində imzalanmış sənədlərin taleyüklü xarakteri vurğulanıb.

Müxtəlif telekanalların efirində analitiklər, ekspertlər və jurnalistlər çıxış edərək Vaşinqtondakı tarixi görüşlə bağlı fikirlərini təqdim ediblər.

Ağ Evdə keçirilən görüşün yekunları həm region, həm də dünya üçün, o cümlədən Türkiyə ilə türk dünyası arasında kommunikasiyaların açılması və əlaqələrin inkişafı kontekstində xüsusilə əhəmiyyətli adlandırılıb.



# Moskvanın çirkin oyunları səngimir

## Dünyada təklənən Rusiyanın strateji müttəfiqi olan Azərbaycana qarşı xoşagəlməz münasibət sərgiləməsi yaxşı heç nə vəd etmir

**Son dövrlərdə Rusiyanın Azərbaycana qarşı apardığı informasiya savaşı artıq total hücum xarakteri alıb. Baş verən hadisələr onu göstərir ki, Rusiyanın Azərbaycana qarşı təhdid və təzyiq siyasəti sistemli xarakter alıb.**



Öncə Rusiyanın müxtəlif şəhərlərində azərbaycanlılara qarşı hücumların başlanması, Yekaterinburqda günahsız soydaşlarımızın öldürülməsi, ardınca Əməkdar mədəniyyət işçisi və Əməkdar jurnalist Mixail Qusmanın TASS-ın baş direktorunun birinci müavini vəzifəsindən azad edilməsi, həmin agentlik tərfindən Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan ifadələrin yayılması, ən son isə Azərbaycan neftinin də ixrac edildiyi Uktraynanın Odessa istiqamətində qaz kəməri sisteminin, SOCAR-ın yanacaqdoldurma məntəqəsinin növbəti dəfə hədəfə alınması və zərbələrə məruz qalması, bundan əvvəl də Azərbaycanın Ukraynadakı səfirliyi istiqamətində raket zərbəsi, daha sonra SOCAR-ın ofisinin yanına raketin düşməsi, təyyarəmizin vurulması faktları Rusiyanın Azərbaycana qarşı açıq düşmənçiliyinin nümunəsidir.

Yekaterinburqda azərbaycanlıların qətlə yetirilməsi Rusiya xüsusi xidmət orqanlarının hansı üsullardan istifadə etdiyini açıq şəkildə göstərmişdi. Bu da onu deməyə əsas verirdi ki, dinc insanlara qarşı terror, onların hüquqlarının pozulması, azadlıqdan məhrumetmə və qətl Rusiya üçün artıq adi hala çevrilib.

Son illər Rusiyanın başqa xalqlarla münasibətdə həyata keçirdiyi ayrı-seçkilik və diskriminasiya siyasəti Yekaterinburq şəhərində yaşayan azərbaycanlılara qarşı etnik zəmində törədilən cinayətlərdə özünü qabarıq göstərdi. Qardaş Ukrayna xalqına qarşı vəhşiliklər törədən Rusiyanın digər ölkələrə və xalqlara qarşı törətdikləri heç də təəccüblü deyil.

Artıq demək olar ki, Rusiyanın Azərbaycana qarşı həyata keçirdiyi arzuolunmaz kampaniya ölkələrarası münasibətlərdəki "qırmızı xətt"i keçib. Siyasi ekspertlərin də gəldikləri qənaət budur ki, Qarabağ Zəfəri regionda yeni siyasi reallıqlar yaradıb və Azərbaycan hərzamankından daha müstəqil siyasət yürüdür. Bu yeni reallıqlar hələ də imperiya düşüncəsi ilə yaşayan Rusiyanı qane etmir. Hesab edilir ki, SSRİ dövründə olduğu kimi bu gün də ətrafındakı müstəqil respublikalarla güc dilində danışmaq olar. Moskva istəyir ki, SSRİ-nin dağılması ilə yaranan müstəqil dövlətlər Rusiya hakimiyyətindən gələn direktivləri idarəetmədə tətbiq etsin. Lakin bu arxaik düşüncəyə söykənən siyasət reallıqla uyğun gəlmir. Rusiya hesab edir ki, müstəqil respublikalar bu təzyiqlərə sakitliklə yanaşıb boyun əyəcəklər.

Rusiya elə bilir ki, "imperiya qalıqları"nı qorumaq vasitəsi olan Müstəqil Dövlətlər Birliyi adı altında keçmiş ittifaqın ölkələrini özünə yenidən tabe edə biləcək. Ancaq son proseslər göstərir ki, MDB də artıq formal bir strukturdan ibarətdir. Moldova bu qurumu tərk etdiyini bəyan edib, Azərbaycan isə uzun müddətdir ki, təşkilatın tədbirlərindən imtina edib. Baş nazirin müavini Yaqub Eyyubovun MDB İqtisadi Şurasının iclasını tam şəkildə iqnor etməsi artıq Bakının Moskvaya "mən sənin hegemoniyanı tanımıram" mesajıdır. Bu da bir daha onu göstərir ki, postsovet məkanı da Rusiyadan üz döndərir. Rusiya hər zaman postsovet məkanına "arxa bağçası" olaraq baxıb və bu məkanda yaşanan geosiyasi rekonstruksiyaya qarşı sərt mövqe sərgiləyib.

Moskvanın Bakıya qarşı atdığı addımlar onu deməyə əsas verir ki, Rusiya üçün "bölgədə söz sahibi olmaq" anlayışı yalnız zor gücünə hökmranlıq etməkdən ibarətdir. Bu da qonşuluq münasibətinə uyğun gəlmir. Hazırda dünyada təklənən Rusiyanın strateji müttəfiqinə qarşı belə xoşagəlməz münasibət sərgiləməsi yaxşı heç nə vəd etmir.

Artıq hər kəsə aydındır ki, Rusiyanın bu təhdid siyasətinin arxasında nə dayanır. Azərbaycanın müstəqil siyasət yürütməsini həzm edə bilməyən rəsmi Moskva buna mane olmağa çalışır. Rusiya görür ki, Azərbaycan son illərdə Avrasiya arealında yeni reallıqlar yaratmaqla bu coğrafiyanın açar ölkələrindən birinə çevrilib. Bunun nəticəsidir ki, Qərbdən Şərqə, Şimaldan Cənuba gedən bağlantı xətləri əsasən Azərbaycan üzərindən keçməkdədir. Bu da təbii ki, Rusiyanın Cənubi Qafqazda və Mərkəzi Asiyada təsir gücünü zəiflətməkdədir. İmperiya maraqlarından çıxış edən Moskva Cənubi Qafqaz ölkələrinə təzyiq etməklə bölgədə təsir imkanlarını saxlamağa çalışır. Təzyiqləri həm də bölgədə reallaşan Orta dəhlizə, xüsusən də Zəngəzur dəhlizində maraqları təmin etmək uğrunda gedən geosiyasi savaşın tərkibi kimi nəzərdən keçirilməlidir. Çünki Rusiya tərəfi Zəngəzur dəhlizinin öz nəzarəti altında reallaşmasında maraqlıdır.

Göründüyü kimi Rusiyanın Azərbaycana sistemli xarakter alan təzyiqlərinin arxasında imperiya maraqlarından doğan siyasət dayanır. Amma Rusiya artıq dərk etməlidir ki, imperiya siyasəti ilə ölkələrə, xüsusən də Azərbaycana təzyiq etmək mənasızdır. Mövcud şəraitdə beynəlxalq aləmin sanksiyası ilə üzləşən Rusiya anlamalıdır ki, bu, ona yaxşı heç nə vəd etmir. Əksinə, Moskva Bakı ilə daha sıx münasibətlər qurmaqla üzləşdiyi böhranı az da olsa yumşalda və vəziyyətdən çıxa bilər. Bu ölkə beynəlxalq aləmin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara qoşulmayan Azərbaycandan faydalana bilər.

Ancaq Ukraynanın Odessa vilayətində yerləşən və Azərbaycan qazının da keçdiyi qaz infrastrukturunun və SOCAR-a məxsus yanacaqdoldurma məntəqəsinin ardıcıl şəkildə Rusiya tərəfindən hədəfə alınması artıq onu göstərir ki, bu, Rusiyanın konkret olaraq Azərbaycanın enerji siyasətinə, Avropaya qaz nəqli siyasətinə, ölkəmizin müstəqil qərarlarına qarşı təcavüz aktıdır.

Avqustun 8-nə keçən gecə Rusiya öz dronları ilə Azərbaycanın Odessa vilayətində yerləşən SOCAR-ın neft bazasına hücum edib. Bu, yanğına səbəb olub və dizel yanacağı boru kəmərinə ziyan vurub. Bu barədə "RBC-Ukrayna"ya hüquq-mühafizə orqanlarındakı mənbələr məlumat verib. Mənbələrin verdiyi məlumata görə, yanğının qarşısı qısa zamanda alınıb. Düşmənin zərbəsi nəticəsində dörd əməkdaş ağır yaralanıb və onlara təcili tibbi yardım göstərilib.

Bu hadisə təkcə iqtisadi obyektə zərbə vurmaq deyil, həm də Moskvanın imperialist ambisiyalarının davamlılığının göstəricisidir. Rusiya artıq beynəlxalq münasibətlərdə vasitəçi və ya arbitr imicindən uzaqlaşaraq, daha çox təzyiq və zor vasitəsilə maraqlarını reallaşdırmağa çalışır.

SOCAR kimi strateji əhəmiyyətli bir quruma hücum etmək, Moskvanın Azərbaycanla münasibətlərə sadiq qalmadığını və "dostluq" ritorikasının arxasında başqa niyyətlərin gizləndiyini ortaya qoyur.

Bu hadisənin məhz Vaşinqtonda keçirilən Bakı-İrəvan danışıqları fonunda baş verməsi isə Kremlin bu proseslərdən kənarda qalmasına cavab xarakteri daşıya bilər. Belə addımlar Rusiyanın regionda sabitlik deyil, nəzarət axtarışında olduğunu sübut edir.

Azərbaycan tərəfindən Rusiya ilə gərginliyin azaldılması və münasibətlərin yenidən normallaşdırılması istiqamətində addımların atılmasına baxmayaraq, Rusiya Federasiyasının anti-Azərbaycan qüvvələri hərəkətlərindən əl çəkmir və bu siyasəti gündən-günə dərinləşdirirlər. Bu yanaşma iki ölkə arasında sağalmaz çat yarada bilər. Azərbaycan dövləti ölkəmizə qarşı edilmiş bütün tarixi ədalətsizliklərə baxmayaraq, etibarlı qonşu statusunu qoruyub saxlamağa çalışır. Rusiyadakı qüvvələr də bilməlidir ki, Azərbaycan müstəqil ölkədir və münasibətlərdə gərginliyin dərinləşməsinə aparan hərəkətləri davam etdirməklə ölkəmizi özündən uzaqlaşdırırlar.

Avqustun 9-da ABŞ-də baş verən proseslər, Donald Tramp tərəfindən İlham Əliyevin bu ölkəyə dəvət edilməsi, iki ölkə arasında imzalanan sazişlər, əldə olunan razılaşmalar, Ermənistanla sülh müqaviləsi üzrə sənədlərin imzalanması paraflanması Zəngəzur dəhlizinin açılması ilə bağlı razılığa gəlinməsi tarixi hadisə oldu.

Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən mühüm görüş iki dövlət arasında uzunmüddətli hərbi münaqişəyə son qoyub, diplomatik münasibətlərin qurulmasına və davamlı sülhə əsaslanan əməkdaşlığın inkişafına yol açıb.

Güman etmək olar ki, bütün bunlar Rusiyanı daha da qıcıqlandıracaq və rəsmi Moskva Azərbaycana qarşı yeni çirkin planlar hazırlayacaq. Lakin Cənubi Qafqazın qüdrətli dövləti kimi beynəlxalq nüfuzu gündən-günə yüksələn Azərbaycanla artıq təzyiq, təhdid dili ilə danışmaq qeyri-mümkündür. Ölkəmizin uğurlarını həzm edə bilməyən şimal qonşumuz yaxşı olardı ki, yırtıcı siyasətindən əl çəkib, Azərbaycanın haqlı tələblərini yerinə yetirsin.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***

# Türkiyədə bizi qəhrəman kimi qarşıladılar

## Qazi jurnalistlərimizin İstanbul səfəri maraqlı görüşlər, xoş xatirələrlə yadda qaldı



### DHA-da və "Türkiyə Qəzetçilər Cəmiyyəti"ndə yaddaqalan görüş

Səfərin ikinci günü də Türkiyənin məşhur media qurumlarında görüşlər keçirildi. Öncə mediamızın döyüşən simaları Türkiyənin məşhur Demirören Xəbər Agentliyini (DHA) ziyarət etdilər.

Qonaqları qarşılayan qurumun direktoru Cemal Coşkun DHA-nın gördüyü işlər, gələcək prioritetləri, sosial mediadakı fəaliyyəti haqda geniş məlumatlar verdi. İyul ayında Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumunun da iştirakçısı olduğunu diqqətə çatdıran Cemal Coşkun Türkiyə və Azərbaycan mətbuatının fəaliyyətini yüksək qiymətləndirdi. Eyni zamanda qeyd etdi ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev hər zaman olduğu kimi, bu forumda da yüksək diplomatik məharəti ilə verilən suallara ətraflı cavablar verərək əsl həqiqətləri dünyaya çatdırdı.

Bu görüşdə də maraqlı anlar yaşandı. Bəlli oldu ki, sən demə, direktor Cemal Coşkun bu görüşü Azərbaycandan gəlmiş media nümayəndələri ilə görüş kimi qəbul edibmiş. 23 il xüsusi təyinatlı qüvvələrdə xidmət etmiş, Vətən müharibəsində yaralandıqdan sonra tərxis olunmuş Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin rəhbəri, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Bəhruz Məmmədzadənin heyətlə bağlı təqdimatından sonra DHA-nın direktoruna bəlli oldu ki, görüş iştirakçıları savaşmış jurnalistlərdir. Bundan sonra bizlərlə lap səmimi olan Cemal Coşkun hansı istiqamətlərdə döyüş tapşırıqları yerinə yetirdiyimizlə maraqlandı, Azərbaycanın qazandığı haqq savaşı ilə bağlı çox dəyərli və maraqlı fikirlər səsləndirdi.

Görüşün sonunda qazi jurnalistlər adından agentliyə hədiyyələr təqdim etdik, eyni zamanda xatirə fotosu çəkdirdik.

DHA-nın ardınca heyətimizin növbəti ünvanı "Türkiyə Qəzetçilər Cəmiyyəti" oldu. Cəmiyyətin baş katibi Sibel Güneş Türkiyədə media mənsublarının fəaliyyəti, o cümlədən lazım gəldikdə onların hüquqlarının müdafiəsi haqda görülən işlərdən bəhs etdi.

Bizlərlə bu təması tarixi görüş adlandıran Sibel Güneş son illər dünyada, xüsusən də Yaxın Şərqdə, Qəzzada baş verən hərbi toqquşmalarda jurnalistlərin də həlak olduqlarını təəssüflə qeyd etdi.

Görüşün sonunda Sibel Güneşə də Azərbaycandan gətirilən hədiyyələr təqdim olundu və xatirə şəkli çəkdirildi.

Qazi jurnalistlərin həmin gün son dayanacağı isə Türkiyənin "Küresel Gazeteciler Konseyi" oldu. Görüşdə KGC-nin Xarici mətbuat üzrə məclis rəhbəri Ahmet Coşkunaydın, o cümlədən qurumun idarə heyətinin üzvü, Bakı Parlament Jurnalistləri Birliyinin rəhbəri Elşad Eyvazlı da iştirak edirdi.

Görüşdə müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparıldı, əməkdaşlıq məsələləri müzakirə edildi. Ahmet Coşkunaydın təşkilatın fəaliyyəti haqqında qazi jurnalistlərimizə ətraflı məlumat verdi.

Sonda Azərbaycandan gətirilən simvolik hədiyyələr konseyə təqdim edildi və xatirə şəkli çəkdirildi.

*(əvvəli qəzetin 9 avqust nömrəsində)*

### Keçmiş həmkar, bugünkü konsulla səmimi söhbət

Səfərin üçüncü günü qazi jurnalistlər Azərbaycan Respublikasının İstanbuldakı Baş Konsulluğunda oldular. Üçrəngli bayrağımızın dalğalandığı konsulluq binasında bizi çox səmimi qarşılayan baş konsul Nərminə Mustafayeva hər birimizin çalışdığımız mətbu orqan və keçdiyimiz döyüş yolu ilə maraqlandı.

Biz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı qüdrətli ordumuzun hücum savaşından və şanlı Zəfərindən danışdıqca baş konsulun sevincindən gözləri dolurdu...

Sonra Nərminə Mustafayeva 44 günlük Vətən müharibəsi zamanı xalqın birliyindən və əldə olunan tarixi qələbənin əhəmiyyətindən danışdı. Bildirdi ki, bu Zəfər təkcə torpaqların azadlığı deyil, eyni zamanda Azərbaycanın dünyada güclü dövlət olduğunu bir daha sübut edib. Prezident İlham Əliyev həm savaş meydanında hərbi gücümüzlə düşmənin başını əzib, həm də yüksək diplomatik məharəti ilə Azərbaycana olan basqıları, təhdidləri zərərsizləşdirib. Bu Zəfərlə dünya Azərbaycanın hərbi və siyasi gücünə bir daha şahidlik edib.

Baş Konsul Nərminə Mustafayeva görüş zamanı müharibədə döyüşçü kimi iştirak edən media nümayəndələrinə minnətdarlıq edərək, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfalar dilədi.

Qeyd edək ki, Nərminə Mustafayeva 1990-cı illərin sonu - 2000-ci illərin əvvəlində jurnalist kimi fəaliyyət göstərib. Ölkəmizdəki televiziyalardan birində müxbir kimi çalışıb. 2020-ci ilin iyul ayında Prezident İlham Əliyevin imzaladığı sərəncam ilə Nərminə Mustafayeva Azərbaycanın İstanbulda baş konsulu təyin edilib.

Artıq 5 ildir ki, baş konsul kimi fəaliyyət göstərən Nərminə Mustafayeva ilə görüş qazi jurnalistlərimizdə xoş təəssürat yaratdı.

Görüşün sonunda iştirakçılara xatirə hədiyyələri təqdim olundu, başımız üstündə məğrur-məğrur dalğalanan üçrəngli bayrağımızın altında şəkil çəkdirdik.

### "Bir bədəndə iki can - Türkiyə-Azərbaycan!", ruhu bizə doğma olan məkan

Qazi jurnalistlərimizin Türkiyə səfərinin son günündə baş vurduğumuz son məkan Türkiyə Qazilər və Şəhid Ailələri Vəqfinin İstanbul şöbəsi oldu.

Bizi vəqfin binası önündə qarşılayan qurumun idarə heyətinin üzvü, İstanbul şöbəsinin sədri qazi Ferhat Koçakın fiziki görkəmi, bizlərə doğma qardaş kimi isti münasibət göstərməsi onun əsl qəhrəman olduğunun əyani təzahürü idi.

Görüşüb salamlaşdıqdan sonra Vəqfin binasına daxil olarkən otaqda diqqətimizi çəkən ilk məqam divarlara vurulan şəhid şəkilləri, vətən uğrunda canından keçmiş qəhrəmanların ay-ulduzlu müqəddəs bayrağa bükülmüş tabutunu qucaqlayıb ağlayan anaların, qız-gəlinlərin ürəkdağlayan fotoları hər kəsdə duyğusal anlar yaşatdı.

Əvvəlcə Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin sədri Bəhruz Məmmədzadə bir gün öncə şəhidlik zirvəsinə ucalan Türkiyə ordusu mənsubu - baş çavuş Servet Ökkeş Çakırın ailəsinə və yaxınlarına başsağlığı verdi. Onunla yanaşı, vətən uğrunda canlarından keçən bütün şəhidlərin əziz xatirəsi yad olundu.

Görüşdə iki ölkə arasında münasibətlərdən də söz açıldı, Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduğu bildirildi.

"Türkiyənin sevinci sevincimiz, kədəri kədərimizdir. Biz hər zaman, hər məsələdə qardaşlarımızın yanındayıq. Bugünkü görüşün bizim üçün çox böyük mənəvi yükü var", - deyə Bəhruz Məmmədzadə qeyd etdi.

Türkiyə Qazilər və Şəhid ailələri Vəqfinin İdarə Heyətinin üzvü, İstanbul şöbəsinin sədri Ferhat Koçak da öz növbəsində ölkələrimiz arasındakı münasibətləri, əlaqələri yüksək qiymətləndirib, eyni zamanda qazi jurnalistlərlə görüşdən məmnunluğunu ifadə etdi: "Azərbaycan hər zaman yanımızda olub və olacaq. Biz Azərbaycanı ikinci vətənimiz sayırıq. Türkiyə olaraq biz də həmişə qardaşlarımızın yanındayıq. Vətən uğrunda döyüşən qazi jurnalistlərlə görüşdən çox məmnunuq. Bu cür görüşlərin tez-tez olmasını arzu edirik".

Daha sonra Türkiyə Qazilər və Şəhid ailələri Vəqfi ilə Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyi arasında münasibətlərin daha da dərinləşməsi, gələcəkdə bundan da geniş heyətlə görüşlərin olması perspektivi müzakirə edildi.

Görüşdə çıxış edən qazi jurnalistlərimiz keçdikləri döyüş yolundan, eləcə də Türkiyə-Azərbaycan qardaşlığından söz açdılar. Qeyd edildi ki, Azərbaycanla Türkiyəni bir-birindən ayırmaq və ya ayrı təsəvvür etmək mümkün deyildir. Bu ona bənzəyər ki, əkiz doğulmuş iki qardaşı bir-birindən ayrı tutursan. Tarix də göstərdi ki, bir damarın qanı iki yerə bölünə bilmir.

Ulu Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" canyanğısı və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" təəssübkeşliyi varlığımızın, birliyimizin əyani sübutudur.

Görüşün sonunda isə tərəflər bir-birinə hədiyyələr təqdim etdilər və xatirə fotosu çəkildi.

Bununla da qazi jurnalistlərimizin İstanbul səfərində nəzərdə tutulmuş rəsmi görüşləri yekunlaşdı.

Səfərin son günündə Türkiyə Media İş Sendikasının təşkilatçılığı ilə qazi jurnalistlərimiz "Kanal 3 TV"nin canlı yayımının qonağı oldular. Çıxış edən qazi jurnalistlərimiz qələmi süngü ilə əvəzləməyin səbəbi, keçdikləri döyüş yolları, savaşdan sonrakı dönəmdə media təmsilçisi kimi necə fəaliyyət göstərdikləri ilə bağlı suallara ətraflı cavab verdilər.

Beləliklə, qazi jurnalistlərimizin 27 iyul - 1 avqust tarixlərində İstanbul səfəri başa çatdı. Hava limanına yola düşmədən öncə bizi bu dövrdə qonaq edən, keçirdiyimiz görüşlərdə hər zaman yanımızda olan Media İş Sendikasının rəhbərliyi tərəfindən qazilərimizə xatirə hədiyyələri təqdim edildi. Genel Başkan Yardımcıları Cemal Sonsay və Dilek Atçekenə təşəkkürümüzü çatdırıb bir daha görüşmək diləyi ilə sağollaşdıq.

### Qardaşlığın, diqqətin, qayğının və mənəvi birliyin təntənəsi

Bu səfər qazi jurnalistlərimizin hər birinin həyatında xüsisi iz buraxdı. Özəl, maraqlı və yaddaşlardan silinməyəcək qədər unudulmaz bir səfər, səmimi görüşlər və ruhumuzu isidən gəzintilər tarixi anlara çevrildi.

Bu, sadəcə bir görüş deyildi, qardaşlığın, diqqətin, qayğının və mənəvi birliyin təntənəsi idi.

Bu səfər, qardaş ölkədə geniş əks-səda doğurdu. 15 ölkədə yayımlanan Anadolu Agentliyinin səfərlə bağlı xəbər paylaşması bunu yaradan reallıq oldu.

Qardaş ölkədə bizə doğmalıq, isti münasibət və sonsuz diqqət göstərildi, bir an belə özümüzü yad ölkədə hiss etmədik. Səmimiyyət, mənəvi dəstək, hər zaman xüsusi diqqət bu səfərə daha yüksək dəyər qatdı...

Bu yolçuluq təkcə fiziki səfər deyildi, könüldən-könülə uzanan bir körpü, ruhumuzun birliyini təsdiqləyən bir yol idi...

Hər addımda bir isti baxış, səmimi söz, qürur dolu an vardı və bu yolda qazi həmkarlarımızla birlikdə olmaq bir şərəf idi...

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

*Bakı-İstanbul-Bakı*

# 2 saylı Mediasiya Təşkilatının tanıtım tədbiri keçirilmişdir

Azərbaycan Respublikası Mediasiya Şurasının müvafiq razılığı ilə Abşeron 2 saylı Mediasiya Təşkilatının Xırdalan şəhərində tanıtım tədbiri keçirilmişdir. Tədbirdə hüquq ictimaiyyətinin tanınmış nümayəndələri - Mediasiya Şurasının Fəxri mediatoru Sevda Məhərrəmova, Mediasiya Şurasının İntizam Komissiyasının sədr müavini Orxan Mahmudov, komissiyanın üzvü Esmira Rzayeva, Abşeron Vəkil Bürosunun müdiri Muğan Əliyev, Xırdalan Vəkil Bürosunun müdir müavini Toğrul Vəliyev, Bakı 20 saylı Mediasiya Təşkilatının rəhbəri Nicat İsmayılov, Bakı 6 saylı Mediasiya Təşkilatının mediatorları, "Azərhüquq Mərkəzi" MMC-nin direktoru Tağı Hüseynov, Abşeron rayonu 2 saylı Notariat ofisinin əməkdaşları və digər qonaqlar iştirak etmişlər.

Tədbiri açılış nitqi ilə açan Abşeron 2 saylı Mediasiya Təşkilatının rəhbəri Rüstəm Məhərrəmov iştirakçıları salamlamış, təşkilatın təsis olunmasında əməyi keçən hər kəsə, xüsusilə Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilova dərin minnətdarlığını ifadə etmişdir. Çıxışında həmçinin o, ölkə başçısının ABŞ-yə səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması ilə bağlı 3 ölkə liderinin iştirakı ilə birgə sənədlərin imzalanmasını tarixi hadisə kimi qiymətləndirmiş və bu münasibətlə tədbir iştirakçılarını təbrik etmişdir.



Bundan əlavə, görüş zamanı Abşeron 2 saylı Mediasiya Təşkilatının bugünkü və gələcək fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verilmiş, qarşılıqlı fikir mübadiləsi aparılmış, təşkilatın məqsəd və fəaliyyət istiqamətləri təqdim olunmuşdur.

Sonda tədbir iştirakçılarına hədiyyələr təqdim edilmiş, xatirə fotoları çəkilmişdir.

# İqtisadiyyat və sosial həyat

## Qarabağ Universitetinin tələbələri vergi orqanlarında könüllülük fəaliyyətinə cəlb olunublar

**Qarabağ Universitetinin 22 tələbəsi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin vergiödəyicilərinə xidmət mərkəzlərində könüllülük fəaliyyətinə cəlb olunub.**

Bu barədə Dövlət Vergi Xidməti məlumat yayıb. Məlumatda bildirilib ki, Dövlət Vergi Xidməti ilə Qarabağ Universiteti arasında imzalanmış əməkdaşlıq haqqında memorandum çərçivəsində həyata keçirilən və 2 ay davam edəcək fəaliyyətin əsas məqsədi ikitərəfli faydalı əməkdaşlığın genişləndirilməsi, gənclərin vergi sahəsində bilik və bacarıqlarının artırılmasından ibarətdir. Tələbələr üçün Dövlət Vergi Xidmətinin fəaliyyətinin əsasları, hüquq və vəzifələri, dövlət vergi orqanları əməkdaşlarının etik davranış məsələləri, məlumat təhlükəsizliyi, könüllülük fəaliyyətinin məqsədi və motivasiya mövzuları üzrə təlimlər təşkil edilir.



Qarabağ Universiteti ilə əməkdaşlıq çərçivəsində bu prosesin gələcəkdə də davam etdirilməsi, tələbələrin yaradılmış imkanlardan maksimum faydalanması üçün vergi orqanlarında hər bir şəraitin yaradılması nəzərdə tutulur.

## Ölkədaxili telekommunikasiya kanallarından istifadə ilə bağlı aylıq tariflər təsdiqlənib

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası "Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarına qoşulma və istifadə ilə bağlı tariflərin tənzimlənməsi haqqında" qərar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qərara əsasən, ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarına qoşulma ilə bağlı tarif telekommunikasiya kanallarının tutumdan asılı olmayaraq ƏDV daxil olmaqla 50,0 manat təsdiq olunub.

"Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarından istifadə ilə bağlı aylıq tariflər" də bu qərarda təsdiq edilib.

## Sənaye zonaları üzrə son rəqəmlər açıqlanıb

### 17,2 milyard manatlıq istehsal, 5,5 milyard manatlıq ixrac

**Dünya iqtisadiyyatında baş verən böhranlı proseslər və pandemiya dövründə yaranan çətinliklər bir daha sübut etdi ki, sənayenin inkişafı ölkənin iqtisadi və maliyyə risklərindən qorunmasında önəmli rol oynayır. Başqa sözlə, sənayesi inkişaf edən ölkələr böhran vəziyyətindən az ziyanla çıxmaqla yanaşı, qısa müddətdə iqtisadi inkişafı bərpa etmək gücündə də olur.**



Ölkəmizdə sənaye zonalarının inkişafına hər cür dəstək verilir. İstər yerli, istərsə də xarici investorlar Azərbaycan hökuməti tərəfindən yaradılan geniş imkan və şəraitdən faydalanaraq həm öz bizneslərini inkişaf etdirir, həm də ölkəmizdə qeyri-neft sənayesinə sanballı töhfələr verirlər.

İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) verilən məlumata görə, indiyə qədər sənaye məhəllələri və parklarında fəaliyyət göstərən sahibkarlara ümumilikdə 1746, o cümlədən bu ilin 6 ayında 144 təsdiqedici sənəd verilib. Xatırladaq ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki sənaye parklarında tətbiq olunmuş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər bu günə qədər 520 milyon, cari ilin yanvar-iyun aylarında isə 14 milyon manatdan çox vəsaitə qənaət ediblər.

Verilən dövlət dəstəyi sayəsində 2013-cü ildən indiyə qədər sənaye zonaları üzrə ümumi investisiya həcmi 8,03 milyard manat olan 160 sahibkarlıq subyektinə rezidentlik, 12 sahibkara qeyri-rezidentlik statusu verilib. Sahibkarlar sənaye zonalarına 6,88 milyard manatdan çox investisiya yatırıb və 10 900 daimi iş yeri yaradıblar.

İqtisadi zonalarda istehsal olunan məhsulların ixrac coğrafiyası da genişlənir. Sənaye zonalarında istehsal edilən polimerlər, karbamid, polad və polietilen borular, tütün məmulatları, divar kağızları, müxtəlif təyinatlı ayaqqabılar, sürtkü yağları, ferroərintilər, müxtəlif növdə kabellər, şüşə lövhələr, tikinti kimyəviləri, ipliklər, elektrod və s. məhsullar indiyəcən ABŞ, Kanada, Çin, Hindistan, İngiltərə, Almaniya, BƏƏ, Yunanıstan, İsrail, Avstriya, Norveç, Çexiya, İspaniya, Belçika daxil olmaqla ümumilikdə 70-dən artıq ölkəyə "Made in Azerbaijan" brendi ilə ixrac edilib.

İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumatda həmçinin bildirilir ki, 2015-ci ildən cari il iyulun 1-nə qədər sənaye zonalarında 17,2 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 5,53 milyard manatlığı ixrac olunub. Bu ilin birinci yarısında isə istehsal olunan 1,83 milyard manatlıq məhsulun 583,5 milyon manatlığı xarici bazarda satılıb. Həmin dövrdə ötən ilin eyni vaxtı ilə müqayisədə məhsul satışının həcmi 28,7 faiz yüksəlib, ixracın səviyyəsi 22,4 faiz artıb.

Sumqayıt Kimya Sənaye Parkı (SKSP) İqtisadi Zonaların İnkişafı Agentliyində flaqman sayılır. Azərbaycanda yaradılan ilk sənaye parkı olan SKSP qoyulan investisiyanın həcminə və yüksək istehsal səviyyəsinə görə digərlərindən üstündür. İndiyədək qoyulan investisiyanın həcminə görə SKSP Cənubi Qafqazın ən böyük sənaye parkıdır. Burada investisiya portfeli 6 milyard manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, onlardan da artıq 28-i fəaliyyət göstərir.

Bu günəcən rezidentlər parka 5,6 milyard manat investisiya yatırıblar və bu hesaba 6300-dən artıq daimi iş yeri yaradılıb. Parkda 14,4 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 5,2 milyard manatlığı ixrac edilib. Parkda təkcə cari ilin birinci yarısında 1,1 milyard manatlıq məhsul satılıb və onun 545 milyon manatı dünya bazarına çıxarılıb. Ötən ilin eyni dövrü ilə müqayisədə ixracın səviyyəsi 20 faizə yaxın artıb.

Parkda istehsal edilən tikinti kimyəvilərinin, polad və polimer boruların, sürtkü yağlarının, polimerlərin, karbamidin, müxtəlif çeşiddə kabellərin, şüşə lövhələrin, keramik plitələrin və s. məhsulların ixracı istiqamətində uğurlar əldə edilib. Əsasən bu növ məhsullar dünyanın 70-dən artıq ölkəsinə "Made in Azerbaijan" brendi altında ixrac olunub.

Parkın rezidentlərinə indiyə qədər 912 təsdiqedici sənəd verilib. Bunun nəticəsində rezidentlər texnika və texnoloji avadanlıqların idxalı zamanı 400 milyon manatdan çox vəsaitə qənaət ediblər.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## İlin sonuna kimi Gəncədə innovasiya mərkəzi açılacaq

**Bunu İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri Fərid Osmanov "Yaşıl və rəqəmsal İpək yolu" adlı beynəlxalq akselerasiya proqramının açılışı mərasimindəki çıxışında bildirib.**

"Bizim hədəfimiz təkcə Bakıda yox, həm də bölgələrdə maddi və mənəvi planda, o cümlədən belə akselerasiya proqramlarının vasitəsilə startap-ekosistemlərinin yaradılmasına dəstək olmaqdır", - deyə o bildirib.

F.Osmanov qeyd edib ki, qısa zamanda bu cür klaster Naxçıvan Dövlət Universitetində də yaradılacaq.

Xəbəri "Trend" yayıb.

## 7 ayda DSMF-nin xərcləri 4,4 milyard manata yaxın olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 7 ayında proqnozla müqayisədə 7 faiz və ya 289 milyon manat çox olmaqla 4 milyard 665 milyon manat təşkil edib.**



Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 8 faiz və ya 281 milyon manat artaraq 3 milyard 712 milyon manat olub.

Yanvar-iyul aylarında DSMF-nin xərcləri 4 milyard 380 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9 faiz və ya 375 milyon manat çoxdur.

## ING 2028-ci ilə qədər Azərbaycanda inflyasiya səviyyəsi üzrə proqnozlarını ictimailəşdirib

**Niderlandın ING bank qrupu Azərbaycanda 2028-ci ilə qədər inflyasiya səviyyəsi üzrə yenilənmiş proqnozunu açıqlayıb.**

"Trend" xəbər verir ki, analitiklərin hesablamalarına görə, 2025-ci ildə illik inflyasiya səviyyəsi 5,4 faiz təşkil edəcək, 2026-cı ildə 5,3 faiz olacaq, 2027-ci ildə isə onun kəskin artımı - 8,9 faizə qədər yüksələcəyi gözlənilir.

Rüblük kəsimdə 2025-ci il üzrə aşağıdakı göstəricilər proqnozlaşdırılır: üçüncü rübdə inflyasiya 4,8, dördüncü rübdə isə 5,1 faiz olacaq.

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına görə, 2025-ci ilin ilk altı ayının yekununda illik inflyasiya 6 faiz təşkil edib. Bu göstərici AMB-nin proqnozlarına uyğundur. Belə ki, ilin ilk altı ayı ərzində baza inflyasiyası 4,8 faiz təşkil edib.

Nominallı effektiv məzənnənin 1,9 faiz möhkəmlənməsi inflyasiyaya məhdudlaşdırıcı təsir göstərərək, onu 0,52 faiz bəndi azaltdı. Gözlənilir ki, 2025-ci ildə illik inflyasiya 5,7, 2026-cı ildə isə 5,3 faiz təşkil edəcək.

## "4Sİ Akademiyası" çərçivəsində "Milli Proqram"ın növbəti mərhələsinə start verilib

**İqtisadiyyat Nazirliyinin tabeliyindəki Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə həyata keçirilən "4Sİ Akademiyası" çərçivəsində "Milli Proqram"ın 4-cü mərhələsinə start verilib.**

Proqram çərçivəsində növbəti 7500 vətəndaş "Coursera" onlayn təhsil platformasındakı təlimlərdən 6 həftə ərzində ödənişsiz istifadə imkanı qazanıb.

Nazirlikdən verilən məlumata görə, aprel ayından başlayan "Milli Proqram"da ümumilikdə 22 min 500 nəfər onlayn təhsil platformasından ödənişsiz yararlanıb. Vətəndaşlar 120 minə yaxın təlimə qoşulub. Təlimləri uğurla başa çatdıranlar 41 mindən çox beynəlxalq sertifikat əldə ediblər. İstifadəçilər daha çox süni intellekt və data elmi sahəsində təlimlərə üstünlük veriblər. Bununla yanaşı, layihələrin idarə olunması, yumşaq bacarıqlar, kibertəhlükəsizlik, eləcə də biznes sahəsi üzrə təlimlərə böyük maraq qeydə alınıb.




"Milli Proqram" çərçivəsində istifadəçilər ən çox 10 təlimə müraciət ediblər. Bunlar "Süni intellekt hamı üçün", "Layihələrin idarə olunmasının əsasları"," Süni intellektə giriş", "Data elminin əsasları: Data hər yerdə", "Liderlik bacarıqları", "Süni intellekt, biznes və gələcəyin peşələri", "Data elmi nədir?", "İngilis dilində peşəkar e-mail yazışmaları" və "Layihələrin idarə olunmasına giriş" adlı təlimlərdir. Avqust ayından etibarən "Milli Proqram" çərçivəsində "Coursera" platformasında daha 5 təlim Azərbaycan dilinə dublyaj olunub. Beləliklə, hazırda 15 ən çox tələb olunan təlim Azərbaycan dilində təqdim edilir. "Milli Proqram" çərçivəsində daha bir yenilik yerli təhsil müəssisələrinin və özəl şirkətlərin "Course Builder" aləti vasitəsilə öz təlim və kurslarını "Coursera" platformasına inteqrasiya etməyə başlamasıdır.

Qeyd edək ki, "Milli Proqram" istifadəçiləri üçün "Coursera" platformasında Oksford, Stenford, Yel, Dyuk, London, Edinburq, Mançestr, Miçiqan, Con Hopkins, İllinoys, Florida, Sidney, eləcə də "Microsoft", "Google", "Meta", IBM, "AWS", "Oracle", "Gitlab", "Intel", SAP, "Salesforce" kimi dünyanın 350-yə yaxın ən nüfuzlu universitet və aparıcı texnologiya şirkətinin 12 mindən çox sahəvi kurs və təlimi əlçatandır.

"Milli Proqram"ın əsas məqsədi ölkəmizdə rəqəmsal transformasiyanı sürətləndirmək, vətəndaşların Dördüncü Sənaye İnqilabı texnologiyaları üzrə bilik və bacarıqlarını artırmaq və əmək bazarında rəqabətqabiliyyətli kadrların hazırlanmasına dəstək verməkdir. Proqram çərçivəsində bir il ərzində on minlərlə istifadəçinin dünyanın ən böyük onlayn tədris platforması olan "Coursera"da təlimlərdən faydalanması nəzərdə tutulub. Azərbaycan vətəndaşları yaşından və məşğulluq vəziyyətindən asılı olmayaraq, müəyyən edilmiş saytda qeydiyyatdan keçərək bu imkandan yararlana bilərlər.

Proqram SOCAR, "Paşa Holdinq", BP, JOCAP və "Azerconnect Group" kimi aparıcı şirkətlərin tərəfdaşlığı ilə həyata keçirilir.

Ötən il "4Sİ Akademiyası"nın pilot mərhələsində 10 min nəfər "Coursera"dan faydalanıb, 4200-dən çox beynəlxalq sertifikat əldə olunub. Layihə 2024-cü ildə "Coursera" şirkəti tərəfindən "Üstün Nailiyyət Mükafatı 2024" müsabiqəsinin "Süni İntellekt İnnovasiyası" kateqoriyası üzrə qalib olub.

Onu da xatırladaq ki, İqtisadiyyat Nazirliyinin tabeliyində qlobal iqtisadiyyatda cərəyan edən trendləri diktə edən, rəqabət qaydalarını dəyişən Dördüncü Sənaye İnqilabında Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr sırasında yer almasının təmin edilməsi məqsədilə "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsi Prezident İlham Əliyevin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb.

Mərkəzin missiyası Dördüncü Sənaye İnqilabının yaratdığı imkanlardan maksimum istifadə edilməsi və ölkəmizin bu sahədə mövqeyinin gücləndirilməsi məqsədilə yerli və beynəlxalq qurumlarla əməkdaşlığı və əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə strategiyaların və layihələrin təhlilini, eləcə də koordinasiyasını həyata keçirməkdən ibarətdir. Hədəfləri isə rəqəmsal iqtisadiyyatın inkişafına dəstək vermək və ölkəmizin Dördüncü Sənaye İnqilabı texnologiyalarının faydalarından bəhrələnməsini və bu sahədə qabaqcıl dövlətlər sırasında qərarlaşmasını təmin etməkdir.

***Flora SADIQLI, "Azərbaycan"***

## "Akademik Tofiq İsmayılov" dalğıc gəmisi əsaslı təmirdən sonra istismara qaytarılıb

**"AZCON Holding"in şirkətlərindən olan ASCO-nun "Akademik Tofiq İsmayılov" dalğıc gəmisi əsaslı təmir edilib. Təmir işləri "Bibiheybət" Gəmi Təmiri Zavodunda yerinə yetirilib.**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin yaydığı xəbərdə bildirilir ki, proses zamanı baş mühərriklər, braşpil, şpil qurğuları, nasoslar, boru sistemləri, elektrik avadanlıqları, heyətin yaşayış yerləri, sanitar qovşaqlar və yeməkxana təmir olunub. Həmçinin gəminin sualtı və suüstü hissələri təmizlənərək rənglənib. Gövdənin sualtı və suüstü sahələrində zədələnmiş sahələr və protektorlar dəyişdirilib.

Bundan başqa, gəminin hərəkət-sükan kompleksi, dib-yan armaturları, lövbər qurğuları və zəncirləri sazlanıb, helikopter meydançasının leyer çəpəri və drenaj (şpiqat) sistemi əsaslı təmir olunub.

Rabitə və elektroradionaviqasiya sahəsinə aid müasir, yeni 3 dəst stasionar radiostansiya, 1 dəst girokompas və 1 ədəd yeni qəza radiomayakı (EPIRB) quraşdırılıb. Həmçinin gəmi yeni "İnmarsat-C" avadanlığı ilə təchiz olunub.

Təmirdən sonra dalğıc gəmisi dəniz sınağına çıxarılıb. Sınaq işləri uğurla başa çatıb və gəmi istismara qaytarılıb.

"Akademik Tofiq İsmayılov" gəmisinin uzunluğu 91,8, eni 17 metrdir. DP sistemi ilə təchiz olunmuş gəmi 300 metrə qədər dərinlikdə dalğıc, 1000 metrə qədər dərin sahələrdə isə digər sualtı işlərin həyata keçirilməsi üçün nəzərdə tutulub.







# Mədəniyyət





◆ İncəsənət xadimləri

# İstedadlı memar, təvazökar insan

**Dünyada hansı gözəl bina, hansı bənzərsiz tikili varsa, onların hamısı insan əli, insan əməli ilə yaradılır. Ulu keçmişimizdən soraq verən bu tarixi abidələr həmişə insanların diqqətini özünə cəlb edir, zövqünü oxşayır. İnsan düşüncəsi və təfəkkürü ilə tikilən və yaradılan bu abidə-binalar tarixin səhifəsində əbədi olaraq qalır. Bu gün biz əsrlərcə əvvəl tikilmiş abidələrə, qalalara böyük heyrət və yüksək maraqla baxırıq. Tarixi abidələr, tikililər quruluşu, xarici görkəmi ilə diqqətimizi cəlb edir.**



Müasir dövrdə də şəhərimizdə tikilmiş elə binalar var ki, onların yaxınlığından keçəndə bir anlıq da olsa, ayaq saxlayıb onun gözəlliyinə tamaşa edirik. Heydər Əliyev adına İdman Sarayı, Milli Məclisin binası, Milli Arxiv İdarəsinin və Dövlət Akademik Milli Dram Teatrının, Prezident Administrasiyasının binaları və başqa tikililər elə ilk baxışdan bənzərsizliyi ilə zövqümüzü oxşayır. Adlarını çəkdiyimiz bu binaların təkcə xarici görünüşü deyil, daxili görkəmi də bənzərsizliyi ilə seçilir. Adlarını çəkdiyimiz və çəkmədiyimiz bəzi məşhur binaların müəllifi Əməkdar memar, Əməkdar mühəndis Tahir Abdullayevdir.

Bəs kim idi istedadlı memar Tahir Abdullayev? Gəlin qısaca da olsa, onun ömür yolu və fəaliyyəti ilə yaxından tanış olaq. Tahir Abdulla oğlu Abdullayev 25 avqust 1915-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Atası gənc yaşlarında vəfat etdiyinə görə ailənin dörd övladı anaları Surə xanımın himayəsi altında böyüyüb. Hələ kiçik yaşlarından bacarığı və istedadı ilə seçilən Tahir 1933-cü ildə Nəriman Nərimanov adına Sənaye Texnikumuna qəbul olub. Bu təhsil ocağında bilik və bacarığını daha da artırıb. Gələcəyin görkəmli memarı olacaq Tahir Abdullayev ürəyində boy verən arzuların işığında 1939-cu ildə Azərbaycan Sənaye İnstitutuna qəbul olub. Bu illər ərzində memarlıq ixtisasının sirlərinə dərindən yiyələnib. Ali təhsilini başa vurduqdan sonra təyinatla Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin Memarlıq Planlaşdırma İdarəsinə göndərilib. Tahir Abdullayev 1941-ci ilə qədər bu idarədə işləyib. İlk günlərdən bacarığı və istedadı ilə seçilib. Ona verilən tapşırıqları peşəkarlıqla yerinə yetirib. İşlədiyi layihələr rəhbərlik tərəfindən bəyənilib. Beləcə, Tahir Abdullayev addım-addım gələcək uğurlarına doğru yaxınlaşmağa başlayıb.

1940-cı ildə Tahir Abdullayevi keçmiş SSRİ Memarlar İttifaqına üzv qəbul ediblər. İşinə, əməyinə və fəaliyyətinə yüksək qiymət veriblər. Görkəmli memar 1941-1944-cü illərdə müxtəlif tikinti idarələrində baş mühəndis vəzifəsində çalışıb. Bir-birindən dəyərli layihələr hazırlayıb. 1944-1951-ci illərdə Şəki şəhərinin baş memarı vəzifəsində çalışıb. 1946-cı ildə İkinci Dünya müharibəsində arxa cəbhədə göstərdiyi fədakarlığa görə "Qafqazın müdafiəçisi" medalına layiq görülüb.

İllər bir-birini əvəz etdikcə Tahir Abdullayevə daha da məsuliyyətli vəzifələr verilir, daha mühüm işlər tapşırılır. 1951-ci ildə o, Azərbaycan SSR Nazirlər Kabinetinin qərarı ilə "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutuna direktor təyin olunur. Tahir Abdullayev nə az, nə çox, düz 41 il burada fəaliyyət göstərir. Bu müddət ərzində yüzlərlə yaşayış evinin, ictimai bina və qurğuların layihə müəllifi olur. Onu da qeyd edək ki, paytaxt Bakıdan başqa, ölkənin bütün şəhərlərinin baş planları, Bakı Dövlət Universiteti, Milli Elmlər Akademiyası, müxtəlif institutlar, poliklinika və xəstəxanalar, məktəb və uşaq bağçaları, yaşayış və digər çoxsaylı binaların layihələri Tahir Abdullayevin rəhbərlik etdiyi institutda hazırlanıb.










Görkəmli memar təkcə yaradıcılıq istedadı ilə deyil, həm də yüksək təşkilatçılıq bacarığına, insanlarla işləmək qabiliyyətinə görə fərqlənirdi. Bu xüsusiyyətlərinə görə də rəhbərlik etdiyi kollektiv tərəfindən həmişə sevilirdi. Öz işinin peşəkarı olan Tahir Abdullayev təqdim olunan sifarişlərin operativ şəkildə yerinə yetirilməsi üçün Sumqayıt, Naxçıvan və Gəncə şəhərlərində institutun filiallarını yaratmışdı. Bu filiallar isə regionlardakı binaların layihə-smeta sənədlərinin hazırlanmasının sürətini və keyfiyyətini xeyli artırmışdı.

Tahir Abdullayev "Azərdövlətlayihə" İnstitutuna rəhbərlik etdiyi 41 il ərzində kadrların, xüsusilə milli kadrların hazırlanması, onların peşəkar mütəxəssis kimi formalaşması işini daim diqqət mərkəzində saxlayırdı. Gənc kadrların hazırlanmasına daim qayğı göstərir, bunun üçün onlara hər cür şərait yaradırdı. O, ətrafına təcrübəli memar və mühəndisləri toplamışdı. Onlardan Mikayıl Hüseynov, Rasim Əliyev, Tələt Xanlarov, Şəfiqə Zeynalova, Yusif Qədimov, Nəimə Axundova, mühəndislərdən Mədət Xələfov, Eldar Məmmədov, Xalid Nəcəfov, Azad Qocamanlı və başqalarının adlarını çəkmək olar.

Onun bir-birindən dəyərli olan işləri, geniş fəaliyyəti, Azərbaycan milli memarlığının inkişafına verdiyi misilsiz töhfələr diqqətdən kənarda qalmamışdır, dövlətimiz tərəfindən layiqincə və yüksək səviyyədə qiymətləndirilmişdir. Tahir Abdullayev iki dəfə SSRİ Nazirlər Soveti tərəfindən Dövlət mükafatına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur. 1964-cü ildə Azərbaycan Respublikasının Əməkdar mühəndisi, 1979-cu ildə Azərbaycan Respublikasının Əməkdar memarı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü adlarına layiq görülmüşdür.

Görkəmli memarın oğlu Namiq Abdullayev atasını xoş sözlərlə xatırlayır: "Atam çox təvazökar insan idi. Heç vaxt özünü başqalarından üstün tutmazdı. Peşəsini həddindən çox sevərdi. Memarlıq sənəti onun həyatının mənası idi. Hətta vəfat etdiyi gün də işdə olmuşdu. Ailədə də çox ciddi, nizamlı, intizamlı idi. İstəyirdi ki, mən də memar olum. Deyirdim ki, ata, axı mənim bu sahədə qabiliyyətim yoxdur. Memar olmaq insandan xüsusi istedad və bacarıq tələb edir".

Yaddaşlarda istedadlı memar, səmimi və xeyirxah dost kimi qalan Tahir Abdullayev 2004-cü ildə vəfat edib. İkinci Fəxri xiyabanda torpağa tapşırılıb. Memarlıq sənətində böyük izlər qoymuş Tahir Abdullayev heç vaxt unudulmayacaq. Çünki onun layihələri ilə tikilən və görənləri gözəlliyi ilə heyran edən binalar görkəmli memarın yadigarları kimi ona əbədi yaşamaq haqqı qazandırıb.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

◆ Sənət dünyası

# Səhnəmizin Vəfası

**Kənardan baxana asan görünə bilərdi. Axı çoxları sevib seçdiyi sənətin yoluna çıxmaq, ilk addımlarını atmaq üçün planlar qurur, əzab-əziyyətlərə qatlaşır. O isə teatr sənətinə bağlı olan bir ailədə dünyaya göz açdı, boya-başa çatdı. Valideynlərinin sayəsində teatr qapılarını, səhnə pərdəsini Vəfa Fətullayevaya hələ uşaq ikən açdı. Kiçik yaşlarında böyük səhnədə oynadığı rola görə tamaşaçı alqışları eşitdi. Səhnə onu da ecazkar aləminə çəkdi. Ancaq daha çox həyatı sevdi Vəfa. Ondan şöhrət deyil, sevgi umdu. Həyat isə ona nə verdisə, yarımçıq qoydu. İşlərini də, sevgisini də, ömrünü də...**



## Sənətinin vurğunu

Vəfa Fətullayeva 1945-ci il avqustun 25-də Bakıda dünyaya gəlib. Teatrla tanışlığı hələ körpə ikən başlayıb. Başqa necə ola bilərdi ki?! Vəfanın valideynləri Azərbaycan teatr sənətində istedadları və gördükləri işlərlə nüfuz qazanmış görkəmli sənətkarlar idi. Atası Nüsrət Fətullayev Azərbaycan teatr sənətinin ilk tərtibatçı-rəssamı, anası Hökümə Qurbanova məşhur aktrisa idi. Valideynləri dövrünün yüksək mükafatlarına, fəxri adlarına layiq görülmüşdülər. Nüsrət Fətullayev Əməkdar incəsənət xadimi, Xalq artisti, Hökümə Qurbanova SSRİ Xalq artisti idi.

Vəfanın əmiləri də Azərbaycan incənənətinin inkişafında xidmətləri olan sənətkarlar kimi tanınırdılar. Bu günün tamaşaçılarının daha çox "Ögey ana" filmində İsmayılın atası kimi tanıdıqları Fateh Fətullayev teatr və kino aktyoru, digər iki əmisi - Şəmsəddin və Nurəddin bəstəkar idi. Nurəddin Fətullayevin oğlu Hafiz Fətullayev isə sonralar kinorejissor, ssenarist, aktyor kimi fəaliyyət göstərdi.

Vəfa Fətullayeva atasının ilk övladı olub. Anasının isə birinci evliliyindən Nailə adlı qızı vardı. Nailə Vəfadan on bir yaş böyük idi. İki bacı bir-birlərini çox sevirdilər.

Vəfanın valideynləri ayrılıb. Vəfa anasının yanında qalıb. Ancaq Nüsrət Fətullayev öz sevgisini və diqqətini gözünün ağı-qarası bircə övladından bir gün belə əsirgəməyib.

Teatrı, səhnəni hələ kiçik yaşlarından özünə doğma bilib. Anası onu tez-tez teatra aparıb. Evdə də teatrla, səhnə ilə, tamaşalarla bağlı söhbətləri dinləyə-dinləyə böyüyüb. Vəfa böyük səhnəyə də hələ uşaq ikən çıxıb. 1953-cü ildə Ələsgər Şərifovun səhnələşdirdiyi Uilyam Şekspirin "Qış nağılı" pyesində kralın oğlu Mamili rolunu ifa edəndə Vəfa Fətullayevanın səkkiz yaşı vardı. Vəfa səhnədə anası ilə tərəfmüqabili olub. Onda artıq şagird idi. Bakıdakı 1 saylı orta məktəbdə təhsil alırdı. 1963-cü ildə orta məktəbi bitirib. Vəfa Fətullayeva 1963-cü ildə Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Teatrşünaslıq fakültəsinə qəbul olunub, 1968-ci ildə həmin fakültəni əla qiymətlərlə başa vurub.

Anasının Vəfanı aktrisa görmək arzusunda olduğunu, bu peşəni onun tələb və təkidlərinə görə seçdiyini söyləyənlər çox olub. O dövrdə Azərbaycan teatr sənətinin ən qüdrətli aktrisası sayılan Hökümə Qurbanova kiçik qızını özünün davamçısı kimi görmək istəyib. Vəfa Fətullayevanın əmisi oğlu Hafiz Fətullayev isə bunun əksini deyib: "Hökümə Qurbanova qızının aktrisa olmasının tərəfdarı deyildi. Yoxsa Vəfa elə əvvəldən Aktyorluq fakültəsinə girərdi. Amma qızının bu istəyini də xüsusi bir etirazla qarşılamadı".

Vəfa Fətullayeva aktrisalıq fəaliyyətinə tələbəlik illərində başlayıb. O, Akademik Dram Teatrında "Məhv olmuş gündəliklər" tamaşasında Fəridə roluna dəvət olunub.

Sonralar sənət taleyini bu teatrla bağlayıb. Vəfa Fətullayeva 1970-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) fəaliyyət göstərib. "Mahnı dağlarda qaldı"da Gülgəz, "Məhəbbət əfsanəsi"ndə Şirin, "Sən yanmasan"da Tənzilə, "Müsyö Jordan və dərviş Məstəli şah"da Şərəfnisə, "Heç nədən hay-küy"də Beatriçe, "Kəndçi qızı"nda Bənövşə, "İnsan"da Səhər, "Sizi deyib gəlmişəm"də Zeynəb, "İblis"də Rəna, "Vaqif"də Xuraman, "Mirzə Şəfi Vazeh"də Pakizə, "Torpağa sancılan qılınc"da Burla Xatun, "Atabəylər"də İnanc Xatın, "Şöhrət və ya unudulan adam"da Doktorun qızı, "Kimdir haqlı?"da Arzu, "Karıxmış sultan"da Qadın, "Küləklər"də Alagöz rollarını səhnədə yüksək aktyorluq məharəti, bənzərsiz ifası ilə canlandırıb.

O, tammetrajlı televiziya tamaşalarında - "Alov"da Rəfiqə Rəhimli, "Atayevlər ailəsi"ndə Lətafət, "Firəngiz" filmində Firəngiz Tahirova, "Göz həkimi" film-tamaşasında İradə və başqa ekran əsərlərində də maraqlı rollar yaradıb.

Vəfanın anası Akademik Dram Teatrının hökmlü aktrisası sayılıb. Ancaq o, istedadlı qızına heç bir rejissordan rol istəməyib. Hafiz Fətullayev Vəfaya rol verilməsi üçün heç vaxt rejissorlara ağız açmadığını bildirib: "Hökümə xanım heç bir rejissora deməmişdi ki, Vəfaya rol versin. Rejissorlar özləri onu bəyənib rol veriblər. Hətta Əliheydər Ələkbərov "Mahnı dağlarda qaldı" tamaşasında Gülgəz rolunu Vəfaya verəndə şübhələnirdi ki, o, bu rolu oynaya bilər, ya yox. Vəfa da bu rolu elə gözəl oynadı ki... Çoxları o tamaşadan sonra Dövlət mükafatı aldı, amma nədənsə Vəfaya vermədilər, bəlkə hələ gənc olduğuna görəydi, bilmirəm. Halbuki o almalı idi. Ancaq bir neçə il sonra "İblis" tamaşasındakı Rəna roluna görə Vəfa Dövlət mükafatına layiq görüldü".

Vəfa Fətullayeva Dövlət mükafatı laureatı adına 1984-cü ildə layiq görülüb. İki il qabaq, 1982-ci ildə isə ona Əməkdar artist fəxri adı verilmişdi. O, səhnənin vurğunu idi. Bu da Vəfanı öz sənətində şöhrətləndirirdi.



## Yarımçıq ailə, sevgi, ömür...

Onu bu gün ekranlarda müxtəlif rollarda görürük. Şıltaq, şən, qüssəli... Ancaq Vəfa Fətullayeva deyəndə gözlərimizin önündə mehriban, səmimi, güləriz siması canlanır. Əmisi oğlu Hafiz Fətullayev Vəfanın xarakterini belə təsvir edib: "Vəfa sözə qulaq asan qız idi. Çox mülayim xasiyyəti vardı. Onunla 5 dəqiqə oturub söhbət edəndən sonra bütün əhvalın dəyişirdi. Şaqqanaq çəkib gülürdü. Allah onu əsl ev xanımı kimi yaratmışdı. Hansısa bir evin xanımı olsaydı, xoşbəxt olardı..."

Ancaq evinin xanımı olmaq Vəfanın taleyinə yazılmamışdı. O, 1963-cü ildə idmançı Zaur Nağıyevlə tanış olub. Ailə qurublar. Bir-birlərini çox sevsələr də, evlilikləri bircə il çəkib. Zaur Vəfanın aktrisa olmasını istəməyib. Ancaq ayrılmalarının səbəbi bu olmayıb. Deyilənlərə görə, Vəfanın ailəsinin dağılmasının səbəbkarı da ana olmaq arzusunu gözündə qoyan anası - Hökümə Qurbanova olub.

Sonralar Vəfa öz həmkarını sevib. Onların böyük sevgisindən bu gün də danışırlar. Evlənmələrinə mane olublar. Hafiz Fətullayev bu məsələ barədə deyib: "Başa düşürdülər ki, nə qədər Hökümə Qurbanova var, onlar ailə qura bilməyəcəklər. Vəssalam..." Həmkarı həyatının sonunadək Vəfanı unuda bilməyib.

Vəfaya ən böyük vəfasızlığı həyatın özü edib. O, ömrünün də, yaradıcılığının da gözəl çağlarında dərmansız dərdə düçar olub. Xərçəng xəstəliyi Əməkdar artist Vəfa Fətullayevanı 41 yaşında, 1987-ci il mayın 21-də həyatdan qoparıb. O vaxt Vəfa ilə eyni xəstəlikdən, eyni xəstəxananın ayrı palatasında müalicə alan Hökümə Qurbanova qızının vəfat etdiyini eşidəndə fəryadı bütün xəstəxananı bürüyüb.

Vəfa Fətullayeva Yasamal qəbiristanlığında dəfn olunub. Atası onun yoxluğuna dözməyib. Nüsrət Fətullayev yeganə övladının vəfatından iki ay sonra dünyasını dəyişib. Hökümə Qurbanova isə Vəfadan sonra bircə il yaşayıb. O da 1988-ci ildə vəfat edib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Bəxtiyar Vahabzadənin ev-muzeyində şairin 100 illiyi münasibətilə sərgi açılıb

**Avqustun 16-da tanınmış ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyi tamam olur.**



Azərbaycan Prezidenti İlham Əliyev 21 fevral 2025-ci il tarixində "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb. Ölkə Prezidentinin sərəncamına uyğun olaraq paytaxtda və bölgələrdə Xalq şairinin yubileyinə həsr edilmiş silsilə tədbirlər keçirilir.

Mahmud Kaşğari adına Beynəlxalq Fondun, Şəkidə Dövlət Turizm Agentliyinin tabeliyində fəaliyyət göstərən Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğunun, R.Əfəndiyev adına Şəki Tarix Diyarşünaslıq muzeyinin, Şəki Dövlət Rəsm Qalereyasının və Şəki Xalq Tətbiqi Sənəti Muzeyinin birgə təşəbbüsü ilə Bəxtiyar Vahabzadənin ev-muzeyində kitab, xalça və rəsm sərgisi açılıb.

Sərgidə şairin əsərləri əsasında çəkilmiş rəsmlər, Bəxtiyar Vahabzadəyə həsr olunmuş portret xalçalar, ədibin yaradıcılığına həsr edilmiş və özünün müəllifi olduğu kitablar nümayiş olunur.

Muzeyin direktoru Elşən Zəkəriyyəbəyli dövlət başçısının imzaladığı sərəncama müvafiq olaraq keçirilən tədbirlərin Bəxtiyar Vahabzadə ruhuna, yaradıcılığına yüksək ehtiramdan qaynaqlandığını söyləyib, şairin bütün əsərlərinin ehtiva olunduğu 12 cilddən ibarət "Seçilmiş əsərləri"nin nəşrinə görə Milli Məclisin deputatı Cavanşir Feyziyevə Bəxtiyar ocağı adından minnətdarlığını bildirib.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısının müavini Xəyalə Töhrablı Bəxtiyar Vahabzadənin yubileyinin ev-muzeyində bu şəkildə əlamətdar qeyd olunmasının xüsusi əhəmiyyətini, belə görüşlərin Şəki üçün qürur mənbəyi olduğunu vurğulayıb.

Milli Məclisin deputatı, Mahmud Kaşğari adına Beynəlxalq Fondun prezidenti Cavanşir Feyziyev deyib ki, hər ilməsi böyük şairə məhəbbətlə toxunan bu xalçalar, onun həyatından müəyyən anları əks etdirən fotoetüdlər, ədibin əsərlərinə həsr olunmuş rəsm tabloları, hər sətri Bəxtiyar dünyasına ehtiramla qələmə alınan tədqiqat əsərləri təkcə yubiley ərəfəsində muzeyi ziyarətə gələn qonaqlara deyil, bütün Bəxtiyarsevərlərə, onun əsərlərinin elmi araşdırması ilə məşğul olan Bəxtiyarşünaslara qiymətli bir ərməğandır.

Görüşdə Bəxtiyar Vahabzadənin həyat yolundan və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.

# Azərbaycan milli kulinariya ənənələri beynəlxalq tədbirdə nümayiş olunub

**Türkmənistanda keçirilən BMT-nin Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr üzrə III Konfransı çərçivəsində təşkil olunan "Azərbaycan Milli Günləri"ndə Dövlət Turizm Agentliyi və tabeliyindəki Milli Kulinariya Mərkəzi tərəfindən milli kulinariya nümunələri təqdim edilib.**

Dövlət Turizm Agentliyindən bildirilib ki, Avaza Milli Turizm Zonasında keçirilən tədbirin sərgi zonasının kulinariya bölməsində milli mətbəximizin ənənəvi yeməkləri və milli şirniyyatları, həmçinin kulinariya ənənələri nümayiş olunub.

Ziyarətçilərə stendin konsepsiyasının UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş Azərbaycan milli qastronomiya elementləri və Türkmənistanla mədəni oxşarlıqları bölüşən kulinariya nümunələri əsasında, eləcə də dayanıqlılıq elementləri nəzərə alınaraq hazırlanması haqqında məlumat verilib, çörəkbişirmə ənənələri üzrə türkmən xalqının mətbəx mədəniyyəti ilə oxşarlıq təşkil edən qutab və təndir kimi mətbəx nümunələri vurğulanıb.



# Samuxda Milli Qəhrəman Hökumə Əliyevanın xatirəsi anılıb



**Samuxun Alıuşağı kəndində Milli Qəhrəman Hökumə Əliyevanın doğum günü ilə bağlı anım tədbiri keçirilib.**

AZƏRTAC-ın verdiyi məlumata görə, tədbirdə Milli Qəhrəmanın ailə üzvləri, yaxınları, AZAL-ın vitse-prezidenti İlham Əmirov, Hökümə Əliyevanın həmkarları iştirak ediblər.

Çıxış edənlər vurğulayıblar ki, Hökümə Əliyeva 1991-ci il avqustun 8-də Kəlbəcər rayonunun Susuzluq kəndində anadan olub. O, 1993-cü ildə Kəlbəcərin işğalından sonra ailəsi ilə birlikdə Samuxun Alıuşağı kəndində məskunlaşıb. Hökumə Əliyeva dekabrın 25-də Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olub. Prezident İlham Əliyevin 2024-cü il 29 dekabr tarixli Sərəncamı ilə Hökumə Cəlil qızı Əliyeva "Azərbaycanın Milli Qəhrəmanı" adına və "Qızıl Ulduz" medalına layiq görülüb.

Ailəsinin təşəbbüsü ilə Alıuşağı kəndində Milli Qəhrəmanın xatirəsinə yaradılan, onun fotolarının, şəxsi əşyalarının sərgiləndiyi guşəyə də baxış keçirilib.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
TARİXİ gün görüş sənəd
Azərbaycan Prezidentinin Vaşinqton səfəri tarixi uğurlarla nəticələnib

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Şəhid leytenant Siyavuş Muradovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn leytenant Siyavuş Akif oğlu Muradovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən məlumat verilib.



Bildirilib ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər leytenant S.Muradovun şərəfli həyat və nümunəvi döyüş yolundan danışıblar. Şəhid zabitin qısa, lakin şərəfli həyat yoluna həsr edilmiş sənədli film nümayiş olunub.

Sonra məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim edilib.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# ABŞ və Rusiya prezidentlərinin Alyaskada görüşəcəkləri gözlənilir

**Donald Tramp və Vladimir Putin arasında neçə vaxtdır müzakirə mövzusu olan ilk şəxsi görüşün avqustun 15-də ABŞ-nin Alyaska ştatında keçiriləcəyi gözlənilir. Tarixi və yeri Trampın özü açıqlayıb. Putinin köməkçisi Yuri Uşakov razılaşmanı təsdiqləyib və Alyaskanı belə sammit üçün "məntiqi yer" adlandırıb.**




Sammitin gündəliyini açıqlayan Tramp bildirib ki, prezidentlər Ukraynada atəşkəs və münaqişə tərəfləri arasında "ərazi mübadiləsi"ni müzakirə edəcəklər. "Rusiya Prezidenti Vladimir Putinlə çoxdan gözlənilən görüşüm gələn cümə günü, avqustun 15-də böyük Alyaska ştatında baş tutacaq. Təfərrüatlar bundan sonra olacaq" - deyə Tramp özünün sosial şəbəkələrində yazıb.

Bundan sonra görüş yerini və tarixini Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov da təsdiqləyib. O, iki ölkə başçısının görüş yerinin seçilməsini belə izah edib: "Rusiya və ABŞ yaxın qonşulardır, bir-biri ilə həmsərhəddirlər. Və nümayəndə heyətimizin sadəcə olaraq Berinq boğazından keçməsi və iki ölkə liderinin belə mühüm və gözlənilən sammitinin məhz Alyaskada keçirilməsi tamamilə məntiqli görünür".

Rusiya və ABŞ-ı eni 100 kilometrdən az olan Berinq boğazı ayırır. Alyaska ABŞ-nin Rusiyaya ən yaxın ştatıdır. XVIII əsrin əvvəllərində rus səyyahları tərəfindən kəşf edilən bu ərazi 1867-ci ildə Rusiya imperiyası tərəfindən 7,2 milyon dollara (2023-cü il qiymətləri ilə təxminən 130 milyon dollar) ABŞ-yə satılıb.

Qeyd edək ki, bu, Amerika Prezidentinin Rusiyanın Ukraynaya genişmiqyaslı işğalının başlamasından sonra RF lideri ilə ilk görüşü olacaq. Xatırladaq ki, D.Tramp və V.Putin sonuncu dəfə 2019-cu ilin iyununda Yaponiyanın Osaka şəhərində keçirilən G20 sammiti çərçivəsində görüşüblər və Trampın ikinci prezidentlik müddətinə yenidən seçilməsindən sonra bir neçə dəfə telefonla danışıblar. Başlanğıcda bu söhbətlər barədə çox müsbət danışan ABŞ Prezidenti sonradan Rusiyanın Ukraynaya qarşı müharibəsinin gedişinə təsir etmədiyindən məyus olduğunu aşıqlayıb, hətta bu danışıqları "mənasız" adlandırıb.

Vladimir Putin isə BMT Baş Assambleyası və ABŞ Prezidenti Barak Obama ilə görüş üçün Nyu-Yorka yollandığı 2015-ci ildən bəri ABŞ-də olmayıb. 2021-ci ildə o, İsveçrədə D.Trampın sələfi Co Baydenlə görüşüb.

Gözlənilən görüşdə Y.Uşakovun elan etdiyi kimi, "prezidentlər Ukrayna böhranının uzunmüddətli sülh yolu ilə nizamlanmasına nail olmaq variantlarını müzakirə etməyə diqqət yetirəcəklər". Bu görüş haqqında danışan D.Tramp isə daha əvvəl deyib ki, gündəliyə digər məsələlərlə yanaşı, "Rusiya və Ukrayna arasında ərazilərin mübadiləsi də daxil ediləcək ki, bu da hər iki tərəf üçün faydalı olacaq". D.Tramp təfərrüatları açıqlamasa da, bir gün əvvəl "Wall Street Journal" qəzeti öz mənbələrinə istinadən yazıb ki, V.Putin Ukraynanın Donetsk və Luqansk bölgələrindən imtinası əvəzində atəşkəsə razılaşmağa hazırdır.

Şənbə günü səhər Ukrayna Prezidenti Volodimir Zelenski isə hər hansı ərazi mübadiləsini istisna edərək "ukraynalılar torpaqlarını işğalçıya verməyəcək" deyib. Bundan əvvəl o həm də Ukraynanın ölkənin gələcəyi ilə bağlı bütün danışıqlarda iştirak etməli olduğunu bildirmişdi.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

**Bazar günü etüdü**

# Axtardığımız açarlar



*Həyatımızda, güzaranımızda, hətta səyahətdə belə açarların rolu bizim üçün əvəzsiz olduğu qədər də qiymətlidir. Çünki açarsız heç bir işi yoluna qoymaq, bağlı qıfilları açmaq, qaranlıqlara, zülmətlərə işıq saçmaq olmur. O açarlarsız ki, boybuxunundan, formasından asılı olmayaraq bir-birindən qiymətlidir, hələ yeri gələndə bir az da hikmətlidir.*

*Ona görə də həmişə, haradasa çətinliklə üzləşəndə işlərimizin burulmuş, bir neçə yerdən bükülmüş düyününü görəndə nigaran qalırıq, onu açmaq üçün açar axtarırıq. Gecə-gündüz var gücümüzlə dünyaya hay-haray salırıq, dayanmadan hey soraqlayırıq, hər yerə göz qoyuruq, hər tərəfə baxırıq.*

*Əvvəllər bərkə düşəndə böyüklər deyirdilər ki, çarə axtarın, axtaran tapar. Biz də gecə-gündüz yorulmadan düyün düşmüş işlərimizə açar axtarırdıq. İndi də bu sözün yerini bir az dəyişib deyirlər ki, tapan axtarandır. Belə götürəndə, sözlərdə elə də böyük bir fərq yoxdur. İkisinin də mayasında, qayəsində dərdə çarə olan açar var. Amma sonda onu tapmaq və yaxud tapmamaq məsələsi var.*

*Açar tapmaq da elə tez başa gələn iş deyil. Çünki var tapılan, tapılmayan, tapılanda da qıfila düz gəlib-gəlməyən açarlar. Tez tapılan, gec tapılan, heç tapılmayan açarlar da öz yerində.*

*Nədənsə, asan tapılan açarlar həmişə bizdən qaçarlar. Belələrini tapanda da onu bizə çox baha qiymətə satarlar. Bəzən də yolumuza daş atarlar, qaya dığırlayarlar, şirin ovqatımıza acılar qatarlar.*

*Gördüyümüz və bildiyimiz kimi bir-birindən fərqlidir, bənzərsizdir, çeşidlidir, bir sözlə, oxşar deyil açarlar. Baha, ucuz, qiymətli, qiymətsiz, dəmir, taxta, kağız, polad, daş, mərmər olur açarlar. İllərdən bəri açılmayan, paslanmış, kiplənmiş, mamır bağlamış qıfillara düşən açarlar, bəlkə də belələrini çox axtaranlar haradasa taparlar. Təəssüf ki, yaxşı açarlar imkan yaranan kimi baş götürüb qaçarlar.*

*Parıltılı, işıqlı, göz qamaşdıran, hərdən adamı çaşdıran, parıltısız, qaranlıq, səsli-səssiz, nəfəsli-nəfəssiz, kimsəli-kimsəsiz, xoşbəxt-bədbəxt, pullu-pulsuz, xallı-xalsız, ballı-balsız açarlar. İti-küt, uzun-qısa, paslı-passız, nazlı-nazsız, arlı-arsız, köhnə-təzə, enli-ensiz, bir az asan, bir az çətin, bir az qorxaq, bir az mətin, yalan-doğru açarlar, axtaranları dərdə-sərə, çöllərə, düzlərə, hətta dənizlərə salan açarlar. Kim bilir, bəlkə də beləlari illərdən bəri bağlı qalmış bütün bağlı qapıları, paslı qıfilları açarlar.*

*Gündüzlər onları o qədər fikirləşirik ki, bəzən yuxularımızda da açarları axtarırıq. Həyatda soraqladığımız açarları bəzən yuxularımızda tapırıq. Belə anlarda sevinc gölü içində itib-batırıq. Sanki onda xoş arzularımızdan divar hörürük. Bizi rahat qoynuna almış yuxularımıza həzinlik, şirinlik qatırıq, məqsədinə çatmış kimi arın-arxayın yatırıq.*

*Bəzən işlərimiz çətinə düşəndə, yolumuz qıfillananda ona açar yox, adam axtarırıq. Oxuyanlara təəccüblü gəlməsin, yaşadığımız həyatda istədiyin qədər çoxdur açar adamlar - köməksiz, naçar qalmış adamlara kömək edən açar adamlar. Belə adamlar, bağlı, açılmayan, pas tutmuş "qıfil"ları bir sözlə, bir zənglə vurub açarlar.*

*Bəzən axtardığımız açarları ömrümüz boyu tapmırıq. Amma ruhdan, həvəsdən düşmürük, özümüzü oda-közə vurub axtarışlarımızı davam etdiririk, hərdən istəyimizə çatmaq üçün xeyli uzaqlara, lap dünyamızın o başınacan gedirik. Həyatımız boyu dayanmadan çətinliklərimizə, problemlərimizə açar axtarırıq. Bəzən elə olur ki, iş tərs gətirir, dünya insafını itirir. Axtardığımız açarı tapanda qıfilını itiririk. Onda yaz buludu kimi dolub boşalırıq.*

*Kaş bağlı qalmış qıfillarımıza, qapılarımıza açarları asan tapaydıq, arzularımıza, istəklərimizə tez çataydıq, heç vaxt çarəsiz qalmayaydıq. Əsəbdən, qəzəbdən odlanıb yanmayaydıq, kimsədən usanmayaydıq. Bizə lazım olan açarları çox axtarmayaydıq, yollarda dumana, çənə düşüb ləngiməyəydik. Bədbəxtliyin açarını həmişəlik itirib xoşbəxtlik açarını tapaydıq.*

*Qoy heç vaxt nə qapılarımız, nə də qıfillarımız paslanmasın, bundan qəlbimiz kədərlənib dağlanmasın. Ürəyimiz kimi qapılarımız da, onun qıfilları da həmişə açıq qalsın, heç vaxt bağlanmasın. Üzümüz gülsün, könlümüz açılsın, açıq qalmış qapılardan dünyaya sevinc işığı saçılsın. Üzümüzə xoşbəxtlik, qəlblərə sevinc işığı saçılsın.*

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***



# Bilmək istəyirəm

*İş yoldaşıma bankda zamin durmuşam. Hazırda özüm kredit götürmək istəyirəm, lakin banka müraciət etdikdə dedilər ki, zamin olduğum üçün mənə kredit verilə bilməz. Bilmək istəyirəm, bu, qanunidirmi?*

***Mədinə OSMANLI, Bakı şəhəri***

✓ - Bəli, bu qanunidir. Azərbaycan Respublikası Mülki Məcəlləsinə (470-477-ci maddələr) əsasən, zaminlik - öhdəliklərin yerinə yetirilməsinə təminat üsuludur. Əgər siz başqa bir şəxsin kredit borcu üzrə bank qarşısında zamin durmusunuzsa, əsas borcalan öhdəliklərini yerinə yetirmədikdə siz həmin borcun ödənilməsinə görə məsuliyyət daşıyırsınız.

Qanunvericilik birbaşa olaraq zamin olan şəxslərə kredit verilməsini qadağan etmir, lakin banklar potensial müştərinin kredit qabiliyyətini qiymətləndirmək hüququna malikdirlər. Bu mənada zaminlik də iş yoldaşınızın kredit götürdüyü bank qarşısında sizin eyni həcmdə maliyyə öhdəliyinizi yaradır və siz özünüz kredit götürmək istədikdə bank sizin ümumi borc yükünüzü nəzərə alaraq qərar vermək hüququna sahibdir. Zaminlik maliyyə risklərinizi artırdığı üçün bank hesab edə bilər ki, sizə əlavə kredit vermək məqsədəuyğun deyil. Bu isə bankın daxili kredit siyasətinə əsaslanır və qanunun pozulması hesab olunmur.

Beləliklə, bankın sizə zamin olduğunuz üçün kredit verməməsi Azərbaycan Respublikasının qanunvericiliyinə zidd deyil və bu, bankın riskləri qiymətləndirmə hüququ çərçivəsində qəbul etdiyi qərar olaraq qiymətləndirilməlidir.

*Telefonla aldadılıb pul göndərmişəm. Bu halda hüquqlarımı qorumaq üçün hara müraciət edə bilərəm və hansı hüquqi prosedurlar mövcuddur?*

***Sevinc ƏLİYEVA, Buzovna qəsəbəsi***

✓ - Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə, əgər siz telefonla aldanaraq pul göndərmisinizsə, bu hal dələduzluq əlamətləri daşıyır və həmin məcəllənin 178-ci maddəsinə əsasən, cinayət məsuliyyəti yaradır. Bu halda hüquqlarınızı qorumaq üçün aşağıdakı addımları atmalısınız: dərhal Daxili İşlər Nazirliyinə (DİN) və ya yaşadığınız ərazinin polis şöbəsinə müraciət edin. Müraciət yazılı formada olmalı və faktları, göndərilən məbləği, tarixləri, göndərilən şəxs və ya hesab haqqında məlumatları əks etdirməlidir. O cümlədən elektron qaydada da müraciət edə bilərsiniz - DİN-in rəsmi internet səhifəsində (www.mia.gov.az) və ya "102" qaynar xəttinə zəng edərək məlumat verə bilərsiniz. Əgər ödəniş bank vasitəsilə həyata keçirilibsə, bankınıza da dərhal məlumat verin və ödənişin ləğv olunması və ya izinin sürülməsi üçün müraciət edin. Polis orqanı faktı araşdıraraq cinayət işinin başlanmasına dair qərar qəbul edə bilər. Bu halda sizi zərərçəkmiş şəxs kimi tanınacaqsınız. Dələduzluq əməli törətmiş şəxs müəyyən edilərsə, sizə vurulmuş maddi ziyanın ödənilməsi məsələsi məhkəmə qaydasında qaldırılacaq. Bu halda siz mülki iddiaçı qismində çıxış edə bilərsiniz. Dələduzluq hallarının araşdırılması cinayət prosessual qanunvericiliyə uyğun aparılır və hüquq-mühafizə orqanları bu işlə məşğul olmalıdır. Eyni zamanda keyfiyyətli hüquqi yardım almaq üçün vəkilə müraciət etməyiniz tövsiyə olunur.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3814
Sifariş 1629

Qiyməti 60 qəpik